Ümumiyyətlə tələbə qruplarında gender münasibətlərinin təzahür xüsusiyyətləri çoxşaxəli bir məsələdir. Burada nəzərdən keçirilməli olan bir neçə məsələlər vardır. İlk məsələ tələbələr arasındakı gender münasibətləri, ikinci məsələ isə müəllim və tələbə arasındakı gender münasibətləridir. Bir sıra alimlərin fikirlərinə əsasən qarışıq dərs qruplarında tələbələrin öyrənmə motivasiyası və dərsə hazırlıq səviyyəsi daha yüksək olur. Buna

səbəb sosial nəzarət funksiyasıdır. Digər bir tərəfdən tədris mühitində tələbələrin gender seçiminə və münasibətlərinə təsir göstərən ən mühüm amil təhsilverən şəxsin gender münasibətləridir. Bu A. Banduranın "Sosial öyrənmə nəzəriyyəsi" ilə əlaqəlidir.

Tələbə qruplarında gender münasibətlərini nizamlamaq üçün iki istiqamətdən yanaşmaq daha doğrudur. Birincisi tədris sisteminin özündə gender bərabərliyi təmin etmək, ikincisi isə gender araşdırmaları ilə əlaqəli fənnləri tələbələrin tədris sisteminə əlavə etmək.

Hazırki durumda tələbələrin tədris mühitlərində gender münasibətlərini araşdırdığımız zaman görə bilərik ki, tədris mühitində gender bərabərliyinə o qədər də riayət edilmir. Bu məsələ təhsil sistemində işləyən şəxslərin böyük əksəriyyətinin qadın olmasından irəli gəlir. Bu da öz növbəsində tədris sistemində tələbə gənclərin sosial öyrənmə istiqamətində rol gözləmələrinin pozulmasına gətirib çıxarır. Bunu daha sadə dillə izah etsək yəni, oğlan tələbələrin rol model olaraq götürə biləcəyi kişi müəllimlər ya azdır, ya da ki, demək olar yoxdur. Nəzərə alsaq ki, tələbə gənclərin böyük əksəriyyəti yeniyetmələrdən ibarətdir, bu səbəbdən də gender münasibətlərinin düzgün yönləndirilməsi üçün bu məsələ düzgün istiqamətlənməlidir.

Ümumiyyətlə tələbə şəxsiyyətinin düzgün inkişaf etməsi üçün tədris mühitində tələbə qruplarında gender münasibətlərinin təzahür xüsusiyyətlərini araşdırmaq çox vacibdir. Tələbə qruplarında tələbə gənclərin bir-birini başa düşməsi və münasibətlərin düzgün tarazlanması zənnimcə bu prosesin daha da uğurlu olmasına şərait yaradır.

## ƏDƏBİYYAT

1. Kleinman P. Psiko 101. İstanbul:2019. 334s

2. Gender differences in factors affecting academic performance of high school students
3. Gender differences in school achievement: The role of self-regulation
4. Gender Differences in the Academic Performance of Students

## PANDEMİYA DÖVRÜ UŞAQLARDA YARANAN EMOSİONAL POZUNTULAR

***Mahmut Esen***
***BDU-nun II kurs magistrantı***
***essen5125@gmail.com***

2019-cu ilə fevral ayından etibarən bütün dünyada olduğu kimi Azərbaycandan da yan keçməyən pandemiya şəraiti müxtəlif sahələrə mənfi təsirləri ilə yadda qaldı. Covid-19 pandemiyasından qorunmaq üçün görülən tədbirlər çətin bir prosesiözündə ehtiva edir. İnsanların pandemiya ilə mübarizəsi və onların psixologiyasına təsiri, qorunmaq üçün görülən tədbirlərin insanlar üzərindəki psixoloji təsirləri kimi müxtəlif yollar fərqli pozulmalara səbəb olur.

Xəstəlikdən qorxu və narahatlıq hissinin çox olması, yetişkinlərdə və uşaqlarda güclü duyğu dalğalanmalarına gətirib çıxara bilər.

Pandemiya zamanı ən çox stressə məruz qalan qruplar:

- COVID-19 riski yüksək olan yaşlı insanlar və xroniki xəstəlikləri olan şəxslər
- Uşaqlar və yeniyetmələr
- Həkimlər, tibb bacıları, digər səhiyyə işçiləri və təcili yardım briqadaları
- Maddə istifadəsi problemi də daxil olmaqla zehni sağlamlıq problemi olan insanlar

Uşaqlar və yeniyetmələr ətrafdakı böyüklərdən gördüklərinə qismən reaksiya göstərirlər. Valideynlər və tərbiyəçilər COVID-19 ilə təmkinli və etibarlı şəkildə mübarizə aparmaq və stress və narahatlıqlarını düzgün idarə edə bildikləri zaman uşaqları üçün ən yaxşı dəstəyi təmin edə bilərlər. Uşaqlara yalnış məlumat verməməyə diqqət yetirilməlidir, çünki uşaqlar eşitdiklərinə və gördüklərinə böyüklərdən daha asan inanırlar və qavrayışlarını dəyişmək çox çətin ola bilər.

Uşağınızda yaranmış dəyişiklikləri izləyin.

Bütün uşaqlar stressə eyni şəkildə reaksiya göstərməsə də, izləmək lazım olan bəzi ümumi dəyişikliklər bunlardır:

- Əhvalın tez-tez dəyişməsi (anidən gülmək, qəfildən ağlamaq, narahatlıq)
- Uşaqlarda ağlama və əsəbilik
- Alt islatma problemi
- Regresiya (geri qayıtma) əmzik vərdişi və ya nitqdə geriləmə
- Yuxuya getməkdə çətinlik çəkmək

Almaniyada Essen Universitetinin araşdırmasına görə, 2021-ci ilin mart və may aylarında 500-ə yaxın uşaq və gənc intihara cəhd edib. Araşdırmaya görə, bu rəqəm 2017, 2018 və 2019-cu illərin eyni dövrü ilə müqayisədə 3 dəfə çoxdur. Araşdırma qrupunun rəhbəri Kristian Dohna Şveyk qeyd edib ki, hər intihara cəhd xəstəxanaya çatdırılmaqla nəticələnmir. Buna görə də intihara cəhd hadisələri bəlkə də hesablanandan daha çoxdur.

Həkim qeyd edib ki, pandemiya ilə bağlı karantin rejiminin sərt olması uşaq və gənclərə çox pis təsir edib. Bu dövrdə idman salonları, gənclik mərkəzləri və bir çox əyləncə mərkəzləri 5 ay bağlı qalmışdı. Məktəblərin də bağlanması uşaqları və gəncləri mənfi şəkildə təsirləndirib. Azərbaycanda isə, karantin dövrünün ailələrə, yaşlılara təsirləri barədə çox danışıldı. Uşaqların bu dönəmdən necə təsirləndiyini isə, heç kim dilə gətirmədi. Azərbaycanda ötən il uşaqlar arasında intihar hadisələri qeydə alındı. Ama bizim cəmiyyətdə bu barədə çox yazılması məsləhət

görülmür. Çünki təqlid sindromu var. Yəni baş verənləri oxuyan digər uşaqlar da eyni addımı ata bilərlər. Baş verənlərin gizli saxlanılması isə, uşaqların pandemiyadan təsirlənmədiyi demək deyil.

Azərbaycanda da uşaqlar pandemiyadan psixi baxımdan təsirləndi. Bu təsirlənmə onların dərslərinə də, oxumaq-öyrənmək qabiliyyətinə, yaşama həvəsində özünü biruzə verdi. Əksər uşaqlarda, bu dövrdə internet asılılığı meydana gəldi. Evdən çıxmayan uşaqlar zamanlarını telefon, kompüter, tabletlərlə keçirməyə başladı. Bəlkə biz bunun təsirlərini bu gün hiss etmirik, amma bir neçə ildən sonra uşaqlarımızın pandemiya dövründə aldığı travmanı görə biləcəyik.

## ƏDƏBİYYAT

1. https://psixiatr.com/covid-19-pandemiyasinin-yaratdigi-psixoloji-veziyyetde/
2.https://www.cstsonline.org/assets/media/documents/CSTS_FS_Helping_Homebound_Children_during_COVID19_Outbreak.pdf

# ETNİK QRUPLARIN SOSİAL-PSİXOLOJİ ADAPTASİYASINA DAİR

***Qurbanova Nərminə Şamil qızı***
***BDU-nun Sosial və Pedaqoji psixologiya kafedrasının müəllimi***
***narminagurbanova@yahoo.co.uk***

Milli-etnik qrupların müasir şəraitə adaptasiyasının sosial-psixoloji məsələlərini tam aydınlığı ilə müəyyənləşdirmək üçün adaptasiya prosesinin özünəməxsus cəhətlərinin aydınlaşdırmaq lazımdır.

Aparılmış tədqiqatlarda milli-etnik qrupların adaptasiyanın daxili və xarici tərəfləri xüsusi qeyd edilir. Daxili adaptasiya psixoloji adaptasiya adlanır ki, bu da milli-etnik qrupların

həyatdan məmnunluq hissində təzahür edir. Bununla yanaşı adaptasiyanın xarici tərəfini də ayırd edirlər ki, bu da sosial-psixoloji adaptasiya adlanır (3;4;6).

Adaptasiyanın bu cəhəti milli-etnik qrupların sosial və mədəni həyatda yeni qruplara uyğunlaşmasında, şəxsiyyətlərarası münasibətdə bərabərhüquqlu üzv kimi çıxış etməsində özünü göstərir.

Fərdin bütünlüklə adaptasiyası üçün onun kompleks adaptasiya olunması zəruridir. Yeni sistemə adaptasiya, yeni dəyərlərin formalaşmasına və onların cəmiyyətin tələblərinə müvafiqliyinə cavab verməsi vacibdir.

Adaptasiyanın növləri içərisində psixoloji adaptasiya mühüm rol oynayır. Psixologiyada adaptasiya hiss üzvlərinin uyğunlaşması kimi təqdim olunur. Psixoloji adaptasiya prosesi fasiləsiz baş verir, ona görə ki, sosial-iqtisadi şəraiti dəyişir, bu yönümdə şəxsiyyətin əxlaqi-etik yönümü də dəyişir. Məhz bu nöqteyi-nəzərdən psixoloji adaptasiya digər adaptasiya növlərindən fərqlənir. Uğurlu uyğunlaşma, adətən, ətraf aləmlə harmonik münasibətlərin qurulması kimi təqdim olunur. Burada əsas diqqət milli-etnik qrupların həyatdan məmnunluğuna və psixoloji sağlamlığına yönəldilir (5).

Sosial adaptasiyanın müvəffəqiyyətini təmin edən amillərdən biri də etnos üzvünün fərdi-psixoloji xüsusiyyətləridir. Lakin faktlar göstərir ki, yalnız fərdi-psixoloji xüsusiyyətlər deyil, həm də fərddə pozitiv sosial identikliyin yaranması, onun sosial və etnomədəni xüsusiyyətləri də mühüm rol oynayır. Məsələn, türk toplumunun etnik-psixoloji xüsusiyyətlərindən biri ailəyə emosional bağlılığı, ondan aralıda yaşaya bilməyin çətinliyi və s. xarakterikdir. Yəni onların etnopsixoloji keyfiyyətləri bu və ya digər yad şəraitə və ya sosial-mədəni mühitə adaptasiyasını çətinləşdirir. Belə xüsusiyyətlər yəni həssaslıq, kövrəklik, öz yurduna bağlılıq və s. onların adekvat adaptasiyasına mane olan amillərdəndir.

İnsanın adaptasiyasının və etnik aləminin psixoloji xüsusiyyətlərinin anlaşılması üçün sosial davranışın bəzi tənzimləmə mexanizmlərinin, məsələn, ”Mən-konsepsiyası ” baxımından nəzərdən keçirilməsi zəruridir. Özü haqqında düşünərkən insan çox nadir hallarda neytral ola bilir, o həmişə özünə hansısa münasibət mövqeyindən yanaşır. Bununla əlaqədar olaraq, insanın özü haqqında düşüncələri həmişə emosional çalara malik olub,

“Mən-konsepsiya”nın, adətən, üç əsas komponentini ayırd edirlər: koqnitiv, emosional-qiymətləndirmə və davranış.

Koqnitiv komponent olan “Mən-obrazı” insanın özü haqqında təsəvvürlərinin mahiyyətini səciyyələndirir. ”Mən obrazı” özündə insanın öz qabiliyyət və bacarıqları haqqında, əhatəsində olanlarla münasibətləri, zahiri görkəmi, sosial dairəsi, maraqları, şəxsi keyfiyyətləri və s. haqqında təsəvvürlərini birləşdirir

“Mən-konsepsiya”nın ikinci komponenti özünə qarşı emosional-qiymətləndirmə münasibəti insanın (etnoforun) bütövlükdə özünə qarşı, yaxud şəxsiyyətinin, fəaliyyətinin və s. ayrı-ayrı tərəflərinə münasibətini əks etdirir və bu, özünəhörmətdə, şəxsi ləyaqət hissində, özünüqiymətləndirmədə və iddiaların səviyyəsində təzahür olunur.

Özünüqiymətləndirmə iddialarının səviyyəsi, yəni insanın qarşısına qoyduğu hədəflərin çətinlik səviyyəsi ilə sıx əlaqədardır; o, insanın hansı nailiyyətləri uğursuzluq, hansılarını isə müvəffəqiyyət kimi qəbul edəcəyini (qavrayacağını) müəyyən edir.

Belə hallarda özünüqiymətləndirmənin adekvatlığı haqqında da danışmaq lazım gəlir. Özünüqiymətləndirmə o zaman adekvat hesab olunur ki, insan hər hansı fəaliyyət sahəsində real uğurlu fəaliyyətinə müvafiq gəlmiş olsun.

Qeyri-adekvat qiymətləndirmə həqiqi dəyərdən yüksək (subyekt öz aktual imkanlarını olduğundan xeyli dərəcədə yüksək qiymətləndirir) və həqiqi dəyəri azaldılmış (subyekt

aktual imkanlaını olduğundan aşağı səviyyədə qiymətləndirərkən) ola bilər.

Şəxsiyyətin inkişafı üçün optimal hal özünəhörmətin, ümumi qiymətləndirmənin yüksək səviyyədə olmasıdır. Yüksək səviyyədə özünəhörmətə malik olan insan şəxsi ləyaqət hissinə malik olan, özünə inanan insandır. Belə insan özünü başqalarının, şəxsi imkanlarının, şəxsi səylərinin həyata keçirilməsi hesabına reallaşdırır və təsdiq edir.

"Mən-konsepsiya"nın üçüncü komponenti davranış komponentidir. Bu komponent insanın özünütənzimləmə imkanlarını, insanın müstəqil qərarlar vermək qabiliyyətini, davranışını idarə etmək, onu nəzarətdə saxlamaq, öz əməllərinə görə cavab vermək kimi məqamları müəyyən edir.

"Mən-konsepsiya"nın vacib ölçülərindən biri də davranışda daxili və ya xarici nəzarətə istiqamət götürülməsidir. Buna əsasən insanları eksternal və internal kimi qruplara ayırmaq olar.

Göründüyü kimi, milli-etnik qrupların sosial-psixoloji adaptasiyanın komponentləri olduqca müxtəlif və mürəkkəb psixoloji mexanizmə malikdir. Bu baxımdan müasir dövrdə milli-etnik qrupların sosial-psixoloji adaptasiyanın komponentlərinin mürəkkəbliyi nəzərə alınmalı və hər bir etnosun müasir şəraitə uğurla adaptasiyasının sosial-psixoloji mexanizmləri öyrənilməlidir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı: Qapp, "Poliqraf" korporasiyası, 2003. 365 s.
2. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: İntibah, 2001, 374 s.
3. Алексеева Т. И. Адаптивные процессы в популяциях человека. М. 1986. С.150.
4. Стефаненко Т.Г. Этнопсихология:Учебник для вузов. М.: Аспект Пресс, 2009

5. Таранов Е.В. Социально-психологические проблемы адаптации молодого рабочего: Дис. ... канд.психол наук. М., 1976. 200 с.
6. Уорд К. Азбука аккультурации // Психология и культура, СПб: 2003, 709 с.
7. Berry J.W. Immigration, Acculturation and Adaptation. Ontario. 1996.
8. Taylor D. M. Ethnocentrism and causal attribution in a South Indian context// Of Cross-Cultural Psychology, 1974. Vol. 5, p. 162-171

## DEPRESSİYANIN KOQNİTİV FUNKSİYALARA TƏSİRİ

***Nigar Ramilova***
***BDU-nun II kurs magistrantı***
***nigar1598@list.ru***

Depressiya ən çox yayılmış psixi pozğunluqlardan biridir və bütün dünyada əlilliyin əsas səbəbidir. Depressiyanın koqnitiv, emosional və somatik təzahürləri işləmək qabiliyyətinin, fiziki və sosial fəaliyyətin pozulmasına gətirib çıxarır

Yalnız depressiv pozğunluq səbəbindən məhsuldarlığın azalması ilə əlaqəli dolayı xərclər depressiyanın ümumi iqtisadi yükünün 60% -dən çoxunu təşkil edir. [1,s.10] Bu, birbaşa xərclərin məbləğindən iki dəfə çoxdur. Depressiyaya diaqnoz qoymaq üçün təsdiqlənmiş alətlərdən istifadə olunur. ABŞ-da bu, Amerika Psixiatriya Assosiasiyası tərəfindən hazırlanmış Psixi Pozğunluqlarının Diaqnostik və Statistik Təlimatı (Diagnostic and Statistical Manual of Mental Disorders – DSM-5) Rusiyada Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiq edilmiş Xəstəliklərin Beynəlxalq Təsnifatıdır (ICD-10). Hər iki təsnifatda əsas elementlərdən biri depressiv epizod kateqoriyasıdır. Bir qədər fərqli adlara baxmayaraq - DSM-5-də

əsas depressiv epizod və ICD-10-da depressiv epizod - diaqnostik meyarlar çox yaxındır.

**Depressiyanın gedişi.**

Qızıl standarta görə, depressiyanın müalicəsinin əsas məqsədi simptomların tam aradan qaldırılması və gündəlik fəaliyyətin (həyat keyfiyyətinin) yaxşılaşdırılmasıdır.

Müalicəyə cavab simptomların şiddətinin ilkin (terapiyaya başlamazdan əvvəl) səviyyəsinə nisbətən 50% klinik əhəmiyyətli azalmasına nail olmağı nəzərdə tutur. "Remissiya" və "bərpa" anlayışları depressiya əlamətlərinin praktiki olaraq olmadığını göstərir.

Bir çox klinik tədqiqatlarda remissiya reytinq şkalasında balların azalması ilə müəyyən edilir ki, bu da bir qayda olaraq simptomların tam aradan qaldırılmasına uyğun gəlmir. Üstəlik, düşük əhval və maraq itkisi adətən klinik olaraq depressiyanın digər simptomları ilə üst-üstə düşür, buna görə də əhvalın yaxşılaşması remissiya vəziyyəti kimi yanlış təfsir edilə bilər. Beləliklə, praktikada remissiya vəziyyətində, bir qayda olaraq, müalicənin bir neçə mərhələsindən sonra da simptomların tam aradan qaldırılması müşahidə edilmir və xəstəlik daim davamlı simptomlar səbəbindən uzun sürən ağır kurs ilə xarakterizə olunur.

Təxminən 4000 pasiyentin iştirakı olan STAR tədqiqatı dörd dövrə müalicədən sonra ümumi remissiya nisbətini 67% göstərmişdir. Bununla belə, pasiyentlərin təxminən 70%-də bir il ərzində xəstəliyin təkrarlanması müşahidə olunur. Remissiya zamanı davam edən simptomlar depressiya kursunun residiv xarakterini və son nəticədə müalicəyə qarşı müqaviməti əvvəlcədən müəyyən edirdi.267 pasiyentin üç illik perspektiv təqibində hər həftə depressiv pozğunluğun müxtəlif mərhələlərində fərdi klinik simptomlar qiymətləndirilmişdir . Səkkiz həftə ərzində qayıtma edən pasiyentlər, səkkiz həftədən çox remissiyada olan xəstələrlə müqayisədə (yəni, sağaldıqda) remissiya zamanı simptomların şiddətini bildirmişdirlər. Eyni

zamanda, davamlı alt həddi simptomların kumulyativ təsiri, görünür, xəstəliyin yeni bir qayıtma səbəbi kimi xidmət etmişdir.

Bütövlükdə, bu müşahidələr daha çox əsas depressiv epizodun əvvəlcə tam remissiyada deyil, subsindromal formada davam etdiyini göstərir. Bu, həll edilməmiş depressiv simptomları olan pasiyentlərdə asimptomatik remissiyaya nail olanlara nisbətən qayıtmaların üç dəfə çox olması ilə uyğundur . Üstəlik, rifah hissi və premorbid fəaliyyət səviyyəsinə qayıtmaq pasiyentlər üçün xəstəliyin əsas simptomlarının aradan qaldırılmasından daha vacibdir. Eyni zamanda, fəaliyyətin yaxşılaşdırılması tez-tez hipotimiya kimi simptomların həllindən geri qalır. Optimal fəaliyyət səviyyəsinin bərpasının gecikmiş təsirlərinin səbəbləri tam aydın deyildir. Bununla belə, funksional potensiala açıq şəkildə mənfi təsir göstərən əsas simptomlara müalicəyə baxmayaraq, adətən davam edən simptomlar daxildir: yorğunluq, yuxu və ayıq qalma pozğunluğu, koqnitiv disfunksiya . Beləliklə, ən uyğun olmayan simptomlar arasında pasiyentlər yorğunluq və enerji itkisini, yuxu pozğunluğunu, konsentrasiyanın çətinliyini və yaddaşın pozulmasını göstərir .

Remissiya zamanı klinik simptomların spektrinin təhlili və onun xəstəliyin irəliləməsindəki rolu optimal müalicə strategiyalarının axtarışında əsas aspektlərdəndir. Depressiya ənənəvi olaraq affektiv pozğunluq kimi qəbul edilsə də, son iki onillikdə aparılan tədqiqatlar onun klinik fenomenologiyasının daha geniş spektrini açıq şəkildə nümayiş etdirmişdir, və eyni zamanda, koqnitiv funksiyanın xəstəliyin gedişatını və nəticələrini müəyyən edən əsas amil kimi, eləcə də yeni terapevtik müdaxilələr üçün hədəf kimi rolunu aydınlaşdırmağa imkan vermişdirlər.

***Depressiyada koqnitiv pozğunluqların profili***

Düşüncə və konsentrasiyanın pozulması, qərar verməkdə çətinlik çəkmək depressiyanın əsas diaqnostik əlamətləridir [2].

Bununla yanaşı, uzun müddət davam edən və pasiyentlərin gündəlik fəaliyyətini pozan koqnitiv əlamətlərdir. H.J. tərəfindən üç illik perspektiv tədqiqatda Conradi və digərləri göstərmişdir ki, BDP olan pasiyentlərdə dövrlərdə koqnitiv pozğunluq əlamətləri 94%, remissiya dövrlərində isə 44% müşahidə olunur. Remissiya zamanı digər qalıq simptomlar koqnitiv pozğunluqdan daha az müşahidə edilmişdir: yuxu problemləri vaxtın 39%-ni, enerji itkisi - 35%, düşük əhval - 21%-ni təşkil etmişdir.

Depressiyaya uğramamış şəxslərlə müqayisədə depressiyaya uğramış pasiyentlərdə dərhal yaddaş, diqqət, düşüncə sürəti, məkan-vizual funksiyası və öyrənmə daxil olmaqla, bütün koqnitiv sahələrdə pozğunluqlar müşahidə olunur. Bu, remissiyada əldə edilən depressiv simptomların azalmasına baxmayaraq, fəaliyyətə mənfi təsir göstərir [3,s.270]. Oxşar nəticələr (təkrarlanan unipolyar depressiya olan pasiyentlərdə neyropsixoloji testlərin göstəriciləri depressiya olmayanlara nisbətən daha aşağıdır) 11 böyük müşahidə tədqiqatının sistematik icmalında əldə edilmişdir.

Bir sıra tədqiqatlar BDP olan pasiyentlərin bir sıra vəzifələri yerinə yetirərkən diqqət çatışmazlığının olduğunu bildirmişdir. Diqqətlə əlaqəli funksiyalara frontal lobların funksional fəaliyyətini daha çox əks etdirən emal sürəti, seçmə diqqət və avtomatik emal daxildir. BDP olan pasiyentlər diqqət göstəricilərini əhatə edən tapşırıqları daha pis yerinə yetirirlər, halbuki onların avtomatik məlumat emal performansı əziyyət çəkmir [4,s.178]. Bundan əlavə, diqqət pozğunluğu ən çox xəstəliyin kəskin mərhələsində qeyd olunur.

## ƏDƏBİYYAT

1.Kessler R.C The cost of depression// Psychiatr.Clin North Am.2012 1-14 s.

2.Diagnostic und statistical manual of mental disorders. Washington, DC: American Psychiatric Association, 2013
3.Greer T.L.,Kurian B.T.,Trivedi M.H. Defining und meausiring functional recovery from depression//CNS Drugs.2010 267-284 s.
4. Hammar A.,Lund A. Long-lasting cognitive impairment in unipolar major depression: a six months follow-up study.// Psychiatry Res.2003. 174-188 s.

## TƏFƏKKÜRÜ ÖYRƏNMƏNİN XÜSUSİYYƏTLƏRİ

***p.ü.f.d. Nəsirova Nigar Ruslan qızı***
***BDU-nun Psixologiya kafedrasının müəllimi***
***nigar_nasirova86@mail.ru***

***Təfəkkür fəaliyyət prosesi kimi.*** Anlamanı, dərketməni fəaliyyətdən kənarda təsəvvür etmək olmaz. Axı insan fəaliyyət prosesində, işləri icra etdiyi zaman cisim və hadisələrin mahiyyətini, təyinatını, ictimai əhəmiyyətini anlayır, dərk edir. Ona görə də təfəkkürü, dərketməni fəaliyyət prosesində üzə çıxan bir insani akt, fikri davranış kimi başa düşmək lazımdır. Məhz belə olduqda, təfəkkürün mexanizmini tam dəqiqliyi ilə üzə çıxartmaq olar. Hər bir insanın bir ictimai varlıq kimi özünəməxsus keyfiyyətləri vardır. Bu keyfiyyətlər onun təfəkkür fəaliyyətinə müəyyən təsir göstərir. İnsanın şəxsi keyfiyyətləri - arzuları, istəkləri, maraqları, meylləri təfəkkür prosesini zənginləşdirir. İnsan fəaliyyət göstərdikcə, onun şəxsi keyfiyyətləri də püxtələşir, cilalanır və nəticədə təfəkkürü də rəngarəng və kamil olur. Təfəkkür məhz şəxsi keyfiyyətlərin rəngarəngliyinə, fərdi səciyyəsinə görə fərdiləşir, tipikləşir, ictimailəşir.

Təfəkkür prosesində subyektiv faktorların belə üzə çıxması bir daha sübut edir ki, əsil təfəkkür məhz insana xas olan prosesdir. Təfəkkürün fəaliyyəti zamanı insanın psixi

proseslərinin ictimai cəhətdən şərtləşməsi, yəni ictimai əhəmiyyət kəsb etməsi həm təfəkkürü ən mürəkkəb və ən faydalı bir proses kimi fərqləndirir, həm də insanı təfəkkürlə heyvanlarda təzahür edən primitiv, bəsid düşüncə tərzi arasındakı fərqləri qabarıq şəkildə üzə çıxarır. Insan fəaliyyət göstərə-göstərə əmək alət və vasitələri yaradır bu prosesdə öz təfəkkürünü də inkişaf etdirir. Bu da təfəkkürə məqsədyönlülük, ixtiyarilik keyfiyyəti aşılayır. Beləliklə, təfəkkür əmək prosesinin, insan fəaliyyətinin nəticəsidir. O, məhz bu prosesdə təşəkkül tapır, inkişaf edir və püxtələşir.

Təfəkkürün fərqli xüsusiyyətlərindən biri də onun hiss və emosiyalarla əlaqədar olmasıdır. Hiss və emosiyalar insan təfəkkürünü üç halda yetginləşdirir. Birinci halda hiss va emosiyalar təfəkkürü fəaliyyat prosesinə təhrik edir. İnsan hər hansı bir işə, fəaliyyət sahəsinə hissi-emosional münasibət bəslədikdə, həmin işin icrasından zövq aldıqda birinci növbədə onu daha yaxşı dərk etməyə çalışır. Məsələn, tələbənin hər hansı bir elm sahəsinə marağının artması, o elmi yüksək qiymətləndirməsi, onu sevməsi tələbədə həmin elm sahəsini daha yaxşı dərketmə cəhdini üzə çıxarır. Bunun nəticəsində o, sevdiyi elm sahəsi üzrə ali məktəbə daxil olur, bu elmin sirlərinə daha dərindən yiyələnir. Nəticədə həmin təfəkkür bu sahədə daha yaxşı inkişaf edir. Müəllimlik sənətinə, həkimlik sahəsinə, mühəndislik yönümünə yiyələnmək məhz belə təşəkkül tapır. İkinci halda hiss və emosiyalar insanda cisim və hadisələrin mahiyyətinə varmaq, onları bütün incəlikləri ilə dərketmək reaksiyası yaradır. Məsələn, D.İ.Mendeleyev kimyəvi elementlərin dövri sistemini dərk etmək üzrə idi: gözlerini yumduqda, bütün kimyəvi elementlər gözləri qarşısında canlanırdı. Gözlərini açıb onları yazmaq istədikdə isə kimyəvi elementlər göz önündən qaçırdı. Beyin yorulmuşdu, kimyəvi elementləri tam dərk edə bilmirdi. Alim isə öz inadından dönmürdü. Bir həftə idi ki, istirahət etmirdi, laboratoriyadan evinə də getmirdi. D.I.Mendeleyev ani olaraq yuxuya gedir.

Beyin bu anda öz işini bərpa edir və alim dərhal ayılıb, kimyəvi elementlərin dövri sistemini realliğa çevirir. Beləliklə, hiss və emosiyalar təfəkkürü fəaliyyətə təhrik edən proses kimi üzə çıxır. Nəhayət, üçüncü halda hiss və emosiyalar insanlarda müəyyən cismə və ya hadisəyə münasibətin formalaşmasına səbəb olur. Bunun nəticəsində həmin insanlarda təfəkkür belə hiss və emosiyalar əsasında köklənmiş olur. Məsələn, əgər biz müəyyən şəxs haqqında yaxşı fikrə gəlmişiksə, bütün sonrakı hallarda həmin insanda biz ancaq yaxşı hallar axtarırıq. Onun zəif cəhətlərinə fikir vermirik. Əgər hər hansı bir oğru, quldur, dələduz haqqında səndə irəlicədən xeyirxah, alicənab, mərd, bacarıqlı insan obrazı yaratsalar sən həmin qulduru alicənab insan kimi qəbul edəcəksən. Deməli, formalaşmış münasibətlər təfəkkürün məzmun və qayəsini də dəyişdirir. Arzu olunur ki, belə dəyişmə ancaq müsbət cəhətdən baş versin. Bu zaman təfəkkür daha səmərəli inkişaf edə bilər ***Təfəkkür prosesində motivləşmə.*** İnsanın təfəkkür fəaliyyəti tələbatlardan doğur. Tələbatlar isə motivləri yaradır. Beləliklə, təfəkkür tələbat və motivlərin təşəkkülü nəticəsidir. Heç bir tələbat və motiv olmadan insan heç bir şey haqqında fikirləşə, mühakimə yürüdə bilməz. Deməli, təfəkkür tələbatların və motivlərin təhriki nəticəsində fəaliyyətə başlayır. Başa düşmək lazımdır ki, nə «sırf» təfəkkür, nə fikir düşünür, dərk edir. Düşünən, dərk edən insanın motivlərinin təhrik etdiyi insandır. Ona görə də insanın tələbatlari va motivləri hər bir psixi prosesin, o cümlədən təfəkkürün fəaliyyətinin əsasını təşkil edir. Təfəkkürün motivləri iki formada üzə çıxır: 1. Insana xas olan tələbatlardan doğan motivlər - spesifik motivlər. Bu motivlər arzu, istək, maraqlardan ibarət ola bilər. Məsələn, tələbə müəyyən problemi heç kəsin təhriki olmadan, özünün arzu və istəklərinə müvafiq olaraq, nəyi isə öyrənmək, kəşf etmək, mənimsəmək məqsədilə həll etməyə başlayır. Bu prosesdə üzə çıxan motiv tələbənin arzu istəklərindən, tələbatlarından doğan idraki motividir. İkinci halda təfəkkür motivi insanın arzu və istəklərindən deyil, xarici

faktorların təsirindən doğur. Məsələn, tələbə müəllimin tələbi ilə müəyyən problemi öyrənməyə, dərk etməyə məcbur olur. Bu problem onun arzu və istəklərinə müvafiq gəlmir. Amma məcburdur ki, ya qiymət xatirinə, ya da müəllimin təhriki üzündən tələbə bu problemi öyrənib dərk etsin. Belə motiv qeyri-spesifik təfəkkür motividir. Lakin belə halda da adam qeyri-spesifik motivə özünəməxsus spesifiklik əlavə edir: həmin tələbədə müəyyən dərəcədə öz arzu və istəklərinə müvafiqlik tapıb, problemi dərk edir. Belə vəziyyət, spesifik təfəkkür motivləri kimi təfəkkürün inkişafında səmərəli rol oynayır. Beləliklə, insan motivlərin təhriki ilə daha mühüm hadisələri dərk etməyə və bununla da, təfəkkürünü sürətlə inkişaf etdirməyə nail ola bilir.

Təfəkkür və informasiya mübadiləsi prosesi. Təfəkkür bilik almaq və informasiya mübadiləsi prosesi ilə bilavasitə əlaqədardır. Təfəkkür bir ictimai proses kimi biliksiz, informasiyasız yaşaya bilməz. İnsana hava və qida nə qədər lazımdırsa, informasiya da bir o qədər zəruridir. İnsan havasız və qidasız yaşaya bilmədiyi kimi, informasiya qəbul etmədən, biliyə malik olmadan fəaliyyət göstərə bilməz. Cəmiyyətin üzvi olan hər bir insan cəmiyyətin topladığı informasiyalara möhtacdır. Necə ola bilər ki, cəmiyyətdə yaşayasan, amma cəmiyyətin fəaliyyəti üçün zəruri olan informasiya mübadiləsi aparmayasan. Əlbəttə, belə yaşamaq və fəaliyyət göstərmək mümkün deyildir . Deməli, təfəkkür informasiyasız, biliksiz fəaliyyət göstərə bilməz. Axı insanın mayası da informasiyalarla yoğurulmuşdur. Tədqiqatlar göstərir ki, anadan yenicə dogulmuş uşağın fəaliyyət göstərməsi üçün onun ziqotunda (ata və ana cinsi hüceyrələrinin birləşməsindən əmələ gələn prosesdə) 10 bit irsi informasiyaların olması zəruridir. Bu informasiyalar insanın sonrakı fəaliyyəti dövründə həm mühitin təsiri ilə, həm də özünün idraki fəalliyyətinin nəticəsində artır, çoxalır ve keyfiyyətcə zənginləşirlər.

Beləliklə, insan təbiətən informasiyalara bağlı olan varlıqdır və informasiyasız, biliksiz təfəkkürü təsəvvür etmək olmaz. Bilik bir tərəfdən təfəkkür və digər psixi proseslərin fəaliyyəti üçün zəmin hazırlayır, digər tərəfdən insan əldə etdiyi biliyin, məlumatların əsasında yeni-yeni bilik və məlumatlar düşünüb, fikirləşib, axtarıb, kəşf edib tapa bilir. Təfəkkür yalnız zəruri biliyin mövcud olduğu zaman fəaliyyət göstərmir. Düzdür, kafi qədər bilik olmasa, insan yeni kəşflər edə bilməz. Lakin zəruri bilik olmadıqda insan yeni bilik almağa, axtarışlar aparmağa daha çox meyl edir. Axı insan yaşamaq, özünün tələbatlarını ödəmək üçün mütləq zəruri olan informasiyalara malik olmalıdır. Məsələn, insanlar qidalanmaq, orqanizmin zülallara və digər kimyəvi maddələrə tələbatını ödəmək üçün əsrlər boyu axtarışlar aparıb çörəyi, şəkəri, yağları kəşf edə bilmişlər.

İnsanlar kafi qədər bilik əldə etdikdən sonra yaradıcılılıq prosesini səmərəli şəkildə davam etdirmək üçün işin icra yol və vasitələrini axtarıb tapmağa çalışmışlar. Bu icra yolları və vasitələri tapıldıqca, təfəkkür daha da aktiv fəaliyyət göstərməyə başlamışdır. Beləliklə, informasiya, bilik həm təfəkkürün təşəkkülünə, həm də inkişafına imkan vermişdir. Belə halda informasiyaların yalnız kəmiyyət deyil, həm də keyfiyyəti əsas rol oynamışdır. Müasir dövrdə elm və texnika sürətlə inkişaf etdiyi üçün həm informasiyaların miqdarı artmış, həm də onlar məzmunca yeniləşmiş keyfiyyət dəyişmələrinə uğramışlar. Belə bir vəziyyət təfəkkürdən mühüm olan informasiyalarla mühüm olmayan informasiyalar, indiki dövrdə əhəmiyyətini itirməyə başlayan informasiyalar arasındakı fərqi tapmaq və mühüm, daha faydalı informasiyalara əsaslanmağı tələb edir. Bu gərgin proses təfəkkürün inkişaf sürətini artırır.

Təfəkkür cisim va ya hadisələrin məzmun mahiyyətinin, onlar arasındakı qanunauyğun əlaqə və asılılıqların dil materialı arasında nitqin iştirakı ilə insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan sosial cəhətdən şərtləşmiş mürəkkəb idrak prosesidir.

**Təfəkkür və fikri məsələ həlli prosesi.** Təfəkkür məqsədəuyğun xarakter daşıyır. İnsanin həyat və fəaliyyəti prosesində onun qarşısında yeni məsələ durduqda, yeni problem üzə çıxdıqda, yeni şərait (situasiya) yarandıqda dərhal təfəkkür fəaliyyətə başlayir. Köhnə problem yeni şərait üçün yaramadıqda və ya həmin problem artıq həll edilib öz əhəmiyyətini itirdikdə, problemi həll etmək üçün köhnə icra üsullari səmərəli olmadıqda yeni problem üzə çıxır və yeni problemin həlli yeni icra üsullarının tapılmasını tələb edir. Deməli, yeni problem köhnə problemin mövcudluğu şəraitində, lakin köhnə problemin əhəmiyyətini itirməyə başladığı andan meydana gəlir, yetginləşir və üzə çıxır. Bundan sonra isə həmin problemi həll etmək üçün yeni icra üsullari axtarıb tapmaq lazım gəlir. Məsələn, uşaq 2x2-nin cavabını yaxşı bildiyi üçün belə misalları asanlıqla həll edir və heç bir çətinliklə üzləşmir. Lakin 5xX misalında x-i tapmaq əməliyyatını yerinə yetirməli olduqda, çətinliyə düşür və əvvəllər öyrəndiyi fikri məsələnin həlli yolları səmərəli nəticə vermir. Belə çətinliyi, problemi həll etmək üçün uşaq mütləq ye fikri məsələ həlli yollarına yiyələnməlidir.

Problemli situasiyasi ilə fikri məsələ həlli prosesini biri-birindən fərqləndirmək lazımdır. Problemli situasiya zamanı problem ətraflı dərk edilmir. Adam hiss edir ki, onun qarşısına çətin vəzifə qoyulmuşdur. Lakin bu çətin vəzifənin nədən ibarət olduğunu hələ ətraflı dərk edə bilmir. Tədricən adam həmin problemi dərk etməyə, onun nədən ibarət olduğunu bilməyə, hansı yeniliyin baş verdiyini üzə çıxarmağa çalışır. Bu prosesdə təfəkkürün fəaliyyəti zəif üzə çıxır. Lakin adam yeniliyi məhz təfəkkürü vasitəsilə müəyyənləşdirməyə çalışdığı üçün təfəkkür də problemi dərk etməyə müəyyən kömək göstərir. Əsil fikri məsələ problemi ətraflı dərk edib, onun icra yollarını tapmaqda ifadə olunur. Problem dərk edildikdən sonra adam onu həll etmək üçün axtarışlar aparır. Fikri məsələ bu prosesdə qüvvətlənir. Bu akt məhz fikri məsələnin həlli prosesi adlanır.

Problemli situasiya, şərait dedikdə yeni problemin üzə çıxdığı məqam, yəni üzə çıxan yeni məsələ və yeni şərait başa düşülur.

Fikri məsələ həlli dedikdə isə həmin problemin həllinə həsr edilən dərketmə prosesi nəzərdə tutulur. Birinci halda (problemli situasiya zamanı) təfəkkür zəif, ikinci halda isə təfəkkür tam qüvvə il fəaliyyət göstərir. Məsələn, təyyarəçi təyyarədə xoşagəlməz səs eşidir və təyyarəni idarəni itirməyə başlayir. Problemli situasiya yaranır. Bu anda hələ problem dərk edilmir, təfəkkür hələ aktiv fəaliyyət göstərmir. Lakin problemi dərhal həll etmək lazımdır. Problem həll olunmasa, qəza baş verə bilər. Bu zaman təfəkkür tam aktivliyi ilə fəaliyyət göstərib problemi həll edir. Bu proses fikri məsələ həlli prosesi kimi qiymətləndirilir. Fikri məsələ həlli prosesində problemi dərk etmək, onun ayri-ayri ünsürlərini müəyyənləşdirmək, yeniliyi üzə çıxartmaq nə qədər tez və düzgün müəyyənləşdirilsə, fikri məsələ də bir o qədər tez və düzgün həll edilə bilər. Ona görə də fikri məsələnin həlli prosesində analitik-sintetik fəaliyyətin dəqiqliyi, müqayisənin düzgün aparılması, ümumiləşdirmələrin inandırıcılığı-bir sözlə problemi həll edən adamın (adamların) təfəkkürünün tam optimalliği əsas rol oynayır.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik. Bakı:2002. 623 səh.
2. Bayramov Ə. S. Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi. Bakı:1966. 115 səh.
3. Ускова С.А. Сотрудничество педагога и родителей в воспитании и обучении детей школьного возраста: научно методическое пособие. СПБ: СПБ АППО, 2008, 61с.

# YENİYETMƏLİK YAŞI DÖVRÜNDƏ DEVİANT DAVRANIŞIN TƏZAHÜR ETMƏ FORMALARI

***Rəhmanzadə Aynur***
***BDU-nun II kurs magistrantı***
***aynurrehmanzade@gmail.com***

Yeniyetmə sözünün latın dilindən tərcüməsi “inkişaf edən” deməkdir. Bu anlayış ilk dəfə Stanley Hall tərəfindən 1904-cü ildə həmin yaş dövrünü digərlərindən fərqləndirmək üçün istifadə edilib.

Erikson nəzəriyyəsinə görə, “yeniyetməlik” - insan həyatının səkkiz fizioloji inkişaf mərhələlərindən beşincidir. Bu nəzəriyyəyə əsasən, hər bir mərhələnin inkişafı – müəyyən böhran (krizis) halları ilə davam edir, həmin mərhələyə xas olan müəyyən ziddiyyətlərlə, onların həlli, bir sıra məsələlərin həyata keçirilməsi ilə xarakterizə olunur. Yeniyetməlik dövrünün böhranlarından biri də şəxsiyyət böhranıdır və əsas məsələ şəxsiyyətin özünü dərk etməsidir (4).

Müasir dövrümüzdə əlverişli olmayan həyat şəraiti və münasibətlər sistemini ailədə, məktəbdə, yeniyetmələrin asosial çevrəsində xoşagəlməz rəftar və davranış tərzinin təsiri ilə ayrı-ayrı yeniyetmələrdə deviasiya halları asanlıqla formalaşa bilər. Yəni, bəzi yeniyetmələrdə deviant davranışda sterotipləşmə mexanizmi asanlıqla yarana və ayrı-ayrı hallarda ağır cinayət əməlləri formasında özünü biruzə verə bilər (5).

Deviant davranış latın dilindən tərcümədə “deviatio”, “sapma” deməkdir. Bu anlayış cəmiyyət və mədəniyyət normalarından kənara çıxmış davranış formalarını izah etmək məqsədilə istifadə edilir. Yeniyetməlik dövründə deviant davranışın müxtəlif təzahür əlamətlərinə rast gəlmək mümkündür. Həmin əlamətlərə aqressivlik, dərsdən yayınma, yoldaşları ilə kobud rəftar, konfliktə meyil, norma və qaydaları nəzərə almamaq kimi halları aid etmək olar. Deviant davranışa

meyilli olan yeniyetmələr destruktiv davranış nümayiş etdirərək, yalan danışır, dərsdən yayınır, məktəbin şüşələrini, partaları sındırır, dərs prosesinin pozulmasına səbəb olurlar.

Deviant davranışa meyilli yeniyetmələr eyni zamanda özünütəsdiqə meyilli olurlar. Təlim prosesində bunu nümayiş etdirə bilməyən şagirdlər özlərindən zəif olanları incidir, müəllimlərə kobud davranırlar.

Həmin yeniyetmələr səbrsiz və aqressiv olduqları üçün konfliktə meyilli olurlar. Dostları, həmyaşıdları, əsasən də müəllim və valideynləri ilə tez-tez konfliktə girirlər. Bunun nəticəsi olaraq bəzən sinifi və ya evi tərk etməyə çalışırlar.

## ƏDƏBİYYAT


1. Əmrahlı L., Rzayeva N., Uşaq psixologiyası. Bakı, 2015.
2. Nuriyev S., İbrahimova D., Təhsildə sosial-psixoloji xidmət. Bakı, 2016.
3. Seyidov S.İ., Həmzəyev M.Ə., Psixologiya. Bakı 2007.
4. https://amu.edu.az/storage/files/6/muhazire/U%C5%9EAQ-YEN%C4%B0YETM%C6%8FL%C6%8FR%C4%B0N%20SA%C4%9ELAMLI%C4%9EI/1/8.pdf
5. https://psynavigator.ru.gg/Deviant-davran%26%23305%3B%26%23351%3Bl%26%23305%3B-yeniyem%26%23601%3Bl%26%23601%3Brin-davran%26%23305%3B%26%23351%3B-portretinin-yarad%26%23305%3Blmas%26%23305%3B.htm

# PEDAQOGİKA VƏ FİLOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri – dos. Nəzakət İmamverdiyeva***

## AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ MÜRRƏKƏB SÖZLƏRİN YARANMASI VƏ QURULUŞU

***Məmmədova Nərgiz Teymur qızı***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutunun doktorantı***
***nergiz.mamedova.2019@bk.ru***

Dilin lüğət tərkibinin formalaşmasında mürəkkəb sözlərin rolu çox böyükdür. Mürəkkəb sözlərlə bağlı araşdırmalarda semantika məsələsi ön planda olmuşdur və bu haqda mübahisəli fikirlər vardır. Bir qrup dilçilər mürəkkəb sözlərdə semantika məsələsinin mövcudluğunu qəbul etməsələr də digər qrup dilçilər sözlər arasında semantik əlaqənin olduğunu qeyd edirlər. Ə.Səfərova mürəkkəb sözlərdə semantik əlaqənin olduğunu xüsusi diqqətə çatdırır: "Mürəkkəb sözün başlıca səciyyəsi semantik vəhdətdir. Semantik vəhdətin mahiyyəti ondan ibarətdir ki, mürəkkəb sözün mənası komponentlərin mənasından təşkil olunur və bir bütöv kimi dərk olunur. Mürəkkəb sözlərin semantik vəhdəti heç də ayrı-ayrı komponentlərin mexaniki toplusunun nəticəsində deyil, çoxcəhətli dəyişmələr nəticəsində formalaşmış olur" [5, 8].

H.Morchond qeyd edir ki, german dillərində sözün strukturu, onun morfemi çox mürəkkəb və müxtəlifdir. O, söz strukturu barədə danışarkən mürəkkəb sözlərin minimum iki leksik morfemdən, maksimum isə külli miqdarda morfemdən ibarət olduğunu diqqətə çatdırır [8, 125-131].

İngilis dilində mürəkkəb sözlərin quruluşundan bəhs edən İ.Bəylərova yazır ki, "Bir çox dillərdə olduğu kimi ingilis dilinin qrammatik quruluşunda da mürəkkəb isimlər özünəməxsus yer tutur və dəyərli əhəmiyyətə malikdir. Müxtəlif dillərdə mövcud

olan vahidlər sistemini təhlil etdikdə mürəkkəb isimlər bölməsi də xüsusi bir bölmə kimi qarşıya çıxmışdır. İngilis dilində mürəkkəb sözlərin digər dillərdə mövcud olan mürəkkəb sözlərdən iki fərqli mühüm xüsusiyyəti vardır. Birinci, onlar öz mənaları ilə müxtəlif şəkildə işlənə bilərlər. İkinci xüsusiyyət isə ingilis dilində ən çox iki kökdən ibarət olan mürəkkəb sözlərin üstünlük təşkil etməsidir" [1,172].

D.Klement mürəkkəb sözlərin içərisində daha çox"isim+isim" tərkibli mürəkkəb sözlərin olduğunu qeyd edir. Sonradan o müxtəlif tərkibli mürəkkəb sözlərin yaranmasından danışsa da əsasən isimləri qeyd edir [7, 53].

D.Kristal ingilis dilində mürəkkəb sözlərdən bəhs edərkən qeyd edir ki, "İngilis dili ilə əlaqədar diqqətəlayiq şeylərdən biri köhnə sözləri bir yerə qoyaraq yeni sözlər düzəltməyinizdir. Qara bilirsiniz. Quş bilirsiniz. Və qaranquş bilirsiniz. Bu kimi sözləri düzəltdiyimiz zaman onlar mürəkkəb sözlər və ya qısa şəkildə tərkiblər adlanır. İngilis dilində, xüsusən də elmdə yüz minlərlə birləşmə var" [9]. D.Kristal köhnə sözlər dedikdə dildə hazır şəkildə olan sözləri nəzərdə tutur. Belə sözlərin birləşməsindən mürəkkəb sözlər yaranır. Məsələn, Azərbaycan dilində hazır şəkildə mövcud olan "soyuq" və "qanlı" sözlərindən "soyuqqanlı" mürəkkəb sifəti yaranmışdır. İngilis dilində "sport" və "man" sözləri birləşərək "sportman" ismi yaranmışdır.

İngilis dilində mövcud olan mürəkkəb sözlərdən bəhs edən N.Əyyubova qeyd edir ki, "mürəkkəb sözlər dildə sərbəst şəkildə mövcud olsa, ən azı iki kökdən ibarət olan sözlərdir. İngilis dilindəki mürəkkəb sözlərin digər dillərdə mövcud olan mürəkkəb sözlərdən fərqli iki mühüm xüsusiyyəti var. Birincisi, mürəkkəb sözləri təşkil edən komponentlər sərbəst formalardır. Belə ki, onlar özlərinin mənaları ilə müxtəlif şəkildə işlənə bilərlər. İkinci xüsusiyyət isə, ingilis dilində ən çox iki kökdən ibarət olan mürəkkəb sözlərin üstünlük təşkil etməsidir. Məsələn, motherland, mankind, schoolboy və s." [10].

Azərbaycan dilində də iki kökdən ibarət olan mürəkkəb sözlər daha çox üstünlük təşkil edir. Məsələn, ağcaqayın, çörəkotu, stolüstü və s.

Azərbaycan dilində mürəkkəb sözlərlə bağlı tədqiqatlarda ayrı-ayrı nitq hissələrinin də tədqiqi mühüm yer tutur. Bu haqda K.Məmmədova yazır ki, "Azərbaycan dilində ol, et, elə kimi qismən müstəqil, qismən də köməkçi feillər, isim bəzən də sifətlərdən sonra işlənməklə mürəkkəb feil əmələ gətirir: qəbul elə, xaric et, yaxşı olar, pis olar, xoş olar, şad olar. Azərbaycan dilində olmaq feili ən çox işlənən feillərdəndir. Bu feil həm Azərbaycan sözləri ilə, həm də alınma sözlərlə işlənərək bir çox mürəkkəb feillər yaradır. Bundan başqa olmaq feili müstəqil feil kimi də işlənir.

Olmaq feilindən əvvəl işlənən söz onun obyekti olursa, o, köməkçi feil vəzifəsi daşıyır və özündən əvvəlki sözlə birlikdə mürəkkəb feil olur" [3, 322]. Qeyd edək ki, digər nitq hissələrindən fərqli olaraq mürəkkəb feillər köməkçi feil olan ol, et sözlərinin köməyi ilə yaranır. Bu köməkçi feillər Azərbaycan dilində digər mürəkkəb sözlərin yaradılmasında iştirak etmir.

Mürəkkəb sözlərlə bağlı araşdırmalar həm morfoloji istiqamətlə yanaşı, həm də sintaktik aspektə əsaslanmışdır. Bu baxımdan A.Sadıqova qeyd edir ki, "Mürəkkəb sözlər komponentlər arasındakı əlaqəyə görə iki yerə ayrılır: tabesizlik əlaqəsi və tabelilik əlaqəsi ilə birləşən mürəkkəb sözlər. Bu iki əlaqənin əsas mahiyyəti ondan ibarətdir ki, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə öz müstəqilliyini mühafizə etdiyi və biri digərindən asılı olmadığı halda, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə biri digərindən asılı olur və birinci komponent ikincisini bu və ya digər cəhətdən tamamlamağa xidmət edir" [6, 215]. Deməli, mürəkkəb söz probleminə sintaktik istiqamətdən baxan A.Sadıqova mürəkkəb sözləri tabesizlik və tabelilik əlaqəsinə əsaslanmaqla şərh etmiş, lakin onlara nümunələr verməmişdir. Həmin fikirlərə nümunələr əsasında aydınlıq gətirmək olar.

Fikrimizcə, gülərüz, istiot, acıdil kimi mürəkkəb sözlər məna baxımından öz müstəqilliyini qoruyub saxlayan mürəkkəb sözlərdir. İkinci qrupa dəvədabanı, stolüstü, dağkeçisi kimi mürəkkəb sözlər arasında tabelilik əlaqəsi vardır. Çünki, bu sözlər vaxtilə ikinci növ təyini söz birləşməsi olmuş, sonralar mürəkkəb sözə çevrilmişdir. Mürəkkəb sözlərin komponentləri ilə bağlı məsələlərdən bəhs edən N. Quliyeva onun komponentlərinin tərkib hissələrinə xüsusi diqqət yetirərək vurğulayır ki, "Mürəkkəb sözlərin tərkibində iştirak edən sözlərin həqiqi məna ilə əlaqə və münasibətinə görə onlar dörd qrupa ayrılır:

-komponentləri həqiqi məna ifadə edənlər;

- komponentlərdən birincisi həqiqi, ikincisi məcazi məna ifadə edənlər;

-birincisi məcazi, ikincisi həqiqi məna ifadə edənlər;

-hər iki komponenti məcazi məna ifadə edənlər" [2, 78].

Qeyd edək ki, N.Quliyevanın bu araşdırması ingilis dilindəki mürəkkəb sözlərlə bağlıdır.

Mürəkkəb sözlər leksik sistemin elementi olduğu üçün aparılan tədqiqatlarda belə sözlərə leksik baxımdan yanaşmalar da olmuşdur və onların qruplaşdırılması məsələsi irəli sürülmüşdür. S.Musayeva qeyd edir ki, "Mürəkkəb sözlər fərqli leksik xüsusiyyətləri ilə müxtəlif formalarda özünü göstərir. Buna görə də mürəkkəb sözlərə müxtəlif cəhətlərdən yanaşmaq, onları qanunauyğun prinsiplər əsasında qruplaşdırmaq və izah etmək olar. Bir situasiyada mürəkkəb sözlərin məna çalarları əsas götürülə bilər, digər halda isə onların qruplaşdırılmasını formal əlamətlərə görə aparmaq olar. Əgər mürəkkəb sözləri zaman əlaqəli, məkan əlaqəli və s. birləşmələr şəklində qruplaşdırıb öyrənmək istəyiriksə, bu bölgüdə birləşmənin tərəflərinin ifadə vasitələri, qrammatik formaları, leksik xüsusiyyətləri nəzərə alınmalı və buna görə təsnif olunmalıdır" [4, 202].

Müasir Azərbaycan dilində morfoloji yolla söz yaradıcılığına nisbətən sintaktik yolla söz yaradıcılığı daha zəif inkişaf etmişdir. Buna səbəb Azərbaycan dilində leksik (sözdüzəldici) şəkilçilərin çoxluq təşkil etməsidir. Ancaq bu o demək deyildir ki, Azərbaycan dilində mürəkkəb sözlər azlıq təşkil edir, morfoloji yolla söz yaradıcılığı dilimizdə üstünlük təşkil etdiyi üçün düzəltmə sözlər dildə daha çoxdur. Müasir Azərbaycan dilinin daxili qayda-qanunları imkan verir ki, mürəkkəb sözlərin özlərinin də tərkibində düzəltmə sözlər olsun. Məsələn, istiqanlı, soyuqqanlı kimi mürəkkəb sözlərin tərkibində də düzəltmə sözlər vardır. İstiqanlı sözünün birinci tərəfi sadə, ikinci tərəfi düzəltmə sözdür. Soyuqqanlı mürəkkəb sözünün isə hər iki tərəfi düzəltmə sözdür.

Mürəkkəb sözlərin xarakterik cəhətləri ilə bağlı araşdırmalar müxtəlif aspektlərdən aparılmasına baxmayaraq hələ də bəzi məsələlər öz həllini tapmamışdır. Bu məsələlər içərisində mürəkkəb sözləri bir-birinə bağlayan tərəflərin semantik bağlılığı, onlar arasında forma və məzmun xüsusiyyətləri və s. kimi məsələlər hələ də tam şəkildə öz həllini tapmamışdır.

## ƏDƏBİYYAT

1. Bəylərova İ. İngilis dilində olan bəzi mürəkkəb isimlərin struktur-semantik xüsusiyyətləri. Elm və təhsil, Filologiya məsələləri. № 7, 2019, 332 s.
2. 2.Quliyeva N. İngilis dilində mürəkkəb sözlərin tərkib hissələri. Bakı: Filologiya məsələləri, № 6, 2017, 456 s.
3. Məmmədova K. Fars və Azərbaycan dillərində mürəkkəb feillər. Bakı: Elm və təhsil, Filologiya məsələləri, 2013, № 10, 467 s.
4. Musayeva S. İngilis dilində sintaktik yolla yeni sözlərin yaranmasında mürəkkəb söz və ifadələrin rolu. Bakı: Elm və Təhsil, Filologiya məsələləri, 2018, № 1, 395 s.

5. 5.Səfərova Ə. Müasir Azərbaycan dilində mürəkkəb sözlərin semantik təsnifi. Fil., elm, nam. disser. Bakı: Azərbaycan Dillər Universiteti, 1994-95, 166 s.
6. Sadıqova A. Mürəkkəb və çoxmənalı sözlər, fərqi, müqayisəli təhlili və əhəmiyyəti. Bakı: Elm və Təhsil, Filologiya məsələləri, 2013, № 4, 448 s.
7. Calment D. Die deutsch Sprache. 1967, p.53
8. Marchand H., The categories and types of present-day English word-formation. München: Verlag C. H. Beck. Second edition, 1969. Pp. x–xxvii, 1–545.
9. http://www.davidcrystal.com/?id=2842 (02.12.2019).
10. http://www.anl.az/down/meqale/az_muellimi/2012/oktyabr/273096.htm

# TƏRBİYƏ PROSESİNDƏ OBYEKTİV VƏ SUBYEKTİV AMİLLƏR

***Hüseynova Cəmilə Sabir qızı,***
***BDU-nun Tədris prosesinin təşkili şöbəsinn baş metodisti,***
***shems.1@mail.ru***

Tərbiyə elə bir prossesdir ki, insanın şəxsiyyətinin inkişafına, dünya görüşünün formalaşmasına, müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü peşəkar fəaliyyətdir. Tərbiyənin məqsədi tərbiyə olunana yaxın və aydın olanda prosesin təşkili ən yüksək səmərəni təmin edir. Tərbiyə prosesində çoxlu obyektiv və subyektiv amillər özünü göstərir. Bu o deməkdir ki, tərbiyə prosesinin məqsədləri, vəzifələri, məzmunu, forma və metodları vəhdətdədir. Bunların hamısı şəxsiyyətin tam formalaşması ideyasına tabedir. Tərbiyənin mahiyyəti - şəxsiyyəti yüksək insanı keyfiyyətlərlə tərbiyələndirmək, onda nəcib, əxlaqi, mənəvi keyfiyyətlər aşılamaq, əməyə, həyata hazırlamaq, estetik və fiziki mədəniyyət, ailə münasibətləri, mədəniyyəti formalaşdırmaq,

cəmiyyətdə düzgün davranış normalarına istiqamətləndirmək, milli və bəşəri dəyərləri mənimsəmək və bütün bunların tərbiyə olunanın intellektual, emosional, daxili aləmindən keçirib onun xarakter əlamətlərinə çevirməkdir.

Tərbiyə cəmiyyətimizin demək olar ki, bütün sahələrində həyata keşirilir. İctimai qurumlar tərbiyənin həyata keçirildiyi yerlərdir. İnsanın düzgün formalaşması, inkişaf etməsi və yararlı şəxsiyyətə çevrilməsi üçün tərbiyənin rolu danılmazdır.

Alimlər araşdırmalar apararaq belə bir nəticəyə gəlmişlər ki, uşaqların tərbiyəsində təkcə valideynlərin yox, eləcə də mühitin də təsiri çox önəmlidir. Mühit insanın inkişafını öz-özünə mexaniki surətdə müəyyən etmir. Eyni ailədə göz açmış 2 insanın özünəməxsus fərdi psixoloji xüsusiyyətləri, inkişaf səviyyəsi mövcüddur. Mühitin təsirləri də məhz bu xüsusyyətlərdən asılı olaraq dəyişir. Deməli mühit eyni şəraitdə böyüyən 2 adam üçün eyni mənanı kəsb etmir. Bu zəmində də insanla ətraf mühit arasında özünəməxsus münasibətlər formalaşır. Eyni mühitdə yaşayan və böyüyən, eyni məktəbdə oxuyan 2 bacı yaxud 2 qardaşın fərqli inkişafı məhz bununla bağlıdır. Valideynlər buna görə də övladlarını tərbiyə edərkən onların hər birinin psixoloji xüsusiyyətlərini ayrı-ayrılıqda öyrənməlidirlər.

Şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqəlidir. Şəxsiyyət o zaman insanın əsası, özəyi kimi, onun başıca perimetri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun.

İnsanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir. Dolayı mənada, insan şəxsiyyəti onun “ruhunun”, başqa sözlə, onun bütün psixi təzahürünün “sifətidir”. İnsana məxsus olan fərdi-psixoloji xassələrin təzahür xüsusiyyətlərinə, onun ünsiyyət üslubuna, davranışına, fikir və ideyalarına görə onu aydın eyniləşdirməyimiz və onun gələcək davranışının

istiqamətini proqnozlaşdırmağımız heç kimdə şübhə doğura bilməz.

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmusundan ibarətdir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamlardır. Şəxsiyyət müəyyən-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.

İnsanın sosial - fəsaliyyətli mahiyyəti hər şeydən əvvəl "şəxsiyyətin formalaşmasının baş verdiyi prosesdə, başqa sözlə fərdin sosiallaşması əsasında reallaşır. A.N. Leontyevin dəqiq ifadə etdiyi kimi "şəxsiyyət doğulmur, şəxsiyyət təşəkkül tapir". Sosiallaşma nə qədər ki, dinamik xarakter daşıyır, şəxsiyyətin təşəkkülü bir o qədər daimilik kəsb edir.

Ümumiyyətlə şəxsiyyət fərdin inkişafının nəticəsidir. Şəxsiyyətin formalaşmasında ailənin rolu böyükdür. Ailə ilk sosial və mədəni təsəvvürlərin formalaşmasında, xarakterin təşəkkülündə vasitəçi rolunu oynayır. Həzrəti Məhəmməd Əleyhissəlam buyurmuşdur ki, ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz. N.Tusi valideynlərə məsləhət görürdü ki, uşaq süddən ayrıldıqdan sonra dərhal onu tərbiyə etməyə, ona nizam-intizam öyrətməyə başlamaq lazımdır.

Tərbiyə işi özünəməxsus xüsusiyyətlərə malikdir. Onun düzgün idarə olunması və yüksək səmərə verməsi üçün həmin xüsusiyyətləri tərbiyə işində nəzərə almaq lazımdır. Tərbiyə prosesi həm də müəyyən mərhələlərdən ibarətdir. Bu mərhələləri bilmək və düzgün əməl etmək tərbiyə işini düzgün idarə etməyə və şəxsiyyətin inkişafını düzgün istiqamətləndirməyə imkan verir.

Tərbiyə prosesi, tərbiyəçi ilə tərbiyə olunanlara fasiləsiz, sistematik ardıcıl təsiri prosesdir. Burada məqsədli iş sistemi qurulur. Tərbiyə işi insanın bütün həyatı boyu davam edir.

Nəticəsi insanın əməllərində özünü göstərən bir prosesdir. Tərbiyə işində iki tərəf iştirak edir. Bu prosesdə daha fəal tərəf tərbiyəçidir. Ona təsir göstərir, onda yeni keyfiyyətlər, nəcib əxlaqi sifətlər yaradır, uşağın fəal şəxsi mövqeyini təmin edir. Bu prosesdə tərbiyəçinin özünün də şəxsiyyəti inkişaf edir, formalaşır. Beləliklə, tərbiyə prosesi hər iki tərəf arasında yəni tərbiyəçi ilə tərbiyə olunan arasında qarşılıqlı fəaliyyət prosesidir.

Deməli, tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşması və inkişafı prosesidir. Bu prosesdə bir tərəfdən uşaq qazanılmış təcrübə və bilik sərvətləri ilə silahlanır, inkişaf edir, tərbiyəçinin bilavasitə göstərdiyi pedaqoji rəhbərliklə özünün fəallığı zəminində həyata düzgün münasibət bəsləyir, öz həyat yolunu təmin etmək mədəniyyətinə, zehni, əxlaqi, siyasi, hüquqi, ekoloji, bədii və fiziki mədəniyyətə, faydalı adətlərə və davranış qaydalarına yiyələnir, digər tərəfdən tərbiyəçi özü kamilləşir, inkişaf edir.

Əgər kiçik yaşlardan insana düzgün tərbiyə verilərsə, sonradan yenidəntərbiyəyə ehtiyac qalmaz. Həm də nəzərə almaq lazımdır ki, yenidəntərbiyə tərbiyəyə nisbətən çətindir; o, çox vaxt və qüvvə tələb edir.

Tərbiyənin xüsusiyyətləri ahəngdar şəxsiyyət tərbiyəsinin bütün tərkib hissəsini özündə birləşdirir. Bu o deməkdir ki, uşaq şəxsiyyətinin formalaşması çox müxtəlif amillərin təsiri ilə baş verir. A.S.Makarenkonun sözü ilə desək, uşağı hər şey adamlar, əşyalar, hadisələr ilk növbədə isə valideyn və müəllimlər tərbiyə edir.

## ƏDƏBİYYAT

1. İsmixanov M., Bəxtiyarova R., Ali məktəb pedaqogikası (mühazirə kursu). B.: 2010
2. Kazımov N. Ali məktəb pedaqogikası. B.: 2006
3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. B.: 2007

# ÇƏTİN TƏRBİYƏ OLAN YENİYETMƏLƏRİN TƏRBİYƏSİ PROBLEMİ

***Rəhimova Sevda Azər qızı***
***BDU-nun II kurs magistrantı***
***rahimovasevda@mail.ru***

“Çətin tərbiyə olan yeniyetmə” anlayışı polis üçün zorakılıq, müəllim üçün bu, sinif yoldaşlarına mənfi təsir göstərən "qeyri-rəsmi lider", bir pedaqoq üçün bu səs-küylü, hərəkətli, idarəolunmaz bir yeniyetmə və valideynlər üçün ailədə uşağın davranışında mövcud olan sapmalar (kənaraçıxmalar) problem-idir.

Belə ki, “çətin tərbiyə olan yeniyetmə” anlayışı uşağın şəxsiyyət xüsusiyyətlərindən, ailənin mikroiqlimindən, situasiya xüsusiyyətlərindən və s. asılı olaraq müxtəlif səbəblərə malikdir. Beləliklə, çətin tərbiyə olan yeniyetmələrin davranışı cəmiy-yətdə qəbul edilmiş standart və normalardan kənara çıxan uşaqlardır.

Xarici psixoloq M.Rutter qeyd edir ki, psixoloji çətinliklər, eləcə də müvəqqəti emosional və davranış pozulmaları əksər uşaqlara xasdır [3, s. 64]. Bu, onların inkişaf prosesinin ayrılmaz hissəsidir. Eyni zamanda, digər psixoloqlar və sosioloqlar risk altında olan uşaqların sayının durmadan artdığını iddia edirlər. Çətin tərbiyə olan yeniyetmənin şəxsiyyəti sosiallaşmanın aşağı səviyyəsi ilə xarakterizə olunur və onun tərbiyəsinin üç əsas sahəsindəki problem və çatışmazlıqları əks etdirir: ailədə, məktəbdə (peşə məktəbi), işdə [4, s. 401].

Bundan əlavə, problemli bir yeniyetmənin şəxsiyyəti, bir qayda olaraq, xüsusi bir sferanın təsirinə məruz qalır: küçə, həyət, "mənfi oriyentasiyalı bir küçə qrupu" və s. Lakin, fikrimizcə, yeniyetmənin şəxsiyyətinə təsir edən ən mühüm amil mənfi ailə şəraitidir: ailədə normal mənəvi mühitin olmaması,

ailə üzvləri arasında bağlılıq, valideynlərin emosional və müxtəlif növ psixi pozulmaları və s. [2, s.138].

Son illər elmi ədəbiyyatda və kütləvi nəşrlərdə ailədə uşaqlara qarşı qəddarlıq və zorakılıq mövzusu geniş müzakirə olunur.

Çətin tərbiyə olan yeniyetmələrin problemlərinə dair əsərlər çap etdirən müəllim və psixoloqlar arasında bilavasitə korreksiya və yenidən tərbiyə sistemində çalışanlar da olub. Belə görkəmli müəllim və maarifçilərdən biri də A.S. Makarenko. Onun bir çox əsərləri çətin tərbiyə olan yeniyetmələrin yenidən tərbiyəsi problemlərinə həsr edilmişdir.

Bu gün cəmiyyətimizdə baş verən dəyişikliklər bir sıra problemləri aktuallaşdırıb ki, onlardan da ən mühümü təhsil aldığımız çətin tərbiyə uşaqların tərbiyəsi problemidir. Bu problemin ciddiliyi ondadır ki, hər il uşaq cinayətlərinin, narkomaniyanın artması, deviant davranışa malik uşaqların sayının artması tendensiyası müşahidə olunur. Məsələn, hollandiyalı tədqiqatçı M.de Vinter deyir ki, 1970-1990-cı illərdə risk altında olan uşaqların sayı durmadan artıb və hazırda onlar 18 yaşa qədər olan yeniyetmə və gənclərin ümumi sayının 20%-ni təşkil edir [1]. Uşağın davranışında sapmalar cəmiyyətin siyasi, sosial-iqtisadi və ekoloji qeyri-sabitliyi, gənclərin dəyər oriyentasiyalarının məzmununun dəyişməsi, ailə-məişət münasibətlərinin qeyri-funksional olması və s. nəticəsində yaranır. Belə bir şəraitdə diqqətin uşağın şəxsiyyəti, onun həyat təcrübəsi, maraqları, şəxsi dəyərləri, onun emosional sferasına təsir göstərir. Bütün bunlar uşağın özünə inamını, özünü tənzimləmə qabiliyyətini, həyati situasiyalarda özünü təsdiqini azaldır.

Belə bir uşağa necə kömək etmək olar? Onunla tərbiyə işlərini necə təşkil etmək olar? Qaldırılan sualların həllinin mürəkkəbliyi onunla bağlıdır ki, yeniyetmələrin çətin tərbiyə olan davranışı ilə bağlı problemlərin uzun illər susdurulması cəmiyyətimizdə mütəxəssislərin maarifləndirmə və profilaktik işlərə deyil, əsasən qabaqlayıcı və cəza tədbirləri, bunun

nəticəsində nəinki çətin tərbiyə olan davranışların potensialının toplanması dayandırılmadı, əksinə, çətin tərbiyə olan davranış formalarının təzahürləri daha tez-tez baş verdi.

Beləliklə, hesab edirik ki, çətin tərbiyə olan yeniyetmələrlə tərbiyə işi, ilk növbədə, uşaqda gözəllik hissinin inkişafına, yüksək insan ləyaqətinin təsdiqinə yönəlmiş müsbət davranışının daim dəstəklənməsi və stimullaşdırılması üzərində qurulmalıdır. Axı, əbəs yerə deyil ki, F.M. Dostoyevski yazırdı: "Gözəllik dünyanı xilas edəcək" və A.S. Makarenko bütün əsərlərində daim vurğulayırdı ki, yüksək insan ləyaqəti hissinə malik gözəl insan ancaq gündəlik həyatda onu əhatə etməli olan gözəllik əsasında tərbiyə oluna bilər.

## ƏDƏBİYYAT


1. Mardakhaev L.V. Social Pedagogy. M., 2003.
2. Raising a difficult child. Children with deviant behavior: Collective, monograph. / Ed. M.I. Rozhkov. M., 2001.
3. Rutter M. Help for difficult children. M., 1987.
4. Vasiliev L.P. Legal psychology. M., 2000.


## URDU DİLİNDƏ SONQOŞMALARIN TƏDQİQI TARİXİ HAQQINDA


***Paşayeva Amalya Arif qızı***
***Bakı Dövlət Universiteti***
***amalya_p@mail.ru***


Urdu dilinin kökü, dəyişmə tarixi və inkişafı ilə bağlı ən çox qeyd edilən nəzəriyyə bundan ibarətdir ki, bu dil ərəb, fars, puştu, türk, hind dillərinin və bəzi yerli Hindistan dialektlərinin qarışımından ibarətdir. Müsəlmanlar Hindistanı min ilə yaxın bir müddətdə idarə etmişlər və müsəlman ordusu müxtəlif mənşə və milliyyətə məxsus olub, müxtəlif dillərdə

danışan əsgərlərdən ibarət idi. Bu əsgərlərin yerlilərlə ünsiyyəti nəticəsində hər kəs tərəfindən anlaşılan yeni bir dil yarandı. Bu yeni dil urdu dili adlanırdı və müsəlman əsgərlərinin Myanmanın da daxil olduğu qədim Hindistanı zəbt edərkən arasında mövcud ortaq ünsiyyət vasitəsi idi və bu hadisənin baş vermə tarixi urdu dilinin təxminən 800 il yaşı olduğunu deməyə əsas verir. Lakin məlumdur ki, dillər qısa müddət ərzində yarana bilmirlər, onların inkişafı üçün əsrlər lazım olur. Urdu dilinin qrammatik strukturunnun müəyyən standarta uyğunlaşması və formalaşması da 5-6 əsr davam etdi. Urdu dilinin kökü X əsrin ortalarından və XI əsrin başlanğıcına gedib çıxır. Lakin bu dönəm urdu dilinin formalaşma mərhələsi olduğundan, hər hansı bir əhəmiyyətli dilçilik və ya ədəbi əsər yayılmamışdır.

Urdu dilinin yarandığı ilk illərdə o, yalnız ünsiyyət vasitəsi kimi çıxış edirdi. Bu hibrid dil hindvi və ya dehlvi adlanırdı və Devanaqri yazısı ilə yazılırdı. Sonradan XIV əsrdə bu dil Cənubi Hindistana (Heydərabad Dekan) yol tapdı, burada hindvi söz ehtiyatı genişləndi və yerli dillərdən çoxlu söz və birləşmələr bu dilə daxil edildi. İnsanlar Cənubi Hindistanda yayılmış bu dili Dekani adlandırmağa başladılar. Lüğətin genişlənmə prosesi davam etdi və Dekanidən Rekhtaya doğru dəyişdi və adı çəkilən bu Rekhtanın müasir Urdu dilinin bünövrəsini təşkil etdiyi hesab edilir. Rekhta (Urdu) dilinin standartlaşması XVI-XVII əsrlərdə Şah Cahan və Auranqzeb Aləmgirin hakimiyyəti dönəmində baş tutdu, bu zaman urdu dilinin sintetik xüsusiyyətləri tamamlandı, daha zəngin məzmun və qüdrət qazandı.

Dünyanın əksər dillərində olduğu kimi urdu ədəbiyyatı poeziya ilə başlamışdır. Əmir Xosrov (1253-1325) fars və ərəb dilləri üzrə məşhur alim idi və urdu dilində yazmış ilk şairlərdən biri olmuşdur. O, öz şeirlərini sonradan hakim dilə çevrilmiş hindvi dilində yazmışdır. Urdu poeziyası öz son şəklini XVII əsrə qədər qazanmamışdı. XVII əsrdə bu dil saray dili oldu.

XVIII əsr urdu ədəbiyyatında, xüsusilə urdu poeziyasında fenomenal inkişafa şahid oldu. Bu zaman urdu dili ərazidə hakim ortaq dil olan fars dilini üstələdi.

Bu mərhələdən sonra urdu dilinin zəruri olan əsas inkişaf göstəricisi onun linqvistik məsələlərinin tədqiqi, ədəbi əsərlərin meydana çıxması və bu dildə kitab çapı idi. Linqvistik hindologiya hind-ari dilçiliyinin (hind-ari dillərinin öyrənilməsi), o cümlədən dravid və mundadillərinin öyrənilməsini ehtiva edir. XVIII əsrin sonuna qədər urdu dilində, əsas etibarilə poetik əsərlər yazılırdı və bu əsərlər fars poeziyasının güclü təsiri altında idi, lakin XIX əsrin əvvəlində urdu dilinin artıq yaxşı formalaşmış poetik forması sayəsində olduqca sürətlənən üslubu da meydana çıxmışdı və bu, Kəlkütdə yerləşən Ford Vilyam kollecinin müəllimlərinin fəaliyyəti ilə bağlı idi. Beləki, Hindistandakı ingilis dövlət qulluqçularına iş üçün gəldikləri ölkə və orada ən çox yayılmış dillər (hindi, urdu, benqal, fars) ilə tanışlıq lazım idi. Bu tələbi ödəmək üçün 1800-cü ildə müəllim qismində yerli hind alim və ədiblərinin dəvət aldığı kollec yarandı. Britaniya qüvvələrinin kollec qarşısında qoyduğu ilk tələb dillərin öyrənilməsi üçün vəsaitin yazılması idi. Bunu uğurla həyata keçirdilər. Poliqrafik bazanın yaradılması da ingilislərin ehtiyacları səbəbi ilə yaranmışdı. Hindistanda urdu dilində kitabların çapı birbaşa fars dilində kitab çapı ilə bağlıdır, çünki məhz fars dili Hindistanda rəsmi dil idi. Təəccüblü deyilir ki, 1781-ci ildə çap olunan ilk kitab “ انشای هرکان“adlı rəsmi yazışma idi. Mətnin bir hissəsi fars dilində idi və nəstəliq yazısı ilə yazılmışdı. Bu vaxtdan etibarən Ost-Hind şirkətlərinin məktublarının çapı başlanılır və ingilis dilindən fars dilinə tərcümə olunur. Əgər 1781-ci il Hindistanda kitab çapının başlanğıcı hesab olunursa, urdu dilində kitab çapı 1782-ci ildə başlanılıb. Beləki, bu il 3 dildə broşür çap olunur: ingilis, fars və urdu. Bu, müharibələr haqqında məqalələrin xülasəsi idi. Bu gün daha erkən nəşrlər haqqında məlumat olmadığından, deyə bilərik ki, bu kitab çapı Hindistanda urdu dilində çapın əsasını

qoydu. Bundan sonra urdu dilinin qrammatikası ilə bağlı kitabların sayı artır. Urdu dilinin qrammatik məsələləri formalaşmağa və konkretlik qazanmağa doğru gedir. Bu gün urdu dili dünyanın ən çox dəyişən və inkişafda olan dilləri sırasındadır. Bununla belə, dilin artıq strukturlaşmış qrammatik sistemi mövcuddur. Urdu dilinin qrammatikasına həsr olunmuş əksər vəsaitlərdə sonqoşmalar haqqında ayrıca bölmə mövcuddur. Müxtəlif ölkələrdə bu dilin tədqiqi ilə məşğul olan tədqiqatçılar yazdıqları qrammatika və dərsliklərdə sonqoşmalar barədə əhatəli məlumat verirlər.

Hindistanın tarix və etnoqrafiyasının Rusiyada ciddi şəkildə öyrənilməsinə hələ XX əsrin 20-30-cu illərində başlanılmışdır. 1949-cu ildə Leninqrad Dövlət Universitetində Uzaq şərq ölkələrinin tarixi kafedrası yarandı və burada Çin və Yaponiya ilə yanaşı, Hindistanın tarixinin öyrədilməsi həyata keçirdi. 50-60-cı illərdə kafedranın hindoloqların əsas elmi məşğuliyyəti Hindistanın yeni və ən yeni tarixinin öyrənilməsi idi. Moskva Dövlət Universitetində Asiya və Afrika ölkələri institutunda da hindologiya sahəsində fəaliyyət göstərən 1956-cı ildə yaradılmış iki kafedra mövcuddur. Kafedrada sanskrit, hindi, urdu, tamil, benqal, pəncab dillərinin tədrisi həyata keçirilir. Qeyd edək ki, hindologiya sahəsi Rusiya ərazisindəki bir çox digər müəssisələrdə tədqiq və tədris olunur.

Urdu dili dünyanın ən sürətlə dəyişən və formalaşmaqda olan dillərindəndir. Urdu dilinin artıq strukturlaşmış qrammatik quruluşu olsa da, tərkibindəki müxtəlif dillərə aid elementlərin çoxluğu və multilinqual mühitdə danışılması və inkişafı bu dilin sürətlə dəyişməsi və daha da geniş ərazilərə yayılması ilə nəticələnir.

## ƏDƏBİYYAT

1. Индийская и иранская филология. Москва, 1964
2. Platts J. T. A grammar of the Hindustani or urdu language. Oxford, 1874.

3. Kellog D. D. A grammar of the hindi lnguage, London, 1893.
4. Dowson J. A grammar of the urdu or hindustani language. London. 1908.
5. Young D. Urdu grammar. USA: Createspace. 2014

## MÜASİR QƏRB TEATRINDA LİDER REJİSSOR ANLAYIŞI

***Məlikov Elmar Dadaş oğlu***
***ADMİU-nin "Teatr sənəti " fakültəsinin magistrantı***
***elmarmd3@gmail.com***

Hazırlanan hər bir tamaşa, sintetik sənət əsəri kimi müxtəlif ifadə vasitələrindən, saysız-hesabsız üslublardan, mürəkkəb kombinasiyalardan ərsəyə gəlir. Rejissorun əlində, bu mənada, son dərəcə zəngin bir arsenal var. Onun peşəkarlığı da, əlində olan bu sərvət və qüdrətdən yerli-yerində, məqsədyönlü şəkildə istifadə etmək bacarığı ilə ölçülür. XX əsrin ən böyük teatr xadimi olan K.S.Stanislavski yazırdı: «Bizim sənətimizin bir sıra özünəməxsus xüsusiyyətləri var. Hər şeydən əvvəl o, sintetik sənətdir. O, özündə ədəbiyyatçıların, artistlərin, rəssamların, musiqiçilərin sənətini harmonik bir vəhdətdə cəmləyib, bir vəhdətdə toplamış, bu sənət növlərinin köməyi ilə tamaşaçının qəlbinə və ağlına, gözünə, qulağına təsir edir: özü də elə məharət, elə qüdrətlə təsir edir ki, bu sənətlərin heç biri ayrı-ayrılıqda, təkbaşına buna nail ola bilməzdi. Bu mənada o, ecazkardır» (1. 5-ci cild. səh.288).

Rejissorluq sənətinin görkəmli nümayəndəsi sayılan K.S.Stanislavski belə düşünür. Bu düşüncə hələ kövrəkdir, sadədir. Rejissorluğun formalaşdığı, tədricən püxtələşdiyi bir vaxtda, bir zaman kəsiyində artıq modernist rejissuranın banisi Qordon Kreq peyda olur ki, onun Moskva Bədaye teatrında

hazırlamaq üçün təklif etdiyi U.Şekspirin «Hamlet» əsəri, teatrın rəhbərləri Stanislavski və Nemiroviç-Dançenkonu təşvişə salsa da, onlar bu eksperimentə gedirlər. Tamaşa uğursuzluqla nəticələnir. Lakin, dövrün inkişafı ilə ayaqlaşmaq istəyən teatr nəzəriyyəçiləri hiss edirlər ki, teatr canlı sənət olduğu üçün, kəşf edilənlərlə kifayətlənmək olmaz. Mütləq yeniliyə can atmaq lazımdır. Teatrı dərindən öyrənmək üçün fəlsəfəni, estetikanı, psixoanalitik nəzriyyələri öyrənmək və canlı sənətə tətbiq etmək lazımdır. Çünki, teatr ilk öncə «insan hisslərinin yaşantısıdır». İnsan hissi isə mücərrəd məna daşıdığından bu inkişaf mərhələlərini aktyor yox, məhz rejissor öyrənib anlada bilər.

Görkəmli ingilis rejissoru Piter Bruk nəinki Avropada, bütovlükdə dünya teatrında rejissorluq sənətində köklü dəyişikliklər edən və bu sənəti ən birinci sıraya qaldıran şəxsdir. Onun 1968-ci ildə qələmə aldığı «Boş məkan», «Zamanın ipləri» kitabları müasir rejissorluğa aid yazılan əsərlərin ən kamilidir. Sənətkarın müxtəlif illərdə hazırladığı U.Şekspirin «Hamlet», «Kral Lir», A.P.Çexovun «Albalı bağı», S.Bekketin «Xoşbəxt anlar», Hind eposu əsasında hazırladığı «Mahabharata» tamaşaları, hələ uzun illər rejissorluqla məşğul olanlar üçün əyani vəsait, teatrşünaslıqla məşğul olanlar üçün isə qiymətli tədqiqat işidir.

Piter Bruk təlqin edir ki, tamaşa hazırlayarkən bütün elementlərdən, teatrın bütün atributlarından istifadə etmək lazımdır. Əsas məqsəd fikrin son nəticəsidir. Məsələ burada realizm və naturalizmdən getmir. İfadə vasitələri tam şərti ola bilər, stilizə edilə bilər, amma nəticə təbii alınar. Əksinə də ola bilər. Hər şey naturalizmə söykənər, nəticə tam süni, uydurma kimi alınar. Bruk üçün vacib olan mədəniyyət və mədəni irsdir. Onun sənətdə ifadə vasitələri kimlərinsə qiymətləndirilməsinə yönəlmir. Bruka görə, teatr elə bir sənət növüdür ki, insan orada həyatı dərk edir. Özü də bunu nəzəri, ideoloji təbəqədə yox, konkret məkanda dərk edir. Çünki,

teatr elə bir məkandır ki, burada fəlsəfə abstrakt ideya yox, canlı bir tədqiqat növünə çevrilir. İnsan həyatının təcrübəsinin sirr olduğunu qəbul etmədən teatrda fəaliyyət göstərmək olmaz. Bu sirr fəlsəfədən də dərindir. Teatr, aydındır ki, metafizikaya, mistikaya, mənəviyyata yönəlib. Bu üç söz – mənəviyyat, mistika, metafizika – əslində heç bir fikir yükü daşımır. Yalnız teatrda işləməklə, bu sözlərin mənasını araşdırmaqla həyatın varlığını kəşf etmək olur ki, bu da sonda konkret yaşantıya çevrilir.

Piter Bruk aktyora bir yaradıcı kimi baxır. O, aktyoru tamaşanın yaranması prosesində ən yaxın köməkçi kimi qiymətləndirir. Bruk yazır: «Tamaşada aktyorun əməl zamanı etdiyi hər bir jest, baxış da improvizədir. Elə pyeslər var ki, aktyorun köməyi ilə dəqiq struktur qurulur. Hərdən elə olur ki, bu struktura heç nə əlavə etməyə ehtiyac yoxdur. Belə olan surətdə aktyor improvizəsi çox incə olmalıdır: əsas struktura mane olmamalı, xırda işarələrlə kifayətlənməlidir. Amma elə pyeslər də var ki, aktyorun bütün improvizələri əvvəlcə rejissor tərəfindən təsdiq olunmalıdır. Bu qarşılıqlı yaradıcılıq əlaqəsidir. Çünki, rejissor tamaşa hazırlığında əsas fiqurdur» (int.1. səh.186).

Piter Brukun tövsiyələri, dünya teatr nəzəriyyəçiləri tərəfindən dəqiqliklə öyrənilir və tətbiq olunur. Onun Paris şəhərində yerləşən Beynəlxalq Teatr Sənəti Araşdırılmaları Mərkəzi, hazırda öz yaradıcısı tərəfindən idarə olunur. Yaşının yetərincə olmasına baxmayaraq, Piter Bruk yenə lider olaraq qalır.

## ƏDƏBİYYAT

1. 1.Станиславский К.С. «Собрание сочинений в VIII томах». М.,1954 – 1961.
2. http://portal-etud.ru/content/piter-bruk

# BÖYÜK ZƏFƏRDƏN İLHAM ALAN, YENİDƏN ÇİÇƏKLƏNƏN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

***Şərifova Gülsüm,***
***Bakı Dövlət Universiteti***
***gulya_aze@mail.ru***

Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi.

"Qarabağ Azərbaycandır!" reallığı 44 gündə mümkünsüzü mümkün etdi. 8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarix gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür. Ali Baş Komandanımız Ermənistana və onun himayədarlarına sübut etdi ki, Qarabağ Azərbaycandır!

30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan bu torpaqları yalnız talan etməyib. İşğalçılar tarixi ərazilərimizi erməniləşdirməyə cəhd edərək xalqımızın milli-mənəvi dəyərlərinə qarşı əsl soyqırımı həyata keçiriblər, tarixi-dini abidələrimizə qarşı vandallıq törədiblər.

Prezident İlham Əliyev hər dəfə əvvəl işğaldan azad olunmuş rayonlarımıza səfəri zamanı bir daha diqqəti ermənilər tərəfindən məscidlərimizin dağıdılmasına yönəltdi. "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb" deyən İlham Əliyev bunun bütün müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirib. Qarabağa sonuncu səfəri zamanı Prezident İlham Əliyev Zəngilan məscidinin də təməlini qoydu.

Dövlət başçısı bununla bir daha göstərdi ki, azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış bütün məscidlər bərpa olunacaq, yenidən qurulacaq.

Milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının sərvətidir. 27 sentyabr-10 noyabr bu həm də milli-mənəvi dəyərlərimizin qələbəsidir. Milli-mənəvi dəyərlər, əlbəttə, çox geniş məfhumdur. Lakin burada birinci növbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır.Azərbaycanda gənc nəslin milli köklərimizə, mənəvi dəyərlərimizə, tarixdən gələn ənənələrimizə bağlılıq, Vətənə sevgi, vətənə, torpağa bağlılıq, sadiqlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində müxtəlif sahələrdə davamlı addımlar atılır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi, onlarda vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, milli kimliyin aşılanması kimi məsələlər ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərib. Ulu öndər ölkəyə rəhbərlik etdiyi elə ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görüb. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm verib. Heydər Əliyev deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Prezident İlham Əliyevin

apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda vətənpərvər, Vətən yolunda daim canını belə qurban verməyə hazır olan gənc nəsil yetişib. Məhz bu gənc nəsil idi ki, 44 günlük Vətən müharibəsində tarixi Zəfərin əldə olunmasında misilsiz xidmətlər göstərdilər.

Dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır: “Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz”. 2021-ci ilin oktyabrın 26-da istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı dünya praktikasında ən sürətli icra edilmiş infrastruktur layihələrindən oldu. Artıq Zəngilan Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır. Bütün bu işləri Azərbaycan dövləti öz daxili imkanlarımız hesabına həyata keçirir.

Hər zaman bir-birinə dəstək olan Azərbaycan və Türkiyənin Zəngilanda birgə investisiya layihəsinə start vermələri də təqdirəlayiqdir. Ötən il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışında birgə iştirakdan sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "ağıllı kənd" layihəsi çərçivəsində Ağalı kəndində görülən işlərlə tanışlıqdan sonra "Dost Aqropark"ın təməlini qoymuşdular. Həmçinin, Baş planı hazır olan şəhərlərin, xüsusilə Şuşa və Ağdamın minalardan təmizlənməsi prosesi sürətlə gedir. Təkcə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı - Ermənistanla həmsərhəd olan yerlərdə 700 kilometrə yaxın yol çəkilib. Qarabağın tacı Şuşaya və Ağdama avtobus reyslərinin təşkil edilməsi, ardıcıl olaraq bundan sonra görülən işlər bir məqsədə xidmət edir.

Şuşada keçirilən beynəlxalq musiqi festivalı 30 illik fasilədən sonra 2021-ci il mayın 12-13–də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən təşkil edilmişdir. 2021-ci il mayın 12-

13-də Şuşanın Cıdır düzündə keçirilən sayca IV festivalın ilk günündə milli rəqs, muğam sənəti təqdim olunub, Azərbaycanın müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilmişdir. Bunlarla yanaşı, müxtəlif illərdə Şuşada lentə alınmış Azərbaycan xanəndələrinin ifalarından ibarət videoçarxlar nümayiş etdirilmişdir. Festivalın ikinci günündə Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri təqdim olunmuşdur. “Böyük Qayıdış” bütün məsələlərə kompleks yanaşma tələb edir.

Prezident İlham Əliyev Şuşaya gedərkən Füzulidə bəyan etdi ki, Qarabağı qısa müddətdə bərpa edəcəyik: “Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, cəmi 44 gün ərzində, bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik”. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız artıq işğaldan azaddır. O bölgələr yenidən qurulacaq. İlham Əliyevin siyasi iradəsi ilə işğaldan azad olunmuş şəhər və kəndlərimizdə həyat yenidən canlanacaq və bütün Qarabağ cənnətə çevriləcək.

## ƏDƏBİYYAT


1. Cəbrayılov R. Milli-mənəvi dəyərlərin böyük hamisi // http://anl.az/down/meqale/azerbaycan/2011/may/174349.htm
2. Süleyman İsmayılbəyli. Milli-mənəvi dəyərlər və müasirlik // Olaylar.- 2015.- 27 may.- S.10.
3. Qurbanlı M. İlham Əliyevdən zəngin milli-mənəvi dəyərlərin və mütərəqqi tarixi ənənələrin qorunmasına böyük töhfə // “Azərbaycan” qəzeti, 07 noyabr 2017-ci il

# AZƏRBAYCANIN MUĞAM İRSİNDƏ SƏS YAZILARININ ƏHƏMİYYƏTİ

***Əhmədov Əhsən Allahverdi oğlu,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***Bakı Xoreoqrafiya Akademiyasının dosenti,***
***Musiqi sənəti kafedrasının müdiri***
***ehsen.ehmedov@gmail.com***

Azərbaycan muğam sənəti Şərq xalqlarının şifahi ənənəli professional musiqisi kontekstində özünəməxsus yer tutaraq, muğam irsinin zənginləşməsinə öz töhfələrini verir. UNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına daxil edilmiş Azərbaycan muğamının təbliği və tədqiqi məsələləri hər zaman diqqəti cəlb edir. Xüsusilə XXI əsrdə Azərbaycan dövləti tərəfindən muğamın qorunması, inkişafı və dünyada təbliği ilə bağlı həyata keçirilən bir çox möhtəşəm tədbirlər bunun bariz nümunəsidir. Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı bu baxımdan ən önəmli tədbirlərdən biridir. Belə ki, dünyanın bir çox ölkələrindən olan muğam-makam ifaçılarını və musiqişünas-alimləri öz ətrafında birləşdirən bu festivalın konsertlərin video çəkilişləri muğam irsində yeni səhifə açmışdır.

Muğamların səs yazıları irsinin tarixi çox qədim deyil, XX əsrin əvvəllərindən bizim günlərə kimi bir əsrdən artıq bir dövrü əhatə edir. Lakin bu zəngin irs özündə qədim dövrlərdən gələn ənənələri, ifa tərzini, muğam janrlarına aid rəngarəng nümunələri birləşdirir.

Orta əsrlərdən başlayaraq təşəkkül tapmış muğam sənətinin peşəkar ciddi qanun-qaydaları muğam ifaçılarının yaradıcılığında inkişaf etdirilərək, yaddaş vasitəsilə ustaddan-şagirdə ötürülərək bizə gəlib çatmışdır. Uzun əsrlər boyu muğam ifaçıları və muğam tədqiqatçıları öz əməyi ilə bu sənəti

zənginləşdirmişlər. Adları mədəniyyət tarixinin səhifələrində həkk olunmuş musiqi alimləri öz risalələrində muğamın nəzəri əsaslarını yaratmışlar.

Lakin muğamın əsas xüsusiyyəti onun ifaçılıq məharəti sayəsində yaradılmasıdır ki, bunun da kökü şifahi ənənələrlə bağlıdır. Canlı ifaçılıq prosesində oxunub-çalınaraq yaradılan muğam dəstgahlarının, təsnif və rənglərin, muğama aid digər janr nümunələrinin müxtəlif variantlarının qorunub saxlanması yaddaş vasitəsilə mümkün olmuşdur. Bununla belə, xanəndələrin səsləri, ifa ustalığı, müşayiətçi ansamblın məharətini dəyərləndirmək üçün onları eşitmək, yazıya almaq və tədqiqata cəlb etmək vacib məsələlərdən biridir.

XX əsrdə səsyazma texnologiyalarının meydana gəlməsi ilə xanəndələrin ifasında muğamlar qrammofon vallarına yazılmışdır. Səsyazma texnologiyaları inkişaf etdikcə, səsyazmanın keyfiyyəti, xronometrajı da dəyişərək təkmilləşmişdir.

İllər boyu qrammofon vallarına, maqnitofon lentlərinə, CD-DVD disklərə köçürülmüş xanəndə və muğam ansambllarının ifa etdiyi muğam dəstgahları, kiçik həcmli muğamlar, zərbi muğamlar, təsniflər, rənglər, lirik xalq mahnıları xalqın mədəni sərvətinə çevrilmişdir. Bütün bunlar muğam ənənələrinin qorunmasında, onların gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyətə malikdir.

Eyni zamanda, muğam sənətinin öyrənilməsində səsyazıları böyük rol oynayır. Müxtəlif illərə aid və müxtəlif ifaçıların ifaçılıq təfsirini əks etdirən bu səsyazıları muğam sənətinin inkişaf tarixini izləməyə imkan verir.

Məlumdur ki, muğam-dəstgahları, kiçik həcmli muğamlar, zərbi-muğamlar, təsniflər və rənglər muğam ifaçılarının repertuarının əsasını təşkil edir. Şifahi professional musiqi əsərinin təfsiri zamanı hər bir ifaçı yaradıcıya çevrilir. Bu haqda musiqişünas-alim Ramiz Zöhrabov belə yazmışdır: “Xalq-professional sənətkarı üçün ifaçılıq həmişə şəxsi yaradıcılıq

sayılır. Bu cür ifaçı üçün yüksək istedad, zəngin fantaziya və gözəl zövq çox vacibdir. Hətta parlaq istedada malik bəzi xanəndə və sazandalar bu sənət üçün lazım olan qanunlar çərçivəsində yeni ənənələr, orijinal üslublar, hətta deyərdik ki, məktəblər də yaradırlar... Bu kimi sənətkarlar üçün təkcə "ifaçı" sözü azdır, onlar, eyni zamanda yaradıcı sənətkarlardır. Təsadüfi deyil ki, onların yaradıcılığında həm ifaçılıq, həm də bəstəkarlıq sənəti üzvi surətdə birləşir, çulğaşır" [1, s. 54].

Məhz xanəndə və sazəndələrin şəxsi sənətkarlığı, onların ənənəvi üslub əsasında ciddi yaradıcılığı improvizasiya ilə əlaqədardır. Belə improvizə tərzi muğamların müxtəlif variantlarının yaranmasına gətirib çıxarmışdır. Bütün bunlar xanəndələrin səsyazılarında öz əksini tapır.

XX əsrin əvvəllərinə aid qrammofon valları muğam ifaçılığı sənətinin inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Bu vallar Azərbaycan musiqisinin təbliğində və dünya miqyasında tanınmasında müstəsna rol oynamışdır.

Azərbaycan muğam ifaçıları, müsəlman Şərqində ilk dəfə olaraq, XX əsrin əvvəllərində xarici ölkələrə qastrola çıxmış, Qərbdə, tamamilə başqa dünyagörüşünə və estetik zövqə malik dinləyici auditoriyası qarşısında çıxış edərək, diqqəti cəlb etmişlər. Bunun da sayəsində Avropanın bir sıra iri səsyazma şirkətləri tərəfindən öz ifalarını vallara yazdırmaq üçün dəvət olunmuşlar.

XX əsrin təkcə ilk 20 ili ərzində Avropanın bir çox səsyazma firmaları – İngiltərənin "Qrammofon", Fransanın "Pate", Almaniyanın "Sport-Rekord", Rusiyanın "Zavod Nogina" və digər ölkələrin səsyazma şirkətləri Azərbaycan muğamları, təsnifləri, rəngləri yazılmış onlarla val buraxmışdır.

Səsi qrammofon valına yazılmış xanəndələrdən Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev, İslam Abdullayev, Məcid Behbudov, Qasım Abdullayev, Seyid Şuşinski və bir çox başqalarının adlarını

çəkmək olar. Onlar muğam üçlüyündə muğam şöbələrini və təsnifləri ifa etmişlər.

Səsyazma şirkətləri tərəfindən xanəndələrin vallarının kataloqu da buraxılmış, burada musiqiçilərin şəkli və onlar haqqında məlumat öz əksini tapmışdır ki, bu da muğam ifaçılarının müxtəlif ölkələrdə tanınmasına yol açmışdır.

XX əsrin əvvəllərinə aid qrammofon valları müxtəlif arxivlərdə: Azərbaycan Dövlət Səs Yazıları Arxivində, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin fondlarında və digər arxivlərdə qorunub saxlanılır. Qeyd etmək lazımdır ki, bunlar çox qiymətli səs yazıları olub, keçmiş xanəndələrinin ifaçılıq üslubunu bizə çatdırır, ona görə də onların öyrənilməsi həm tədqiqatçılar üçün, həm də yetişən gənc nəsil xanəndələr üçün çox vacibdir.

Həmin arxiv fondlarında saxlanılan qədim qrammofon vallarının bir hissəsi "Musiqi Dünyası" jurnalının əməkdaşları tərəfindən bərpa olunmuş və "Azərbaycan diskoqrafiyası" veb-saytında yerləşdirilərək, "Azərbaycan ənənəvi musiqisi" portalına [4] daxil edilmişdir ki, bu da hal-hazırda dünyanın istənilən yerində internet istifadəçilərinə Azərbaycan muğam sənətini tanıdaraq, milli musiqi mədəniyyətimizin təbliğində böyük rol oynayır. İnternet saytında qrammofon vallarının çox böyük həcmdə informasiyanı əhatə edən kataloqu da verilmişdir.

Saytda yerləşdirilən kataloqların araşdırılmasından görünür ki, xüsusilə 1906-1912-ci illər arasında yazılmış qrammofon vallarının sayı çoxdur. Bu vallarda xanəndələrin oxuduqları "Rast", "Rəhab", "Bayatı-Şiraz", "Dügah", "Mirzə Hüseyn Segahı", "Mahur", "Qatar", "Bayatı Kürd", "Bayatı-Qacar", "Manəndi-müxalif", "Dəşti", "Vilayəti", "Kürdi-Şahnaz", "Sarənc", "Zabul", "Əşiran", "Çoban bayatısı" muğamları, "Mənsuriyyə", "Qarabağ şikəstəsi", "Arazbarı", "Səmayi-Şəms", "Heyratı", "Osmanı", "Heyratı-Kabili", "Şikəstə", "Heyratı", "Ovşarı" zərbi muğamları, çox sayda təsniflər və lirik xalq mahnıları öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

1. Zöhrabov, R.F. Azərbaycan muğamları. / R.F.Zöhrabov. – Bakı: Təhsil. – 2013. – 336 s.
2. Azərbaycan xalq musiqisinin antologiyası [Notlar]: [10 clddə] / Azərbaycan muğamları və rəngləri. III cild. – Bakı: Azpetrol Neft şirkəti, – 2004. – 255 s.
3. Azərbaycan xalq musiqisinin antologiyası. [Notlar]: [10 cilddə] / Azərbaycan muğamları və rəngləri. IV cild. – Bakı: Azpetrol Neft şirkəti, – 2005. – 228 s.
4. Azərbaycan ənənəvi musiqisi. [Elektron resurs] / URL: http://enene.musigi-dunya.az

# SOSİAL İŞ VƏ İQTİSADİYYAT BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Tahir Ağayev***

## UŞAQLARDA GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASI VƏ BUNUN AKADEMİK NAİLIYYƏTDƏ TƏZAHÜRLƏRI

***Əlizadə Tamilla***
***BDU-nun dissertantı***
***tamilla.alizade@bk.ru***

Çoxsaylı tədqiqatlar göstərir ki, uşaqlara hələ ən kiçik yaşlarından şəxsiyyətin formalaşması zamanı gender fərqləri barədə məlumatlar ötürülür. Körpə dünyaya gəlməmişdən öncə valideynlər onun cinsini öyrənərək, qeyri-şüuri olaraq uşağın otağından tutmuş ona aid bütün əşyalara qədər hər şeyin gender stereotiplərinə uyğun olmasına çalışırlar.

Belə ki, tədqiqatlar göstərir ki, gender stereotipləri əsasən gənclərin hansı peşəni seçməli olduqları və karyeralarının necə inkişaf etmələri barədə fikirlərinə təsir göstərir. Məsələn, kişilərin riyaziyyatda qadınlardan daha bacarıqlı olduğuna dair mülahizəər son nəticədə qadınların bu sahəyə marağının aşağı olmasını əvvəlcədən müəyyən edə və onların uğurlarına təsir edə bilir. Bununla belə, stereotiplər yalnız bu və ya digər cinsin nümayəndələrinin xüsusi qabiliyyətlərinə deyil, həm də ümumilikdə intellektual səviyyəyə aiddir. Beləliklə, cəmiyyətdə belə bir fikir yayəılmışdır k, dahilik və istedad daha çox kişilərə xasdır, buna görə də alimlərin fikrincə, bu, bəzi peşələrdə gender fərqini qismən izah edə bilər.

Bu hipotezin araşdırılması məqsədilə Amerikalı sosioloqlar tərəfindən keçirilmiş tədqiqat nəticəsində “Science” jurnalında dərc olunan məqalədə bildirilir ki, kişilərin qadınlardan daha üstün qabiliyyətlərə malik olduğunu təşviq edən gender

stereotipləri altı yaşından etibarən uşaqlara təsir etməyə başlayır. Bu yaşdan etibarən qızlar tədricən "çox ağıllı uşaqlar" üçün olsn dərslərdən yayınmağa başlayırlar və oğlanlara nisbətən öz cinsinin nümayəndələri arasında qeyri-adi intellektə malik insanların olduğunu düşünmə ehtimalları daha az olur. Alimlərin fikrincə, gələcəkdə bu, sadəcə onların dərsə daha az maraq göstərməsində yox, həm də peşə və ixtisas seçimini müəyyən edə bilər. Eyni zamanda, sosioloqlar, sosial işçilər və psixoloqlar belə stereotiplərin hansı yaşda formalaşdığını və insanlara nə vaxt təsir etməyə başlamasını izah etməyə çalışırlar.

Bunu öyrənmək üçün 5-7 yaş arası 400 amerikalı uşağın iştirak etdiyi silsilə eksperimentlər həyata keçirilmişdir. Bu eksperimentlər vasitəsilə tədqiqatçılar qızlarda və oğlanlarda kişilərin qadınlardan daha üstün qabiliyyətlərə malik olduğu barədə stereotipin necə inkişaf etdiyini müşahidə etmişlər.

Eksperimentin birinci mərhələsində sosioloqlar tədqiqat iştirakçılarına üç tapşırıq təqdim etmişlər. Birinci tapşırıqda uşaqlara “çox ağıllı” bir insan haqqında hekayə danışılmışdır və bu insanın kişi və ya qadın olduğuna qərar vermələri xahiş edilmişdir; ikinci tapşırıqda iştirakçılar hər 2 cinsdən olan şəxslərin şəkillərinə baxmışlar və onlardan hansının daha ağıllı olduğuna qərar verməli; üçüncü tapşırıqda isə şəkildəki kişi və qadınlar üçün hansı əşyaların və keyfiyyətlərin daha uyğun olduğunu təxmin etməli idilər.

Məlum olmuşdur ki, məhz beş yaşlı qızlar öz cinsindən olan şəxsləri daha istedadlı hesab edir, altı və yeddi yaşlı qızlar isə əqli keyfiyyətləri daha çox kişilərlə əlaqələndirilər. Eyni zamanda oğlanlar yaşından asılı olmayaraq kişiləri daha ağıllı hesab edirdilər. Tədqiqat müəllifləri aşkarlanan əlaqəni məktəb təhsilinin 6 yaşdan başlaması ilə bağlı ola biləcəyi fikrini irəli sürdülər. Lakin uşaqlardan şəkildəki insanlardan hansının məktəbdə daha yüksək qiymətlər aldığına qərar vermələri tələb olunan növbəti eksperimentdə bu fərziyyə təsdiqini tapmadı.

Bundan əlavə, qızlar oğlanlara nisbətən həmcinslərinin məktəbdə daha yaxşı oxuduğunu bildirən cavablar vermişlər.

Qızların oğlanlara nisbətən daha zəif riyazi qabiliyyətlərə malik olması barədə stereotiplər qadınların riyazi bilik tələb edən qabaqcıl elm sahələrində təmsilçiliyini azaldan amillərdən biridir. Hər kəsin həyatında sosiallaşmanın önəmli sübyektlərindən biri olan müəllimlər bir çox hallarda riyazi-gender stereotiplərinə malik olurlar. Bu belə bir nəticəyə gəlməyə imkan verir ki, müəllimlərdə riyazi-gender stereotiplərinin azaldılması qadınların riyazi bilik tələb edən qabaqcıl elm sahələrində təmsilçiliyini artıra bilər. Müxtəlif növ ədəbiyyatın təhlili  riyazi qabiliyyətlərə dair riyazi-gender stereotipləri ilə əlaqəli üç potensial yanlış təsəvvür müəyyən edilmişdir: Birincisi, oğlanların mahiyyətcə daha yaxşı riyazi təfəkkürə malik olduqları güman edilir, çünki onlar sanki qızlardan daha sistemli düşünürlər, qızlar isə daha empatik düşünürlər). İkincisi, qızların oğlanlar kimi riyaziyyatda uğur qazanmasının səbəbi kim qızların daha çalışqan olması güman edilir, oğlanlar isə sadəcə olaraq istedadlıdırlar. Bu güman müəllimlərdə və digər sosiallaşdırıcı funksiya daşıyan mütəxəssis və şəxslərdə aşkar edilmişdir Üçüncüsü, əgər riyazi qabiliyyətlər qazanılmış və öyrədilən yox, anadangəlmə meyillilik kimi qəbul edilirsə və qızlar daha az riyazi istedada malikdirlərlə, qızlar daha zəif riyazi qabiliyyətlərini məhz buna görə kompensasiya edə bilmirlər.

Lakin qızların və oğlanların riyazi qabiliyyətlərinin mahiyyətcə fərqli olmadığına dair elmi dəlillər var. Bununla belə, yaş artımı ilə birlikdə bəzi ölkələrdə gender stereotipləri daah da möhkəmlənir, qadınlar daha çox ailə qayğıları ilə məşğul olur və riyaziyyat əlaqəli elm sahələrində kişi tələbələr üstünlük təşkil dirlərÜstəlik, qızların və qadınların elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində daha az qabiliyyətləri ilə bağlı gender stereotipləri həm Qərb, həm də Şərq mədəniyyətlərində geniş yayıldığı üçün qadınların

STEM istiqamətində məşğulluğu az proqnozlaşdırır. Tədqiqatlar həm də onu göstərir ki,). Müəllimlər oğlan şagirdlərin riyaziyyat göstəricilərinə daha müsbət münasibət bəsləyir, onların riyazi qabiliyyətlərini yüksək qiymətləndirirlər və riyazi uğurları ilə bağlı daha yüksək gözləntilərə malikdirlər.  Digər tərəfdən müəllimlər müəllimlər riyazi tapşırıqların yerinə yetirilməsi zamanı uğursuzluğu qızlar arasında istedadın olmaması, oğlanlar arasında isə səylərin olmaması ilə əlaqələndirirlər və eksperimental şəraitdə tələbələrin tapşırıqlarını qiymətləndirərkən (əgər oğlanlar və qızlar eyni səviyyədə cavab yazmışlarsa) oğlanların xeyirinə gender qərəzliyi nümayiş etdirirlər. Ümumiyyətlə, riyaziyyat-gender stereotipləri qızların riyaziyyata olan marağını, motivasiyasını və göstəricilərini zəiflədir və nəticədə qadınların riyazi peşələrə yiyələnmək ehtimalının azalmasına səbəb olur

Akademik sferada gender stereotiplərin bizə necə təsir etdiyini və bu təsirin nə qədər güclü olduğunu nümayiş etmək üçün Stenford Universitetinin sosial psixologiya üzrə mütəxəssisi Klod Stil tərəfindən keçirilən növbəti eksperimenti nəzərdən keçirmək olar. Eksperimentin şərtlərinə əsasən o, həmkarları ilə birlikdə riyazi bilikləri yüksək  olan oğlan və qız olmaqla iki qrup tələbə cəlb etmişdi.

Tələbələrə riyaziyyat üzrə bir neçə tapşırıq verilmişdir və eksperiment 2  cüt qrupda, fərqli  şərlərlə həyata keçirilmişdir. Tapşırıqları həll etməyə başlamamış birinci qrupa qısa izah verilirdi ki, bu test riyaziyyatda kişi və qadınların qabiliyyətlərinə görə fərqi göstərir. İkinci qrupa izah edildi ki, test bu mövzuda müxtəlif cinslərdən olan insanlar arasında heç bir fərq göstərmir. Eksperimentdən əvvəl gender fərqləri haqqında izah verilən qruplarda qız tələbələr oğlan tələbələrdən daha pis nəticələe göstərmişlər – baxmayaraq ki, hər iki qrupda iştirakçıların riyazi bilikləri təxminən eyni səviyyədə idi.

K.Stilin eksperimentindən də aydın olduğu kimi insanlara gender stereotipləri barədə məlumatların daim təlqin olunması

onların akademik göstəricilərinə əhəmiyyətli dərəcədə təsir edir. Yüksək dərəcə aktual olan gender stereotipləri ilə zəngin cəmiyyətlərdə daim bu tipli fikir və ideyların müzakirəsi qadınların STEM istiqamətində elmi nailiyyətlərinin niyə aşağı olmasına cavab verməyi kifayət qədər asanlaşdırır.

Kiçik yaşlı uşaqların gender anlayışının araşdırılması zamanı aşkarlanan növbəti kişi və qadın, qız və oğlanların "nə etmələrinin məsləhət olduğu" və necə davranmaları barədə fikirlər çox erkən yaşlardan aşılanması olmuşdur. Belə ki, ilkin təhsil və tərbiyə funksiyası daşıyan məktəbəqədər müəssisələrdə belə lap kiçik, şüurun tam inkişaf etmədiyi yaş dövründən - həm oğlanlara, həm də qızlara "normallıq" və monoton rolların son dərəcə dar çərçivəsi (bayram tədbirlərində rollar məsələn, "qızlar- qar dənələri, şahzadələr, oğlanlar isə quldurlar, canavarlar", əksi qəbul olunmur ) təklif edilir. Kiçik qızlar bu sistemdə xüsusilə həssasdırlar - onlardan daim başqalarından razılıq axtarmaq, mümkün qədər itaətkar və sakit olmaq, çox məhdud sayda obyekt və mövzularla maraqlanmaq tələb olunur. Belə monotonluq uşaqların fərdi inkişafına mane ola bilər, xüsusən də bu sistem evdə dəstəklənərsə. Qızlardan demək olar ki, qeyri-mümkün olanı etmək yüksək təhsil, gözəllik, yaxşı davranış, uğurlu karyera, ailə oriyentasiyası, "qeyri-adi əqli göstəricilər" və bütün bunların eyni zamanda olması tələb olunur:.

Valideynlərin yüksək gözləntiləri sosial stereotiplər və məktəblərdə qızlar üçün yüksək standartlarla gücləndirilir. Onlar daim mühakimə olunur, yeni ideallara uyğun gəlməyə məcbur edilir və ən kiçik bir yanlışa görə sərt şəkildə tənqid olunurlar.

Bütün qeyd olunanlar hər bir vətəndaşın gender stereotiplərinin formalaşmasında və yayılmasında iştirakını əyani sübüt edir. Təəsüf ki, hər kəs bunu dərk etmir və bu mənfi tendensiyanın qarşısı alınmaqdansa, əksinə inkişafına töhfə vermiş olur. Lakin aydın olan odur ki, bu nə qadınların, nə

kişilərin, nə də bütövlükdə cəmiyyətin xeyiri üçün çalışan mexanizm deyildir.

Problemin həllində effektiv addımlar kimi valideynlərin və uşaqlarla təmasda olan mütəxəssislər aşağıdakı tövsiəyələri nəzərə alması məqsədəuyğun hesab olunur:

–Uşağa geyim, oyuncaq, rəng, fənn və idman növü seçimində azadlıq verməsi,

–Uşağa bütün emosiyalarını əks etdirməyə icazə vermək (oğlanlar kədərli filmlərə baxanda ağlamasına, qızlar həyati vəziyyətlərdə cəsarət və lidelik nümayişinə adekvat reaksiya),

–"qız kimi" və ya "oğlan kimi" davrandığına və ya davranmadığına görə tənqid etməmək

–Öz şəxsi nümunəsi ilə uşaqlar üçün rol modeli olmaq və s.

## ƏDƏBİYYAT


1. W. Wood, A. H. Eagly, Biosocial construction of sex differences and similarities in behavior. Adv. Exp. Soc. Psychol. 46, 55–123 (2012).
2. S. T. Fiske, A. J. C. Cuddy, P. Glick, J. Xu, A model of (often mixed) stereotype content: Competence and warmth respectively follow from perceived status and competition. J. Pers. Soc. Psychol. 82, 878–902 (2002).
3. D. Cvencek, A. N. Meltzoff, A. G. Greenwald, Math-gender stereotypes in elementary school children. Child Dev. 82, 766–779 (2011).
4. S. J. Spencer, C. M. Steele, D. M. Quinn, Stereotype threat and women's math performance. J. Exp. Soc. Psychol. 35, 4–28 (1999).
5. S. Galdi, M. Cadinu, C. Tomasetto, The roots of stereotype threat: When automatic associations disrupt girls' math performance. Child Dev. 85, 250–263 (2014).
6. P. G. Davies, S. J. Spencer, D. M. Quinn, R. Gerhardstein, Consuming images: How television commercials that elicit

stereotype threat can restrain women academically and professionally. Pers. Soc. Psychol. Bull. 28, 1615–1628 (2002).
7. M. C. Murphy, C. M. Steele, J. J. Gross, Signaling threat: How situational cues affect women in math, science, and engineering settings. Psychol. Sci. 18, 879–885 (2007).
8. S. Upson, L. F. Friedman, Where are all the female geniuses? Sci. Am. Mind 23, 63–65 (2012).
9. A. Furnham, E. Reeves, S. Budhani, Parents think their sons are brighter than their daughters: Sex differences in parental self-estimations and estimations of their children's multiple intelligences. J. Genet. Psychol. 163, 24–39 (2002).
10. B. Kirkcaldy, P. Noack, A. Furnham, G. Siefen, Parental estimates of their own and their children's intelligence. Eur. Psychol. 12, 173–180 (2007).
11. A. Lecklider, Inventing the Egghead: The Battle Over Brainpower in American Culture (Univ. of Pennsylvania Press, 2013).

## ZORAKILIĞA MƏRUZ QALMIŞ FƏRDLƏRİN YENİDƏN CƏMİYYƏTƏ İNTEQRASİYASI

***Məmmədova Elvira***
***ADMİU-nun II kurs magistrantı***
***mmmdova1999@internet.ru***

Ən çox yayılmış zorakılıq növü məişət zorakılığıdır. Onun əsas xüsusiyyəti insanların gündəlik həyatına sızmasıdır; tez-tez adət və ya vərdiş pərdəsini alır; tez-tez yaxın və ya hətta ailə əlaqələri olan şəxslər arasında baş verir; və nəticədə hiss olunmur.

Dünya təcrübəsi yoxsulluq və məişət zorakılığı arasında güclü əlaqə olduğunu göstərir. Həddindən artıq yoxsulluq və marjinallaşma məişət zorakılığını daha çox yayılmış, müəyyən edilməsini daha çətin və qarşısının alınmasında daha az

müvəffəqiyyətli edir. Məişət zorakılığı həm mənəvi, həm də iqtisadi cəhətdən yanlış olan gündəlik zorakılıq növüdür. Zorakılığın yuxarıda qeyd olunan formalarına qarşı mübarizə cəmiyyətin bütün səviyyələrində görülməli olan uzunmüddətli, əsaslı və genişmiqyaslı səydir və müəyyən strategiya tələb edir, çünki təcrübə göstərir ki, o, dərin sosial köklərə, eləcə də psixoloji təsirlərə malikdir [5].

Bu strategiyanın həyata keçirilməsi üçün zorakılığın dayandırılmasına yeni yanaşmaların yaradılması, yeni qabiliyyətlərin əldə edilməsi, multidissiplinar tədqiqatların (sosial strukturlar və sosial həmrəylik, mədəniyyət, iqtisadiyyat, informasiya mübadiləsi, gender problemləri, metodologiyanın işlənib hazırlanması və s.) necə aparılacağına qərar vermək tələb olunur).

Şübhəsiz ki, gender əsaslı zorakılıqla mübarizənin ən çətin aspektlərindən biri döyülmüş qadın və qızların icmalara və cəmiyyətə inteqrasiya edilməsidir. Qadınların kişilərə uyğun olmasını tələb edən sosial standartlara və maddi asılılıqlarına görə təhqiramiz nikahları tərk etmək çox vaxt çətin olur. Zorakılığa məruz qalmış qadınlara həm özləri, həm də uşaqları üçün təhlükəsiz həyat sürmək üçün lazım olan vasitələrin verilməsi onların reinteqrasiyasını dəstəkləmək üçün vacibdir. Bu, Albaniyada Qadınlara və Qızlara Qarşı Zorakılığa son qoyulması üzrə BMT-nin Birgə Proqramının ən mühüm komponentlərindən biridir", - BMT-nin Qadınlar üzrə Layihə Meneceri Alba Aqolli deyir. Digər məsələlərlə yanaşı, üç illik proqram Albaniya Hökumətinə qadınlara qarşı zorakılıqla bağlı beynəlxalq standartlara cavab vermək, maarifləndirmək və qadınların partnyorlarının zorakı davranışlarına münasibətini dəyişməkdə dəstəkləyir. Bu proqram BMT Qadınları, BMTİP və UNFPA tərəfindən birgə həyata keçirilir [1].

Zorakılıq qurbanlarına psixososial yardımın spesifikliyi ondan ibarətdir ki, o, zorakılıq qurbanının yerləşdiyi mühiti

müsbət istiqamətdə dəyişməyə yönəlib. Yardım ilk növbədə fiziki və emosional zorakılıq hallarının müəyyən edilməsinə yönəlib. Tibbi-sosial iş adlanan yeni fənlərarası peşəkar fəaliyyət növü, tibbi, psixoloji-pedaqoji və sosial-hüquqi iş sağlamlığı bərpa etmək, qorumaq və inkişaf etdirmək məqsədi daşıyır. Məişət zorakılığı qurbanları ilə sosial işdə üç əsas vəzifə var:

- onları xilas etmək;
- sosial fəaliyyəti təmin etmək;
- sosial inkişafını təmin etmək;

Vurğulamaq lazımdır ki, bəzi ictimai və şəxsiyyətlərarası şərait bir işçi qrupunu digərindən üstün tutur. Xəstəxana sığınacaqları, böhran mərkəzləri və müxtəlif sosial xidmətlərə malik sığınacaqlar qadınların həyatı və sağlamlığı üçün həqiqi təhlükə olduğu halda işə götürülə bilər. Qadın ciddi maddi çətinliklərlə üzləşdikdə xüsusi sosial və ya təcili yardım tələb etmək hüququna malikdir. Sosial-psixoloji reabilitasiya, çətin həyat şəraitində qadınlara dəstək, onların daha çox tələb olunan peşələrə yiyələnməsi və ya yenidən hazırlanması üzrə səylər, məsləhətlər və ya hüquqlarının müdafiəsi üçün digər hüquqi yardım sosial fəaliyyətin saxlanmasına kömək edə bilər. Özünə yardım və qarşılıqlı yardım təşkilatlarına, həssas əhalinin müdafiəsi üçün birliklərə və digər sosial inkişaf tapşırıqlarına dəstək fəaliyyətləri ola bilər [2].

Tipik olaraq, sosial iş mütəxəssisləri və digər peşələrdən olan işçilər bütün bu işləri görmək üçün birlikdə işləyirlər: sosial komplekslər, polis nəzarəti, işə yerləşdirmə, səhiyyə və təhsil müəssisələri və s. Zorakılığa qarşı müdafiəni təmin etmək üçün həm stasionar nəzarət, həm də qeyri-stasionar müəssisələrdən istifadə edilə bilər. Qeyri-stasionar müəssisələr dedikdə adətən sosial qayğı təşkilatları və hüquq-mühafizə orqanlarının fəaliyyəti nəzərdə tutulur. Birincisi zorakılığa son qoyur, ikincisi isə onun qurbanlarına reabilitasiya, hüquqi dəstək və digər yardım növləri təklif

edir. Bu, onların müdafiəsi, məlumat və məsləhət dəstəyi, mənəvi və psixoloji reabilitasiya üçün sosial resurslardan ibarətdir. Hücum qurbanı olan qadınlar üçün terapiya qruplarının yaradılması uğurlu bərpa üsuludur.

Bu qrupların üzvləri ən yaxşı şəkildə bir-birlərini həvəsləndirə, peşəkarın rəhbərliyi altında daha yaxşı nəticələr əldə edə, şəxsiyyətlərini düzəldə və sosial maraqlarını müdafiə edə bilərlər. Travmatik hallar eyni qaldıqda, lakin qadının onlara baxışı dəyişdikdə, reabilitasiya şəxsi qavrayışın korreksiyası səviyyəsində baş verir. Terapiya qruplarının özünə kömək qrupları, yəni zorakılığa məruz qalmış insanların birlikləri mövqeyinə keçməsi, digər qrup üzvlərinə təsir göstərə biləcək şəxslərin diqqət mərkəzində saxlanılması daha çox əmək tələb edir[4]. Son illər ərzində ölkəmizdə aktiv  şəkildə sosial yardım mərkəzləri və digər sosial xidmət təşkilatları sistemi yaranıb. Sosial iş üzrə mütəxəssis vəzifəsi bu təşkilatlar üçün kadr cədvəlinə daxildir. Əhali üçün sosial xidmət müəssisələri zorakılığa məruz qalmış qadınlara və uşaqlara birbaşa yardım təklif edir.

Kateqoriyalı vətəndaşlar təcili sosial xidmətlər (təcili sosial yardım şöbələrində) hüququna malikdirlər ki, bunlara aşağıdakı xidmətlər daxildir: tibbi yardım, müvəqqəti mənzil tapmağa köməklik, vətəndaşların hüquqlarını qorumaq üçün hüquqi yardım, təcili tibbi və psixoloji yardımın göstərilməsi; o cümlədən yardım xətti və s. [3]. Bundan əlavə, zorakılıq qurbanlarına kömək etmək Ailələrə və Uşaqlara Sosial Yardım Mərkəzlərinin əsas vəzifəsidir. Ailə zorakılığı, ilk növbədə, kompleks həllər tələb edən sosial problemdir. Bu həll yollarına məişət zorakılığının sosial qarşısının alınmasına və ya azaldılmasına, habelə cinayət mühakiməsinin islahatına və hər bir ailə üzvünün yaşamaq, azadlıq və ləyaqətlə bağlı konstitusiya hüquqlarının qorunmasına yönəlmiş tədbirlər daxildir.

Prezident İlham Əliyevin rəhbərliyi və dəstəyi ilə insan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davamı olaraq 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul edildi, qadın hüquqlarının qorunması, xüsusi ilə də məişət zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası yaradıldı. Artıq son illərdə məhkəmə qərarlarında bu sahədə qəbul olunmuş qanun və qoşulduğumuz konvensiyalara, o cümlədən, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" haqqında Konvensiyaya istinad edilir.

## ƏDƏBİYYAT

1. Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun Direktor Müavini Lakşmi Purinin “Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri” üzrə yüksək səviyyəli müzakirədə çıxışı, 21 sentyabr 2016-cı il.
2. Алешина, Ю.Е. Индивидуальное и семейное психологическое консультирование./ Ю.Е.Алешина. - М.: Мир, 2007. - 105 с
3. Превентивные программы по проблеме насилия в семье. / Под ред. И.В. Матвиенко. - М.: 2002. - 32 с.
4. Тарабрина, Н.В. Практикум по психологии посттравматического стресса./Н.В. Тарабрина. - СПб.: Питер , 2001 - 325с.
5. https://e-qanun.az/framework/12861.

# UŞAQ EVLƏRİNDƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA SOSİAL İŞİN QANUNVERİCİLİK BAZASI

*Zeynallı Səkinə Zeynal qızı*
*ADMİU-nun II kurs magistrantı*
*zeynallisakina@gmail.com*

Bu tezisdə valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiələrinə dair qanunvericilik araşdırılmışdır. Bu qanunvericiliyə daxildir (Müvafiq Qanunvericiliklər):

- Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasinin Qanunu;
- "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasinin Fərmanı;
- "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- UNICEF qanunları.

Valideyn himayəsindən məhrum uşaqlarla bağlı müxtəlif statistik göstəricilər müxtəlif ölkələr arasında müqayisə edilmişdir. Bu göstəricilərə aşağıdakıları daxil etmək olar:

- Uşaqlar evinin sayı;
- Valideyn himayəsindən məhrum uşaqların yaşayış yerləri ilə bağlı olan statistika;
- Azərbaycan İnsan İnkişafı İndeksi göstəriciləri

Əksər ölkələr 1992-1994-cü illər arasındakı dövrdə BMT-nin Uşaq Hüquqları Konvensiyasını qəbul etmişlər və onlar uşaqların ən yaxşı mənafelərinə xidmət edən və onları sadəcə bir

qayğı obyekti kimi yox, eyni anda həm də hüquqlara malik fərdlər olaraq qəbul edən bir sistem yaratmağı öhdəsinə götürmüşdülər. Nəticədə uşaq baxımı sistemində islahatlar aparıldı. Azərbaycan “Uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün ailə mühitində böyüməli” olduğunu təsdiq edən Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur. Uşaq yalnız ciddi zədələnmə təhlükəsi olduğu hallarda ailədən çıxarılmalı və alternativ ailə qaydasında himayəyə verilməlidir. “Dövlət uşaq baxım müəssisələrinin yenidən strukturlaşdırılması üzrə ümummilli strategiya” hazırlamaqla Azərbaycan orijinal və mühüm islahat addımı atmışdır (Statistika Komitəsinin 2015-ci il Hesabatı).

Bu günə qədər internat qayğı müəssisələri rəsmi qayğının ən geniş yayılmış formasıdır. Uşaqlara fərdi qaydada razılaşdırılmış müvəqqəti qayğı göstərmək üçün yaşayış müəssisələrində qayğı son çarə kimi istifadə edilməlidir. Bunu mümkün etmək üçün himayədar ailələr və ya qəyyumluq kimi ailə quruluşları inkişaf etdirilməlidir.

Uşaqların uşaq evləri, internat məktəbləri və bu kimi yaşayış müəssisələri kimi iri miqyaslı müəssisələrdə institusionallaşdırılması adətən nə uşağın ehtiyacları ətrafında qurulur, nə də ailə vəziyyətini xatırladır. Bu, institusional mədəniyyətin aşağıdakı xüsusiyyətlərini əks etdirir (UNICEF, 2005):

- depersonallaşma
- gündəlik iş rejiminin sərtliyi
- blok rəftar
- sosial məsafə
- asılılıq hesabatlılığın olmaması.

Ümumilikdə valideyn himayəsindən məhrum uşaqlarla sosial iş üzrə qanunvericiliklə bağlı onu qeyd etməliyəm ki, ölkəmizdə bununla əlaqədar qanunvericiliklər olsa da, əsas məsələ nəzarət məsələsinin əskikliyidir. Qanunlar və qaydalar vardır, lakin onların tətbiqinə nəzarət o qədər də güclü deyildir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında uşaqların alternativ qayğısı – Statistika Komitəsinin 2015-ci il Hesabatı.
2. https://e-qanun.az/framework/3859
3. UNICEF et al. All rights for all children. UNICEF Regional Office for CEE/CIS, Geneva. 2006.
4. Ismayilova L., Sswemala, F., & Huseynli A. "Reforming child institutional care in the post-soviet bloc: the potential role of family-based empowerment strategies." Children and Youth Services Review, 2014, 47(2), p.103-186.
5. Burchell G., Meeting the Challenges of Out-of-Home Care Provision. - 2005. UNICEF.

## MƏHDUD İMKANLARA MALİK UŞAĞI OLAN AİLƏLƏRDƏ SOSİAL ADAPTASİYA

***Tağıyeva Tərlan Mirzəkərim qızı,***
***BDU-nun Sosial iş kafedrasının müəllimi***
***tterlan@yahoo.com***

Məhdud imkanlara malik uşağı olan ailələrlə işin bəzi aspektləri xüsusi diqqət tələb edir. Məsələn, qarşılıqlı münasibəti, adətən uşağın anası ilə qurmaq məsləhət görülür, çünki o, həmişə məsləhətə gəlir, ailə həyatındakı bütün problem və hadisələr haqqında məlumatı var. Lakin bu yanlış bir baxışdır. Reabilitasiya prosesində, bütövlükdə götürdükdə, atanın iştirakı mütəxəssislərin səmərəli səylərindən qat-qat artıqdır. Ona görə də ailədə işə başlayarkən təkcə ana ilə deyil, həm ata, həm də ailənin digər üzvləri ilə də tanış olmaq vacibdir. Yazılı təklif göndərəndə təkcə anaya deyil, həm də ataya, ümumiyyətlə hər iki valideynə müraciət edilməlidir. Bəzi atalara öz həyəcanları barədə kişi ilə danışmaq daha

asandır (bununla yanaşı, sirr deyil ki, bütün dünyada sosial iş əsasən qadınların müstəsna hüququ sayılır). Faydalı olardı ki, sosial işçi ilə görüşə gələ bilməyən ataların da analar kimi işdən xəbərdar olmaları barədə yazılı məlumat təqdim edilsin. Ataların uşaqların reabilitasiyasında iştirakını mənəvi cəhətdən xüsusi qeyd etmək lazımdır.

Çətinlikləri aradan qaldırmaq üçün əlil uşaqlı ailələrə aşağıdakı resurslardan istifadə etmək faydalı olardı:

- araşdırılan hər işdə mütəxəssislərin fəaliyyətini istiqamətləndirən bir təşkilat lazımdır;
- təcrübə mübadiləsi, ailə üzvlərini bilik və bacarığından istfadə etmək;
- uğurlarını bölüşdürmək və ya müvəffəqiyyətsizliyi müzakirə etmək, məsələnin birlikdə həllini tapmaq üçün mütəxəssisləri də cəlb etmək;
- mütəxəssislərin biliklərini möhkəmləndirmək və valideynlərə tövsiyələr üçün videotekadan və sosial iş məsələləri üzrə nəşrlərdən istifadə etmək (2, s.109).

Ailələri evlərdə ziyarət etməklə mütəxəssis və valideynlərin qarşılıqlı münasibətindən yaranan uğurun altı komponenti mövcuddur:

- müntəzəm əlaqə (imkandan və vacibliyindən asılı olaraq həftədə, iki həftədə, və ya altı həftədə bir dəfə);
- uşağın çatışmazlıqları deyil, müsbət qabiliyyətləri qeyd olunmalıdır;
- köməkçi materiallardan, valideynlər üçün vəsaitlərdən istifadə etmək;
- işə nəinki valideynləri, həmçinin ailənin digər üzvlərini, hətta qohumları da cəlb etmək;
- diqqəti tələbatın daha geniş spektrinə doğru yönəltmək (söhbət təkcə uşaqdan getmir, bütövlükdə ailə nəzərdə tutulur);
- nəticələrin və problemlərin müzakirə olunması üçün müdafiə qrupu (adətən bu qrupa müxtəlif mütəxəssislər –

sosial işçi, psixoloq, pedaqoq, psixoterapevt daxildir) yaratmaq (1, s. 62).

Bütün bunlar uşağın inkişafına və valideynlərin birgə əməkdaşlığa motivizasiyalarının artırılmasına kömək edəcəkdir.

İmkanları məhdud uşaqların sosial adaptasiyası, reabilitasiyası, cəmiyyətə inteqrasiyası çətinliklərinin aradan qaldırılması uzun illər boyu davam edən bir prosesdir. Onun müvəffəqiyyəti, səmərəliliyi, ilk növbədə yaxın adamların, pedaqoqların və digər mütəxəssislərin bu kateqoriyadan olan uşaqlara köməyindən və onların peşəkarlığından asılıdır.

Azərbaycanın və xarici ölkələrin mütəxəssislərinin iş təcrübəsi, bizim cəmiyyətdə əlil uşaqlara münasibət belə bir müsbət nəticəyə gətirib çıxarmışdır ki, hər kəs insan kimi yaşamalı, lazımi təhsil və tərbiyəni almalıdır. Bizim cəmiyyət demokratizm və humanizm prinsiplərinə əsaslanır. Bu, yeknəsəqlikdən imtina etmək, hər bir uşağı onun psixofiziki xüsusiyyətləri, qabiliyyətləri və maraqları nəzərə alınmaqla fərdi inkişaf trayektoriyası ilə təmin etməyə səy göstərməkdir.

Respublikada ictimai və qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Onların fəaliyyətinin əsasını sosial xidmətin göstərilməsi təşkil edir ki, bu da öz növbəsində fəaliyyətin xüsusi növü olan sosial işin mövcudluğunu sübut edir. Sosial işin öyrənilməsi və daha da genişləndirilməsi ölkəmizdə on illərlə yığılıb qalmış məsələlərin həllində böyük əhəmiyyətə malikdir.

Yekun olaraq müasir Azərbaycan ailəsi və onun problemlərinin həllində sosial reabilitasiya prosesini tədqiq etməklə biz aşağıdakı nəticələrə gəldik:

– ailə o zaman sosial xidmətlərin nəzər-diqqətini cəlb edir ki, onun dəyər idealları cəmiyyətin idealları ilə ziddiyyət təşkil edir. Sosial xidmətin diqqəti daha çox məhz uğursuz ailələrə yönəldilməlidir;

– sosial yardımın obyekti elə ailələr olmalıdır ki, onların

həqiqətən buna ehtiyacı var və onlar öz qüvvəsi ilə böhranlı vəziyyətlərdən çıxış yolu tapa bilmirlər;

– sosial işçinin maraq dairəsinə və qayğılarına ailə münaqişələri və ailədə zorakılıq, emosional pozğunluq və intizamsızlıq, ailədə rolların düzgün bölüşdürülməməsi və ailə vəzifələrinin ədalətsiz bölgüsü, sərxoşluq, narkomaniya, cinayətkarlıq, psixi və fiziki çatışmamazlıq, əlillik və bir çox başqa problemlər aiddir. Sosial iş təkcə sözügedən ailə problemlərinin həllinə deyil, həmçinin ailənin möhkəmlənməsi və inkişaf etməsinə, onun çoxsaylı ictimai əhəhmiyyətli funksiyaları yerinə yetirməsi üçün daxili potesialının bərpa olunmasına, ölkədə demoqrafik və sosial-iqtisadi vəziyyətin stabilləşməsinə yönəldilməlidir. Sosial işçilər bütün qüvvə və bacarıqlarından istifadə etməlidirlər ki, ailə pedaqoji, psixoloji, sosial və maddi cəhətdən düzgün və harmonik inkişaf etsin;

– ailənin sosial problemləri maddi-iqtisadi, tibbi-bioloji, psixoloji-intellektual, peşə-təhsil və s. kimi müxtəlif faktorların kompleksindən asılıdır ki, bu da onun müvəffəqiyyətini və sosial statusunu müəyyən edir. Bunların əsasında müasir ailənin əsas problemlərini üzə çıxarmaq olar: demoqrafik problemlər (nikahlarin azalması, boşanmaların çoxalması, doğumun aşağı olması və s.); etnik və mədəni adətlər; vətəndaş hüquqlarının və azadlıqlarının inkişafı (natamam ailələr, nikahdankənar münasibətlərin sayca çoxalması); sosial-məişət problemləri; sosial-iqtisadi problemlər (ailə büdcəsi, kommunal xidmətlər, yoxsulluq); psixosomatik və psixoloji problemlər (intihar halları, psixopatologiya, qəddarlıq və zorakılıq);

– bizim ölkəmizdə ailələrin bir çoxu yaranmış çətinliklərin öhdəsindən müstəqil surətdə gələ bilmirlər və dövlət yardımına ehtiyacları var. Ailələrin həyat fəaliyyətinin təmin olunmasında dövlətin iqtisadi və sosial siyasəti mühüm əhəmiyyətə malikdir ki, əmək sferalarında əhalinin

məşğuliyyəti, rifahı və ailə gəlirləri bundan asılıdır;

– təkcə dövlət və ictimai təşkilatlar deyil, ailələrin özləri də öz problemlərinin həllində fəal iştirak etməlidirlər. Belə ki, ailənin möhkəmliyi onun üzvlərinin bir-birinə olan münasibətindən asılıdır. Hər kəs bilməlidir ki, ailənin vəifəsi yalnız adət-ənənələrin saxlanılması və qorunması deyil, həm də bu günün və sabahın qayğısını çəkməkdən ibarətdir. Yadda saxlamaq lazımdır ki, ailə sosial işçinin köməyilə öz problemlərini dərk edir və onları həll etmək üçün özündə qüvvə və iradə tapır;

– Azərbaycanda erkən nikahlarla bağlı vəziyyət dünya birliyinə inteqrasiya ilə əlaqədar dönüş proseslərindən xəbər verir, informasiya məkanı genişlənir, davranış stereotipləri və normaları dəyişir. Yaranmış şəraitdə sosial siyasətin böyüyən nəsillə iş sferası ilə, o cümlədən, ailə və nikah problemləri ilə bağlı bir sıra məsələlərə diqqəti artırmaq lazımdır. Bunların arasında təhsil və elm sistemi, bütövlükdə həyat səviyyəsinin yüksəldilməsi daha vacib hesab olunur.

## ƏDƏBİYYAT

1. Мацковский М.С. Социология семьи: проблемы, теории, методологии и методики. М.: Наука, 1989. 112 с.
2. Аббасова К.Я. Глобализация и проблемы ролевой напряженности в семейных отношениях. Psixologiya jurnalı, №2, Baku, 2007, 99-109 s.
3. Hacıyeva S.B. Azərbaycan ailəsinin xüsusiyyətləri və qızların sosial inkişaf şəraiti. Psixologiya jurnalı, № 2, Bakı, 2007, 166-175 s.
4. Həsənəliyev N. Övlad məhəbbəti ölüncədir. Bakı, Gənclik, 1991, 96 s.

# QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRƏ DÖVLƏTİN SOSİAL SİYASƏT İSTİQAMƏTLƏRİ

***Əliyeva Pərvin Mətləb qızı, magistrant***
***ADMİU-nun magistrantı***
***eliyeva.pervin21@gmail.com***

1988-ci ildə Qərbi Azərbaycandan və 1993-cü ildə Qarabağın dağlı-aranlı rayonlarından məcburi köçkün və qaçqın vəziyyətinə düşmüş soydaşlarımızın sosial vəziyyətlərini qorumaq məqsədilə dövlətimiz özünün iqtisadi resurslarından, imkanlarından faydalanmağa çalışmışdır.

Qaçqın və məcburi köçkün olmuş şəxslər həssas qrup kimi daima dövlətimizin diqqət mərkəzində olmuşdur və bu diqqətin təzahür şəkillərini tezisvari şəkildə aşağıdakı kimi verə bilərik.

1) Azərbaycan xalq cəbhəsinin 1993-cü ilin ilk illərində səriştəsizliyi torpaqlarımızın taleyinin təhlükə qarşısında qalmasını şərtləndirdi. Bundan istifadə edən erməni vandalları Dağlıq Qarabağ və onun ətraf rayonlarını işğal etdilər və beləliklə də ölkəmizdə qaçqın və məcburi köçkün ordusu yarandı.

2) Dövlətin ilk illərdə qaçqın və məcburi köçkünlərin sosial rifahı haqqında gördüyü tədbirlər səmərəli nəticə vermirdi. Ermənistanın hərbi təcavüzü və milli satqınların gördüyü tədbirlər nəticəsində dəyəri milyard manatlarla ölçülən çoxlu ictimai və şəxsi bina, qurğular, maşın və avadanlıq, qədim mədəniyyət abidələri, kənd təsərrüfatı istehsal edən avadanlıqlar, əkin və biçin sahələri ermənilərin nəzarəti altına, işğalı altına keçmişdir. Qaçqın və məcburi köçkünlər dözülməz vəziyyətə düşmüşlər.

3) Məcburi miqrasiyaya məruz qalmış şəxslərin sosial adaptasiya və reabilitasiya problemləri dövlətimizin bir nömrəli qayğısına çevrildi. Heydər Əliyevin hakimiyyəti

dövründə Azərbaycanın beynəlxalq-iqtisadi əlaqələri daha da genişlənərək nüfuzunun durmadan artması, dünyanın ən inkişaf etmiş ölkələrinin şirkətləri ilə əsrin müqaviləsi adlanan neft müqaviləsinin bağlanması, Avropa ölkələrinə və ABŞ-a uğurlu səfərləri, qonşu dövlətlərlə münasibətlərin yaxşılaşdırılması, BMT-nin 49-cu sessiyasındakı tarixi çıxışı, dünya ictimaiyyətinin diqqətini respublikamıza yönəltməsi, Azərbaycanda ilk demokratik seçkilərin keçirilməsi, habelə ilk konstitusiyamızın qəbul olunması Heydər Əliyev kimi nəhəngin xidmətləri sayəsində oldu. Neftdən gələn gəlirin çox hissəsi məcburi köçkünlərin sosial siyasət yönündə rifahına yönəldildi. Onlar müxtəlif sahələrdə təsərrüfat işlərinə cəlb edildilər.

4) Respublikamızın rayonlarının ərazisində müvəqqəti məskunlaşmış köçkünlərin sayına və onların sərəncamında olan kənd təsərrüfatı texnikasına uyğun olaraq çörəyə təlabatı ödəmək məqsədilə torpaq sahələri ayrılıb onların ixtiyarına verildi. Onların toxum, yanacaq və s. əldə etmələri üçün vəsait mənbələrinin müəyyənləşdirilməsi təmin edildi. Belə olan təqdirdə, qaçqın və məcburi köçkünlər müvəqqəti olaraq yaşadıqları yerlərə adaptasiya olundular.

5) Qaçqın və məcburi köçkün həyatı yaşamış insanların cəmiyyətə pozitiv inteqrasiyası modelləri dövlətimiz tərəfindən sosial proqramlar, xidmətlər, həll yolları göstərirdi. Məcburi köçkünlərə bu proqramlar əsasında yaşamaq və işləmək tövsiyə olunurdu. Bütün bunların nəticəsində Ümumilli Liderimiz Heydər Əliyevin işıqlı zəkasına, qaçqın və məcburi köçkünlər böyük ümid çırağı kimi baxdılar. Və bu dahinin yeritdiyi müdrik siyasət nəticəsində öz doğma yerlərinə qayıdacaqlarına ürəkdən inandılar.

6) Qaçqın və məcburi köçkün olmuş şəxslərlə bağlı həyata keçirilən sosial siyasət proqramları 30 il müddətində müntəzəm xarakter daşımışdır. Sosial siyasətin mərkəzində məcburi köçkünlərin həyat və məişət şəraitinin

yaxşılaşdırılması problemi dururdu ki, dövlətimiz bunun öhdəsindən layiqincə gəldi. Təkcə bir faktı qeyd edə bilərik ki, məcburi köçkün rayonların büdcədən maliyyələşdirilən təşkilatlarında çalışan və özlərindən asılı olmayan səbəblər üzündən işləməyən işçi və qulluqçuların əmək haqqının ödənilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 181 nömrəli sərəncamının müddətinin uzadılması ilə bağlı ilbəil qərarlar verildi. Məcburi köçkünlər işıq, qaz, su pulu kimi problemlərdən azad edildilər. Üstəlik, çörək pulu olaraq hər ay onlara 60 manat civarında pul ödənildi ki, bu da dövlətimizin qaçqınlara və məcburi köçkünlərə göstərdiyi qayğının ən bariz təzahürlərindəndir [1, 2].

7) Qaçqın və məcburi köçkün olmuş şəxslərin sosial-iqtisadi rifahının yüksəldilməsi istiqamətində dövlətimiz xeyli işlər görmüşdür. 30 il müddətində məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün Bakı ətrafı kəndlərdə, o cümlədən, respublikamızın müxtəlif rayonlarında məcburi köçkünlər üçün çoxlu sayda qəsəbələr salınmış, müasir tipli mənzillər tikilib onların ixtiyarına verilmişdir [3]. Əksər qaçqın ailələrinə maddi yardım məqsədilə və kiçik biznesi inkişaf etdirmək şərtilə toyuq-cücədən tutmuş mal-qaraya qədər yardımlar ödənilmişdir ki, bunlar da kənd təsərrüfatının inkişafını sürətləndirən əsas göstəricilərdəndir.

8) İkinci Qarabağ müharibəsində məcburi köçkünlərin çəkdiyi əzab-əziyyətlərin qisasını igid oğullarımız cəbhədə düşməndən layiqincə aldılar. Ali Baş Komandanımız İlham Əliyevin ətrafında sıx birləşərək, "Dəmir yumruq" əməliyyatını möhtəşəm bir şəkildə yerinə yetirdilər. Erməni vandallarının başını əzib, torpaqlarımızı murdar xislətli düşmənlərdən azad etdilər. Indi işğaldan azad olunmuş ərazilərimizdə nəhəng quruculuq və abadlıq işləri həyat keçirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan beynəlxalq aləmdə. (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu ildə xarici ölkələrə səfərinə dair materiallar). V cild , Bakı, 1999.
2. Davos. Dünya iqtisadi forumu. “Azərbaycan” qəzeti, 3 fevral 2000.
3. https://xalqqazeti.com/mobile/az/news/85751


## СЕМЬЯ КАК ВЕДУЩЕЕ НАПРАВЛЕНИЕ СОЦИАЛЬНОЙ РАБОТЫ


***Бугадинова Рамина Абусалатовна,***
***преподаватель кафедры социальной работы БГУ***
***iera9@rambler.ru***


Семья представляет собой сложную систему социальной деятельности человека и является одним из основных социальных институтов общества. Социология семьи изучает характерные для семьи типы социальных отношений, факторы, определяющие структуру и численность семейной ячейки. Она включает в себя исторические типы и формы семейно-брачных отношений, тенденции, перспективы их развития, основания заключения и расторжения брака, причины внутрисемейных конфликтов, объединение и распад (распад) семей. Семья постоянно находится в движении, она меняется не только под влиянием экономических, политических и социокультурных условий, но и в результате внутренних процессов своего развития.

Указанная проблема представляет большой интерес в научной сфере. Таким образом, семья является одним из фундаментальных институтов общества и придает ему устойчивость. В то же время семья представляет собой ма-

лую группу, наиболее организованное и устойчивое ядро общества.

Современная семья переживает сложный период в своей эволюции: переход от традиционного типа семьи к новой модели семьи. Этот процесс сопровождается значительными изменениями в состоянии семьи: увеличивается число простых семей (количество рождений в таких семьях не позволяет обеспечить численность воспроизводства населения); увеличивается количество детей, рожденных вне брака; количество браков падает; происходят изменения в семейных отношениях; меняется система влияния, власти и подчинения в семейной жизни, роли и функциональная зависимость супругов, положение детей. Такие переходные процессы сопровождаются возникновением проблем, требующих вмешательства государства или общественности. С этой точки зрения представляет большой интерес социальная работа с семьями, нуждающимися в такой помощи.

Социальная работа, являющаяся относительно новым научным направлением в нашей стране, предлагает различную помощь семьям в решении их конкретных проблем в рамках специально разработанных государственных или общественных программ. Существует множество направлений семейной социальной работы. Сюда входит решение проблем, связанных с неблагополучными семьями и трудными подростками, работа с нетипичными детьми в семье (например, с детьми с ограниченными возможностями) и др. Эта проблема очень актуальна для Азербайджана, который нуждается в новых подходах к решению проблем таких семей.

Семья является одним из фундаментальных институтов общества и обеспечивает его стабильность. Человек в течение своей жизни объединяется со многими различными группами – группой друзей или сверстников, школьным классом, рабочим коллективом, спортивной командой, од-

нако единственная группа, которую человек никогда не покидает, это семья.

Семья является важным институтом общества. В свою очередь, к этому институту относятся институт брака, институт родства, институт материнства и отцовства, институт частной собственности, институт социальной защиты детей и др. комбинирует. Семья – это малая группа, основанная на брачном и кровном родстве, ее членов объединяет сожительство и совместное ведение хозяйства, эмоциональная привязанность, взаимная ответственность по отношению друг к другу (1, с. 404). Семья также является устойчивой формой взаимоотношений людей, где проходит основная часть их повседневной жизни: половые отношения, роды, начальная социализация детей, домашнее хозяйство, воспитание, медицинское обслуживание, уход за детьми и пожилыми людьми и т.д. (1, с. 14).

Семья занимает особое место в жизни каждого человека. Ребенок рождается в семье, взрослеет, с первых лет жизни усваивает нормы общежития и межличностных отношений, усваивает все характеристики, характерные для его семьи, в том числе хорошие и плохие.

Семья рассматривается как социальное ядро общества, как малый социальный институт. Состояние государства зависит от состояния семьи. В семье существуют духовные связи между родителями и детьми. Уровень нравственной культуры семьи определяет уровень нравственной культуры общества. Экономическое положение семьи зависит от экономического положения государства.

Десятки тысяч людей (пенсионеры, инвалиды, сироты, беженцы и др.) нуждаются в неотложной социальной помощи и защите в условиях становления рыночных отношений в Азербайджане. Факт бедности большинства населения, увеличение числа детей, рожденных вне брака, увеличение числа сирот, расторжение каждого второго-третьего

брака, обострение проблемы детской инвалидности, увеличение преступность и, что особенно опасно, преступления, совершаемые подростками, свидетельствуют о серьезности социальных проблем в стране. Социальное неблагополучие в обществе и семье часто приводит к жестокому обращению с детьми (иногда даже к незаконной продаже их иностранным гражданам), психологическому стрессу, болезням, суициду, проституции и др.

Проблема научного определения профессиональной социальной работы всегда находилась в центре внимания социологов, политиков и специалистов, занимающихся оказанием социальных услуг, с самого начала ее институционализации. Выразим понятие практической социальной работы, обобщив взгляды специалистов из многих стран мира. Социальная работа – это профессиональная деятельность, направленная на гармонизацию личности и общественных отношений посредством изменения или реформирования отдельных элементов социальной системы, а также средство помощи, защиты, исправления и восстановления отдельных лиц, групп людей и сообществ, испытывающих затруднения. в общественной деятельности (2, с.98). В нашей стране социальная работа как наука еще находится в стадии становления. Следует отметить, что наличие профессиональных журналов и организаций, научных отделов и учебников считается характерным признаком научной дисциплины. Каждая наука состоит из теоретических и эмпирических знаний, теорий, методов и методологии (методики). Главной особенностью социальной работы как научной дисциплины является единство знаний и умений. Этот принцип лежит в ее основе (3, с. 101).

Несмотря на недавний официальный статус социальной работы как научной дисциплины в нашей стране, как вид деятельности она существует давно и осуществляется в различных направлениях. Сегодня многочисленные организа-

ции и предприятия осуществляют деятельность, охватывающую тот или иной аспект социальной работы. Основная задача социального работника, который ведет социальную работу с семьей, заключается в устранении кризисных ситуаций. Кроме того, необходимо обратить внимание на своевременную их профилактику и обезвреживание (35, с. 218). Предоставление государством финансовой помощи семьям, предоставление льгот, социальной помощи связано с предупреждением. Помимо педагогических проблем, социальный работник занимается социальными, экономическими, медицинскими и психологическими проблемами семьи.

## ЛИТЕРАТУРА

1. Харчев, А.Г.; Мацковский, М.С. Современная семья и ее проблемы. М.: 1978
2. Теория и методика социальной работы. Под. изд. В. И. Жукова. М., Сооз, 1994. 118 с.
3. Социальная робота с семьей: проблемы и перспективы. Под. ред. А.Вороновой, В.Е.Смирновой. СПб., 2001. 132 с.
4. Sosial işin əsasları /müntəxabat. I və II hissələr. Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 814 s.

## GƏNC AİLƏ ANLAYIŞI, ONLARDA YARANAN PROBLEMLƏRİN BAŞLICA XÜSUSIYYƏTLƏRİ

***Məcidova Lalə Ədalət qızı***
***ADMİU-nun II kurs magistrantı***
***ariesberre@gmail.com***

Ailə əsas dövlət qurumlarından biridir. Bütün cəmiyyətin fiziki və mənəvi sağlamlığı müvafiq olaraq ailənin fiziki, iqtisadi və mənəvi sağlamlığından asılıdır. Cəmiyyətin vəziyyəti bu cəmiyyətdə ailələrin vəziyyətinin bir növ göstəricisidir. Ona görə də ailələr dəyişir, onlardan ibarət cəmiyyət də dəyişir.

Bu xüsusilə gənc ailələr üçün doğrudur, çünki məhz gənc ailələrdə olan gənc həyat yoldaşları özlərinə xas enerji ilə bütün cəmiyyətin və dövlətin həyatına dəyişikliklər gətirirlər. Evlilik institutu ailə həyatının bütün sahəsini, hətta qohumlar və yaxınlar arasındakı münasibətlərin bütün müxtəlifliyini əhatə etmir. Bu, həyat yoldaşlarının münasibətlərini tənzimləyən bir sıra norma və sanksiyaları nəzərdə tutur. Bəzi normalar hüquqi xarakter daşıyır və qanunla tənzimlənir, digərləri mədəni xarakter daşıyır və əxlaqla - adət və ənənələrlə tənzimlənir [1, s. 16].

Problemlər hər bir ailədə yaranır, nəinki gənc ailədə. Birdən çox belə anı yaşamış həyat yoldaşları bu məsələdə daha hazırlıqlıdırlar. Ancaq gənc bir ailə üçün bu, həqiqətən bir sınaqdır.

Toydan bir müddət sonra can yoldaşları arasında inanılmaz sevgi hissi keçir. Daha doğrusu, keçmir, bir az fərqli, daha yetkin bir duyğuya çevrilir. Bu, ehtiraslı sevginin yoxa çıxdığı və dönüş nöqtəsinə çevrildiyi andır. Bəziləri üçün elə bir hiss var ki, sevgi keçdi - keçdi və qayıtmayacaq.

Bəziləri hətta tanış olduqdan dərhal sonra evlənirlər. Tamamilə təbiidir ki, zaman keçdikcə həyat yoldaşları bir-birlərinin xarakterində çoxlu yeni məqamlar öyrənirlər: hər biri özünü real göstərir. Ancaq digər yarısı bu cür "kəşfləri" heç sevməyə bilər. Həyat yoldaşının yenidən təhsil alması adətən yalnız problemi daha da gücləndirir və nikah pisləşir (bəzən boşanmadan uzaq deyil) [3, s. 123].

Həyat yoldaşlarının münasibətlərində əgər aralarında həqiqi hisslər varsa, heç bir problem dəhşətli deyil, və ailə çətinliklərini həll etməyə kömək edəcək xarakter xüsusiyyətləri var ki, bunlar aşağıdakılardır:

- Dinləmək bacarığı,
- Uyğunluq,
- Sakitlik,
- Ehtiyatlılıq,
- Anlayış,

– Güvən, və s.

Gənc cütlüklərin ən dərin yanılgısı, həyat yoldaşını yenidən tərbiyə edəcəklərini düşünmələridir. İyirmi il yaşayan insanı əvvəlki kimi necə yenidən tərbiyə etmək olar?! Bundan əlavə, valideyn ailələrində tərbiyə ənənələri tez-tez fərqlənir ki, bu da evlilikdə çətinliklərə səbəb olur [2, s. 29].

İqtisadi böhran, sosial-siyasi gərginlik, cəmiyyətin maddi-sosial qütbləşməsinin artması səbəbindən ailədə problemlər daha da kəskinləşib. Bu, ailənin reproduktiv funksiyasının rolunun azalması, uşaqlara olan ehtiyacın azalması, induksiya olunmuş abortların sayının artması ilə ifadə olunur. Eyni zamanda uşaq sahibi ola bilməyən nikahlı cütlüklərin sayı da artır. Ailə sosial institut kimi bir tərəfdən özünü tənzimləyən sistem kimi səciyyələnir. Bu, müxtəlif fikir və ziddiyyətlərin toqquşması ilə müşayiət olunan ailə üzvləri arasında ünsiyyət deməkdir. Qarşılıqlı güzəşt və razılaşmalar, daxili mədəniyyət, ailə üzvlərinin mənəvi və sosial yetkinliyi sayəsində müxtəlif nöqteyi-nəzərləri həll etmək olar. Digər tərəfdən, ailə cəmiyyət tərəfindən təsdiqlənmiş bir birlikdir. Onun sabitliyi yalnız dövlət, hüquq, ictimai rəy, din, təhsil, mədəniyyət kimi sosial institutlarla qarşılıqlı əlaqədə olduqda mümkündür. Ailənin yaranması və dəyişməsini tənzimləyirlər. Bu sosial institutlar vasitəsilə ailəni dəstəkləyən normalar yaradılır [4, s. 56].

Gənc ailələrdəki cütlüklər arasında problemlərin aşağıdakı növləri var:

– İqtisadi problemlər,
– Mənzil problemi,
– Məişət problemi,
– Tibbi problemlər
– İstirahət fəaliyyəti problemi,
– Təhsil və məşğulluq problem [2, s. 67].

Əsl sevgi həmişə bir həll tapmağa və evliliyi xilas etməyə kömək edəcəkdir.

## ƏDƏBİYYAT

1. Quliyev H.A. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Keçmiş və müasir dövr. Bakı: Elm, 1989 s.
2. Əhmədov Ə.K. Azərbaycanlıların ailəsi və ailə məişəti. Bakı,1994.
3. Azərbaycan Respublikasında psixi sağlamlıq sistemi haqqında Ümumdünya Səhiyyə Təşkilatının və AR Səhiyyə Nazirliyinin hesabatı. Bakı, 2007.
4. Dəmirçiyeva M.D. Ailə hüquqlarının məhkəmə müdafiəsi. Bakı: Şərq-Qərb, 2012.


# MƏİŞƏT ZORAKILIĞINA MƏRUZ QALMIŞ UŞAQLARIN REİNTEQRASİYASI


***Gülcənnət Kərimova***
***BDU-nun II kurs magistrantı***
***gulukerimova82@gmail.com***


Sığınacaqlarda olan uşaqların ailələrə reinteqrasiyası mürəkkəb prosesdir. Reinteqrasiya prosesinin bir hissəsi kimi, icraedici agentliklər ailə dinamikasını dəyişdirmək və maddi şəraiti yaxşılaşdırmaq üçün ailələr və icmalarla işləyirlər ki, ailələr uşaqlarının həm fiziki, həm də emosional ehtiyaclarını təmin edə bilsinlər. Reinteqrasiya bütöv, çoxmərhələli fəaliyyətdir və uğurlu reinteqrasiya bir neçə amilin birlikdə işləməsinə əsaslandığı üçün tək bir xidmət sahəsi ilə yola çıxmaq həmişə müsbət nəticələr vermir. Usaqların reinteqrasiyası 3 mərhələdən keçir: 1) ailə ilə birləşmədən əvvəlki mərhələ: uşaqların nə üçün qayğı mərkəzlərində olması və reinteqrasiya prosesinə hazırlıq və gözləntilər; 2) ailə ilə birləşmə: uşaqların evə qayıtdıqdan sonrakı bir ay ərzində prosesin necə getdiyini izləmək. 3) reinteqrasiya:

uşaqların evə qayıtmasından altı-doqquz ay və 16-22 ay sonra onların yaşayış standartlarının və həyatlarında baş verən dəyişikliklərin qiymətləndirilməsi

Sosial sığınacaqlar problemi həll etmək üçün hərtərəfli proqram həyata keçirir. Uşaq sosial proqramına daxil olan kimi sosial işçilər uşağın ailəsi ilə əlaqə saxlamağa başlayırlar. Əgər ailədə əvvəllər də məişət zorakılığı halları aşkarlanıbsa, sığınacaq uşağı dərhal ailəsinə inteqrasiya etməyəcək, əksinə, uşaq internatda yaşayarkən onun ailəsi ilə münasibətlər bərpa ediləcək. Sosial işçilər bir neçə il davam edə biləcək bir müddət ərzində ailəyə tez-tez baş çəkirlər. Bu müddət ərzində ailələr gəlir əldə etmək, məşğulluğu artırmaq üçün təlim və məşq, dəstək proqramlarına qoşulmaq hüququna malikdirlər. Alkoqoldan sui-istifadə problemi məişət zorakılığı ilə sıx bağlıdır və buna cavab olaraq, sosial xidmət işçiləri alkoqol asılılığı olanlara psixoterapevtik qruplara qoşulmağı da məsləhət görürlər.

Ailə artıq zorakılıq mərhələsini geridə qoyarsa və ailə qiymətləndirməsindən keçərsə, uşaq yenidən inteqrasiya olunur. Buna hazırlıq olaraq, sosial işçilər ailə üzvlərinə və bütövlükdə cəmiyyətə məişət zorakılığının bilavasitə qurbanı olmaq və ya şahidi olmağın mənfi təsirləri haqqında təlimlər keçirir. Sığınacaq işçiləri həmçinin yerli hakimiyyət orqanlarına məişət zorakılığı qanununun əsasnamələrini öyrətmək üçün təlimlər təklif edir. Uşaq reinteqrasiya edildikdə yerli polisə məlumat verilir. Sığınacaq işçiləri polis qüvvələrinə izah edir ki, uşağın ailəsi polis tərəfindən nəzarətdə saxlanılmalıdır və onlar polisdən məişət zorakılığı haqqında qanuna əməl edilməsini və məişət zorakılığı halları barədə məlumat verməsini tələb edirlər. Bu hallar baş verdikdə mühafizə orqanları üzərinə düşən işi həyata keçirməlidirlər.

Nəhayət, uşağa və yerli hakimiyyət orqanlarına sui-istifadə hallarını bildirmək üçün Qaynar Xətt barədə məlumat verilir

və uşağın telefona çıxışı təmin edilir ki, o kömək üçün zəng edə bilsin. Reinteqrasiyadan sonra sığınacaq işçiləri həftəlik ziyarətləri davam etdirirlər, lakin ziyarətlər əvvəlki kimi tez-tez baş vermir, aylar keçdikcə tədricən azalır. Sonrakı mərhələdə, əgər ailə reinteqrasiya meyarlarına tamamilə uyğundursa, ailə ilə bağlı 3 aylıq nəzarət müddəti başlayır. Reinteqrasiya bəzən illərlə davam edir. Aşağıda qeyd edilən ehtiyaclar ödənilibsə, demək uşaq ailəyə tam reinteqrasiya olunmuşdur: kifayət qədər qida qəbul edə bilməsi; məktəbdə davamiyyət və ya təhlükəsiz iş mühiti; müvafiq sığınacaq və stabil həyat şəraiti; zərərdən müdafiə; icmaya, ailəyə tam daxil olma; ailə üzvləri ilə güclü, müsbət münasibətlər saxlamaq.

## ƏDƏBİYYAT


1. Anthony, E. K.,M., Samples, M.D., de Kervor, D. N., Ituarte, S., Lee, C., Austin, M. J. (2010) Coming back home: The reintegration of formerly incarcerated youth with service implications.
2. Jordanwood, M., and Monyka, M., 2014. Achieving positive reintegration: assessing the impact of family reintegration.
3. Smith, H., 2014. Children’s reintegration: A longitudinal study of children’s reintegration in Moldova. Moldova: Family for Every child.

# AZƏRBAYCANDA SOSİAL SAHİBKARLIQ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

***Muradov Rəşad Rauf oğlu***
***BDU-nun qiyabi doktorantı***
***reshadmuradov2@gmail.com***

Sosial sahibkarlıq sosial fəaliyyətlə bağlı olan sahibkarlıq növü olub bir çox hallarda qeyri-kommersiya təşkilatları çəçivəsində həyata keçirilir. Müəssisənin sosial adlandırılması üçün o, aşağıdakı meyarlara cavab verməlidir: əhalinin müdafiəyə ehtiyacı olan hissəsi üçün iş yerləri yaratmaq, onlar tərəfindən müəssisədə yaradılan əmtəəni realizə etmək və əldə olunan imkanları təşkilatın inkişafına yönəltmək; digər sosial cəhətdən faydalı məqsədlər üçün nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmək və əldə olunan qazancın tam yarısını təşkilatın sosial yönümlü fəaliyyətinin davam etdirilməsinə istiqamətləndirmək və s.

Sosial sahibkarlığı adətən kəskin sosial problemlərlə qarşılaşmış şəxslər həyata keçirir və onlar həmin problemlərin effektiv yollarını daha yaxşı təsəvvür edirlər (3, s. 1487-1489).

Hazırda Azərbaycanda sosial sahibkarlıq inkişaf etməkdə olsa da o, kənar steykholderlərdən birbaşa asılıdır ki, bura dövləti, iri biznesi və müxtəlif fondları aid etmək olar.

Qeyd edək ki, sosial müəssisə ilə bağlı məsələlər Azərbaycan Respublikasının bir sıra qanunlarında öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının «Məşğulluq haqqında» qanununun 1.1.20-ci maddəsində sosial müəssisə anlayışının izahı verilir. O, hüququi şəxs kimim səciyyələndirilərək sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün nəzərdə tutulmuş müəssisə kimi göstərilir. "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin standartları"nın təsdiq edilməsi haqqında Azərbaycan

Respublikası Nazirlər Kabinetinin Qərarı isə sosial müəssisələrin standartlarını müəyyənləşdirir. Burada qeyd edilir: sosial müəssisənin "işçilərin orta illik sayının azı 80 faizini Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli məşğulluq qurumları və ya "DOST" mərkəzlərinin göndərişi ilə işə qəbul olunmuş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər; əlilliyi olan şəxslər, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər təşkil edirlər" (1).

Hazırda sosial sahibkarlığın stimullaşdırılması üçün bir sıra güzəştlər, o cümlədən vergi güzəştləri mövcuddur. Belə ki, AR-nın Vergi Məcəlləsinin 102-ci maddəsində gəlir vergisindən güzəştlər nəzərdə tutur. Belə ki, sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir – 3 il müddətinə gəlir vergisindən azaddır. Həmin məcəllənin 106.2-ci maddəsində əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılması, eləcə də ƏDV, sadələşdirilmiş vergi və s. kimi vergilərdə də müəyyən güzəştlər nəzərdə tutulur. Lakin onu da qeyd edək ki, bu güzəştlər bilavasitə sosial sahibkarlar üçün müəyyən edilmiş güzəştlər deyil (1).

Daha bir problem isə Azərbaycanda sosial sahibkarlığa xüsusi dəstək mexanizmlərinin müəyyənləşdirilməməsi, bu istiqamətdə fəaliyyət göstərən xüsusi institusional vahidlərin mövcud olmamasıdır.

Azərbaycanda sosial sahibkarların faydalana biləcəyi müəyyən mexanizmlər olsa da, sosial sahibkarlığın böyük

ölçüdə inkişafını təmin edə biləcək hüquqi və institusional mexanizmlər hələ yaradılmayıb. Bu nöqteyi-nəzərdən ilk növbədə hüquqi müəyyənliyin təmin edilməsi, zəruri qanunvericilik bazasının formalaşdırılması vacib məsələlərdəndir (3, s. 1491).

Azərbaycanda sosial sahibkarlıqla bağlı ən ciddi problemlərdən biri də onunla bağlı əhalinin kifayət qədər məlumatlılığının olmamasıdır. Bəzi hallarda fəaliyyəti sosial sahibkarlıq xarakteri daşıyan şəxslər belə, həyata keçirdiyi fəaliyyətin əslində sosial sahibkarlıq fəaliyyəti olduğunu bilmirlər.

Sosial sahibkarlıq sektoru hələ zəif inkişaf etdiyindən onların assosiasiyalaşması prosesi də hələ başlamayıb. Halbuki sosial sahibkarların assosiasiyalarda birləşməsi onların imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər (4).

Bütün mövcud problemlərə baxmayaraq, Azərbaycanda mahiyyət etibarı ilə sosial sahibkarlıq xarakteri daşıyan təşəbbüslər var və onlar artmaqdadır. Zəruri hüquqi və institusional islahatlar nəticəsində onların sayı daha da çoxalacaq və bu müəssisələr ölkəmizin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verəcək.

Beləliklə, zənnimizcə, Azərbaycanda sosial sahibkarlığın inkişafı ilə bağlı zəruri hüquqi və institusional islahatlar aparılmasını məqsədəuyğun hesab edirik ki, bununla da bağlı aşağıdakı təklifləri vermək olar: bu sahə ilə bağlı normativ-hüquqi bazanın formalaşdırılması və bu istiqamətdə ilk addım kimi "Sosial sahibkarlıq haqqında" qanunun qəbul edilməsi. Belə bir qanunun qəbulu ilə yanaşı digər qanunvericilik aktlarının onun tələblərinə uyğunlaşdırılması təmin edilməlidir. Daha sonra, sosial sahibkarlar üçün güzəştlərin, o cümlədən vergi güzəştlərinin müəyyənləşdirilməsi vacib məsələlərdəndir. Güzəştlər, o cümlədən vergi güzəştləri sosial sahibkarlığı stimullaşdıra biləcək vasitələrdən biridir (5). Sosial sahibkarlığın dəstəklənməsi üçün xüsusi institutların

yaradılması da çox mühümdür. Belə institutlardan biri kimi, Sosial Sahibkarlığın inkişafına Dəstək Fondu yaradıla bilər.

Nəhayət, sosial sahibkarlıqla dövlət və özəl sektor əməkdaşlığının gücləndirilməsi də vacib məsələlər sırasındadır. Spesifik vasitələrlə yanaşı, güclü koordinasiya və institusional tədbirlərin görülməsi də çox zaman zəruri olur və nəhayət, sosial sahibkarların bacarıqlarının artırılması üzrə xüsusi proqramların həyata keçirilməsi.

Beləliklə, sosial sahibkarlıq respublikamızda nisbətən yeni bir fenomen olsa da, onun inkişafı sosial problemlərin həllində vacib bir hal kimi yüksək qiymətləndirilməli, onun inkişafı üçün zəruri hüquqi baza yardılmalıdır.

## ƏDƏBİYYAT


1. Bayramov Abil. Azərbaycanda sosial sahibkarliq: mövcud vəziyyət və inkişaf üçün islahatlarin əsas istiqamətləri. Bakı – 2020.
2. Институциональные основы развития социального предпринимательства: зарубежный опыт: Монография / Под ред. Л.В. Дуканич. – Москва : МАКС Пресс, 2020.
3. Яхнеева И.В., Павлова А.В. Социальное предпринимательство в России: состояние, факторы влияния, перспективы. Экономика, предпринимательство и право Том 11,Номер 6, Июнь 2021
4. https://reg-nko.ru/article/socialnoe_predprinimatelstvo
5. https://mbnso.ru/articles/sotsialnyy-biznes/chto-takoe-sotsialnyy-biznes-i-kak-stat-sotsialnym-predprinimatelem/

# EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRƏ GÖSTƏRİLƏN SOSİAL XİDMƏTİN NÖVLƏRİ

***Salmanova Səlmi Elşən qızı***
***BDU-nun II kurs magistrantı***
***salmisalmanova16@mail.ru***

Müasir dövrdə evsiz və baxımsız uşaq və yeniyetmələr problemi istər beynəlxalq, istərsə də milli səviyyədə diqqəti cəlb edən əsas problemlərdən biridir. Sosial cəhətdən az müdafiə olunan vətəndaşlar kateqoriyasına daxil olan evsiz və baxımsız uşaq və yeniyetmələrin layiqli həyat səviyyəsinin təmin edilməsi, onların yaşayış şəraitlərinin yaxşılaşdırılması və onların sosial problemlərinin aradan qaldırılması bu istiqamətdə göstərilən sosial xidmətlərin başlıca məqsədləridir.

Bildiyimiz kimi evsiz və baxımsız uşaq və yeniyetmələrə dövlət və QHT-lər tərəfindən yaradılan sosial xidmət müəssisələrində, sığınacaqlarda və bəzi hallarda küçələrdə xidmətlər göstərilir. Bu xidmətlərin göstərilməsində sosial işçilər başda olmaqla həkimlər, psixoloqlar və digər mütəxəssislər başlıca rol oynayırlar. Küçə həyatına məruz qalmış uşaq və yeniyetmələrə göstərilən sosial xidmətlərin bir neçə növü vardır. Buraya daxildir:

Tibbi-sosial xidmətlər – Bu xidmətlər evsiz və baxımsız uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir. Zərurət olduqda küçə həyatına məruz qalmış uşaqlara tibbi yardım göstərilir. Onlar həyat və sağlamlıqları üçün zərərli şəraitdə yaşadıqlarından bir çox hallarda tibbi qayğıya ehtiyac duyurlar. Günün çox hissəsini küçədə keçirdiklərindən, xüsusilə, qış aylarında onların tibbi xidmətlərə ehtiyacları olur.

Sosial-psixoloji xidmətlər – Bu xidmətlər uşaq və yeniyetmələrin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji yardımı nəzərdə tutur. Küçə həyatına məruz qalmış uşaqlar

əksər hallarda istismar olunduqları, cinsi, fiziki zorakılığın qurbanı olduqlarından psixoloji yardıma ehtiyac duyurlar.

Sosial-pedaqoji xidmətlər – Bu xidmətlər evsiz və baxımsız uşaqların davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının səmərəli təşkilinə yönəlmiş xidmətlərdir. Evsiz və baxımsız uşaqların əksəriyyəti təhsildən yayınmış olurlar və bu xidmətlər onların təhsilə cəlb edilməsi məqsədi daşıyır. Hər bir uşaq kimi küçə həyatına məruz qalmış uşaq və yeniyetmələrin də təhsil hüququ vardır.

Sosial-hüquqi xidmətlər – Bu xidmətlər evsiz və baxımsız uşaqların və yeniyetmələrə hüquqi yardım göstərilməsi və onların hüquqlarının qorunmasına yönəlmişdir. Bildiyimiz kimi BMT tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyasında və bu Konvensiya əsasında tərtib olunan "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununda qeyd olunur ki, bütün üşaqların tərbiyə, azadlıq və şəxsi toxunulmazlıq, həyat və sağlamlığının mühafizəsi, zəruri maddi təminat, istismarın bütün növlərindən mühafizə vəs . kimi bir çox hüquqları vardır. Lakin əksər evsiz və baxımsız uşaqların və yeniyetmələrin bu hüquqları pozulur. Sosial-hüquqi xidmətlərin məqsədi isə bu hüquqların bərpa və təmin olunmasıdır.

Sosial-iqtisadi xidmətlər – Bu xidmətlər evsiz və baxımsız uşaq və gənclərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir. Sosial iqtisadi xidmətlərin əsas məqsədi evsiz və baxımsız şəraitdə yaşayan uşaq və yeniyetmələrin maddi vəziyyətinin yaxşılaşdırılması və onların bəzi hallarda yaşayışını təmin etmək üçün işlərlə təmin olunmasıdır. Bu məqsədlə küçə həyatına məruz qalan uşaq, yeniyetmə və gənclərlə hərtərəfli iş aparılır.

**ƏDƏBİYYAT**

1.https://e-qanun.az/framework/23195
2.https://www.geostrategiya.az/news.php?id=115

# AZƏRBAYCANIN QƏRBİNİ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ BİRLƏŞDİRƏCƏK YOL TÜRKİYƏ-AZƏRBAYCAN İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVİ KİMİ

***Güllər Bağırova,***
***BDU-nun doktorantı***
***gullerbaghirova94@gmail.com***

Naxçıvan Muxtar Respublikası Azərbaycan ilə Türkiyə arasında yeganə quru əlaqəsini təşkil edir, Türkiyə ilə ikitərəfli münasibətlər baxımından xüsusi yer tutur. Ermənistan, İran və Türkiyə arasında qalan və fiziki cəhətdən ölkəmizdən fiziki olaraq ayrı olan və tarixdə "Türk qapısı" olaraq təsvir edilən Naxçıvan Türkiyə ilə birbaşa limanımızdır. Naxçıvan dəhlizi tarixi Azərbaycan torpaqlarının cənub-şərqini əhatə edir, Türkiyənin qərbində qalmaq şərti ilə cənubda İran sərhədlərini izləyərək bölgəni Xəzərə və Xəzərin şərqindəki ölkələrə bağlayır. Eyni zamanda, bu torpaqlar tarixin müxtəlif dövrlərində türk dövlətlərinin hakimiyyətində olduğu üçün bölgədə qurulan böyük Türk sülalələrinin ortaq mirasına sahibdir. Tarixdə qədim insan məskənlərindən biri olan bu möhtəşəm diyarın bütün türk dünyası üçün nə qədər mühüm əhəmiyyətə malik olduğunu Mustafa Kamal Atatürk “Naxçıvan Türk qapısıdır” sözləri ilə vurğulamışdır. Naxçıvan, eyni zamanda, Zəngəzur sərhəd xətti ilə şərqə və Xəzərin cənubundan geniş bir xəttlə Orta Asiya türk respublikalarının ortaq keçid yolu olan Türküstan coğrafiyasını təşkil edir. Bununla yanaşı, Türkiyə və Azərbaycanın mərkəzi, Xəzərsahili, yəni Bakıyla davamlı bir yaşayış sahəsi yaradır. Bu yaşayış sahələri tarixi yolların güzərgahını da açıq şəkildə təsvir edir. Avropa, Balkanlar, Anadolu hövzəsi ilə Türküstan və Çin arasında şərqə doğru olan karvanlar və yüklər bu yollardan şərq-qərb istiqamətində hərəkət edirdi. Yenə bu möhtəşəm yolun

həmçinin, Xəzərin cənubundan, İraq və Suriya torpaqlarını İran üzərindən keçərək həm Ərəbistana, həm də Aralıq dənizi hövzəsinə başqa bir xətti də var. Bununla yanaşı, tarixi Naxçıvan dəhlizinin ən vacib strateji dəyəri, türk respublikalarını və beləliklə Türk dünyasını vahid bir körpü olaraq birləşdirməsidir.

Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə qonşuluq mövqeyində yerləşməsi və iqtisadi əməkdaşlığın səmərəli həyata keçirilməsi, bu dövlətlər arasında bir çox sahədə qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır. Qardaş ölkə Türkiyə ilə cəmi 13 km uzunluğunda sərhəd olmasına baxmayaraq, hələ qədim zamanlardan hər iki dövlət tarixi köklərlə bir-birinə bağlıdır. Bu iki qədim tarixi ənənəyə malik olan ölkələrin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra mühüm faktorlar mövcuddur. Bunlar aşağıdakılardır:

- Əvvəla Türkiyə-Naxçıvan-Bakı arasında birbaşa iqtisadi əlaqələrin inkişafı üçün əlverişli nəqliyyat kommunikasiya sisteminə malik olmasıdır. Ümumiyyətlə onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın qardaş Türkiyə ilə quru sərhəddi yalnız Naxçıvan Muxtar Respublikası vasitəsilədir.
- İkinci amil olaraq isə qeyd etmək lazımdır ki, bu iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərən təbii resursların bolluğu mühüm sevindirici haldır. Bu amil, xüsusilə, əlverişli təbii iqlim şəraitinin mövcudluğu ilin bütün fəsillərində əsas istehsal sahələrinin ritmik fəaliyyətinin davamlılığına imkan verir.
- Üçüncü amil isə qardaş ölkə olan Türkiyə Cümhuriyyəti müasir şəraitdə iqtisadi tərəfdaşlığın inkişafında mühüm rol oynayan çoxsahəli istehsal strukturuna malikdir. Sənayenin bir çox sektorlarının; metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənaye sahələrinin inkişafı, daxili tələbatı ödəməklə yanaşı, xarici iqtisadi əlaqələrin geniş formada inkişafına da təsir göstərməkdədir. Bu səbəblə də, digər ölkələrlə olduğu kimi

Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikası ilə iqtisadi əlaqələri daha aktivdir (1).

Ölkəmizin Türkiyə Respublikası ilə iqtisadi əlaqələri qədim tarixi köklərə dayansa da, bu münasibətlərin genişlənməsi məhz müstəqilliyimizin bərpa olunmasından sonrakı dövrə təsadüf edir. Türkiyə ilə iqtisadi münasibətlər müxtəlif sahələri əhatə edir. Bu gün Türkiyə Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşıdır. Ölkələr üzrə xarici ticarət dövriyyəsində Türkiyənin payı 2016-cı ildə 2 367 241,2; 2017-ci ildə 2 667 578,7; 2018-ci ildə 3 402 809,7; və 2019-cu ildə 4 509 496,1 min ABŞ dolları təşkil etmişdir ki, buradan da hər il bütün sahələrdə olduğu kimi ticari əlaqələrin də artan yöndə davam etdiyini görürük (2). İnvestisiya əməkdaşlığında isə 2020-ci ilin ilk yarısında Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiya qoyuluşuna görə, Türkiyə 259 milyon dollar investisiya məbləği və 12,3% xüsusi çəki ilə Birləşmiş Krallıqdan sonra 2-ci yerdə qərarlaşıb (3). Eyni dövrdə Türkiyə, Azərbaycan tərəfindən xarici iqtisadiyyata yönəldilən BXİ həcmində 39,2 milyon dollar investisiya məbləği və 6% xüsusi çəki ilə 8-ci yeri tutub (4). Azərbaycanın Türkiyəyə yönəltdiyi ən böyük birbaşa xarici investisiya “SOCAR Türkiyə”nin icra etdiyi layihələrlə bağlıdır (5). “Socar Türkiyə” ilk olaraq 2008-ci ildə “PETKİM”in hissələrinin satın alınması ilə Türkiyənin energetika bazarına daxil olub. Bu investisiya ilə hazırda tərəfdaş ölkənin neft-kimya xammalı ehtiyacının 18%-i qarşılanır. “SOCAR Türkiyə” həmçinin Türkiyənin və regionun enerji təhlükəsizliyinin təminatında mühüm əhəmiyyəti olan bir çox işlərə imza atıb. Bu investisiyalar, əsasən, neft-kimya emalı və təbii qaz sektorlarını əhatə edir. Belə layihələrə, 6,3 milyard dollar investisiya məbləği ilə qurulan, 2019-cu ildə İzmirin Aliağa limanında fəaliyyətə başlayan və hazırda Türkiyənin ilkin emal olunan neft ehtiyacının 25%-ini qarşılayan STAR neftayırma zavodu misal göstərilə bilər (6).

Ölkələrimiz arasında qardaşlıq və qarşılıqlı etimad əsasında formalaşan siyasi, iqtisadi, ticari, mədəni və həmçinin, hərbi əməkdaşlıq iki ölkənin birlikdə əldə etdiyi uğurları asanlaşdırır. Türkiyə və Azərbaycanın imkan və bacarıqlarını regional təhlükəsizlik, sülh və sabitliyə töhfə vermək üçün birləşirdirməkdədir. Bu məqsədlə ölkələrimiz Birləşmiş Millətlər başda olmaqla beynəlxalq və regional təşkilatlarla sıx əməkdaşlıq şəraitində işləyirlər. Bu əməkdaşlığın ən yaxşı nümunəsi hazırlanan ortaq layihələrdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə başlayan və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri ilə davam edən "sülh və firavanlıq" dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu ilə yeni bir səviyyəyə çatmış oldu. Azərbaycan qazını Qərbi Avropaya nəql edəcək "Əsrin Müqaviləsi "adlı Cənub Qaz Dəhlizi layihəsi də yenə Azərbaycan və Türkiyənin imzasını daşımaqdadır.

Bundan əlavə, 45 milyard dollarlıq Cənub Qaz Dəhlizi layihəsi xüsusilə Azərbaycan və Türkiyə dövlətlərinin ortaq səyləri və maliyyə mənbələri ilə reallaşdırılmış, Trans Anadolu Təbii qaz Boru Xətti (TANAP) və Transadriyatik Boru Kəməri (TAP) layihələri kimi əvəz edilmişdir (7). Dövlət başçıları tərəfindən müzakirə edilmiş və güclü səy ilə başladılmış bu layihələr Türkiyə və Azərbaycan üçün ortaq güc olma hədəfinə əhəmiyyətli töhvələr verməklə yanaş dost və qardaş Türkiyəni enerji qaynaqlarının daşınmasında mərkəz ölkə mövqeyinə gətirmişdir. Hələ müstəqilliyin ilk illərində Türkiyədən Azərbaycana edilən yatırımlar xüsusi bir əhəmiyyətə malik olmuşdur. Başda Azərbaycan Dövlət Neft Şirkəti olmaqla, Azərbaycandan Türkiyəyə edilən yatırımların həcminin qarşıdakı illərdə 20 milyard dollara çatması gözlənilməkdədir. Bu məbləğ Azərbaycanın ölkə xaricinə etmiş olduğu ən böyük həcmli yatırım olması ilə bərabər, xaricdən Türkiyəyə edilən xarici investisiyalar arasında ilk sıralarda yer almaqdadır. Qarşılıqlı inam və həmrəylik əsasında formalaşan və tarixi köklərə dayanan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq

platformalarda da eyni formada davam etdirilir. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dili Danışan Ölkələr Əməkdaşlıq Şurası və İslam Əməkdaşlıq Təşkilatında qarşılıqlı milli maraqların müdafiə olunması istiqamətində uğurla əməkdaşlıq nümayiş etdirmişlər. Özəlliklə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində Türkiyə Respublikasının beynəlxalq arenada sərgilədiyi qərarlı mövqe və Azərbaycanın ərazi bütövlüyünün yenidən təmin edilməsinə istiqamətli icra etdiyi dəstək siyasəti gerçək həmrəylik nümunəsi təşkil etmişdir ki, bu gün Qarabağ zəfərinin qazanılmasında da bu həmrəyliyin, dostluğun əhəmiyyətli rolunu qeyd etməliyik.

Bu layihələrlə yanaşı Türkiyə və Azərbaycan beynəlxalq sülh səylərini də fəal şəkildə dəstəkləyir. Bundan əlavə, multikulturalizm və tolerantlığa əsaslanan sosial toxumamız hər cür ekstremizmə qarşı mübarizədə bütün dünyaya nümunə oldu. Bu ortaq anlayış getdikcə artan ksenofobiya, irqçilik və ayrıseçkilik hərəkətlərinə qarşı əhəmiyyət qazanır. 2016-cı il Azərbaycan. Bu çərçivədə "Multikulturalizm İli" elan etdi, Azərbaycanın Sivilizasiyalar İttifaqını 7-ci Qlobal Forumuna, Türkiyənin isə ilk dəfə Dünya Humanitar Zirvəsinə 2016-cı ildə ev sahibliyi etməsi vacib məqamlardan biridir. Türkiyə ilə Azərbaycan arasında "sülh və firavanlığa ortaq olmaq" yanaşması, qarşılıqlı fayda və xüsusilə bölgəmizin təhlükəsizliyi və sabitliyinə əsaslanan genişlənən halqa şəkilli iş birliyinin yayılması olaraq xülasə edilə bilər.

Bu gün Naxçıvana quru dəhlizinin açılması mühüm tarixi nailiyyətdir. Naxçıvana quru dəhlizinin açılması hadisəsi Azərbaycan iqtisadiyyatının vahid milli təsərrüfat sistemi kimi fəaliyyət göstərməsi istiqamətində olduqca mühüm zəruri addımdır. Dövlətimizin iqtisadi potensialı heç şübhəsiz, coğrafi imkanlarından daha böyükdür. Bu potensialın reallaşdırılması

üçün həm işğaldan azad olunmuş torpaqların, həm də Naxçıvan Muxtar Respublikası ərazisinin tam şəkildə Azərbaycan iqtisadiyyatı ilə təsərrüfat inteqrasiyası tam təmin olunmalıdır. Məhz bu baxımdan logistik əlaqələrin Naxçıvanla quru yolu vasitəsilə formalaşması olduqca mühüm amildir. Bu razılaşmanın ən mühüm bəndlərindən biri də ondan ibarətdir ki, Naxçıvanla Azərbaycanın qalan hissəsinin quru əlaqəsi bərpa olunmuş olacaqdır. Bu yalnız Azərbaycan Republikası üçün deyil, eləcə də bütövlükdə region dövlətləri üçün olduqca önəmlidir. Həmçinin, ölkəmizin qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında əvvəllər nəzərdə tutulmayan nəqliyyat əlaqəsi yaradılmış olacaqdır ki, bu da Azərbaycanın öz ayrılmaz tərkib hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşməsi deməkdir (8). Bu hadisə iki qardaş ölkə arasında günbəgün inkişaf edən iqtisadi, mədəni əlaqələrin daha da təkmilləşməsinə gətirib çıxaracaqdır.

Həmçinin, Türkiyə bu yolla İran və ya Gürcüstan ərazisindən keçmədən Azərbaycana giriş, Xəzər bölgəsində Türkiyə-Azərbaycan əməkdaşlığının əhəmiyyətli ticarət potensialını yaradacaqdır. Naxçıvan dəhlizi vasitəsilə eyni zamanda Gürcüstan və Azərbaycan arasında əlaqələr daha da effektiv formada inkişaf edəcək, əsas regional güclər olan Türkiyə, İran və Rusiya arasında regional əlaqələri inkişaf etdirmək üçün ticari və sosial-mədəni əlaqələrdə əsas hərəkətverici qüvvə kimi fəaliyyət göstərəcəkdir. Naxçıvan dəhlizinin açılması eyni zamanda, Azərbaycan üzərindən Rusiya ilə İran əlaqələrinin açılması deməkdir və bu da, bütövlükdə bölgənin iqtisadi rifahına, real iqtisadi sektorun istehsal proseslərinin intensiv şəkildə inkişaf etdirilməsinə xidmət edən mühüm əlamətdar hadisədir. Ümumilikdə, bölgədəki yeraltı və yerüstü qaynaqların bölgə iqtisadiyyatına qatqısı təmin olunacaq, yeni logistik investisiyalara yol açacaqdır. Qardaş ölkənin Naxçıvan vasitəsilə Orta Asiyaya çıxışı isə qeyri-şərtsiz Muxtar Respublikanın iqtisadi inkişafına öz tövhəsini vermis olacaqdır.

Türkiyə və Orta Asiya iqtisadi əlaqələrinin ən əlverişli marşrutu üzərində yerləşməsi Naxçıvanı bu axına daxil edəcək və inkişafına təkan verəcəkdir.

Azərbaycan iqtisadiyyatının dayanıqlılığı nöqteyi-nəzərindən Naxçıvanla dəhlizin açılması uzun müddətli perspektivdə milli iqtisadiyyatımızda investisiyaların xüsusi çəkisinin atımına səbəb olmalıdır. Şübhəsiz ki, investisiyaların artımı isə bütövlükdə dayanıqlı iqtisadi artımın Azərbaycanda artan xətt üzrə inkişaf etməsinə şərait yaratmalıdır. Hesab edirəm ki, perspektivli regional iqtisadi inteqrasiya layihələri mövcuddur. Yaxın gələcəkdə biz iqtisadi əməkdaşlıqla bağlı bölgədə yerləşən dövlətlərin hazırladığı və tətbiq etdiyi kifayət qədər effektiv inteqrasiya razılaşmalarının şahidi ola bilərik. Bu razılaşmalar faktiki olaraq bölgəmizin məhz daxili imkanlar hesabına iqtisadi inkişaf strategiyasının və siyasətinin reallaşdırılmasına şərait yaratmalıdır.

Beləliklə, qeyd etməliyik ki, Naxçıvan dəhlizi vasitəsilə Türkiyə və Orta Asiya xətti qurulacaq, Qars-Tbilisi-Bakı marşrutuna güclü dəstək xətti yaratmaqla tarixi İpək Yolunun dirçəlişinə əhəmiyyətli töhfə verəcəkdir. Naxçıvan dəhlizinin iqtisadiyyat və turizm sahələrində əlaqələr baxımından yeni bir dövrün qapısı olacaqdır. Ölkəmizin və qardaş Türkiyənin Türk dövlətləri ilə qurmuş olduğu bütün təşəbbüslər bu tarixdən sonra yeni bir məna qazanacaq və bu vəziyyət iqtisadi və siyasi üstünlüklərindən əlavə həmsərhəd olduğumuz bu geniş coğrafiya ilə ticarət əməkdaşlığımızda böyük bir canlanmaya səbəb olacaqdır. Bu dəhlizdə avtomobil nəqliyyatına əlavə olaraq daha əlverişli olan dəmir yolu bağlantısı sayəsində maddi-texniki şərtlərimiz daha da yaxşılaşacaqdır. Bu dəhlizin bölgənin ixracatı və nəqli prosesi üçün böyük faydası olacaqdır.

## ƏDƏBİYYAT

1. “Naxçivan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə” beynəlxalq elmi konfransının materialları, s. 125
2. https://www.stat.gov.az
3. https://www.cbar.az/page-43/external-sector-statistics
4. https://www.cbar.az/page-43/external-sector-statistics
5. http://www.iqtisadiislahat.org/store//media/2020/Dekabr/10.12.2020_Turkiye_Azerbaycan_iqtisadi_elaqeler.pdf
6. http://www.socar.com.tr/docs/default-source/investor-relations/socar-t%C3%BCrkiye-%C5%9Firket-profili2019.pdf?sfvrsn=ddba9060_12
7. Yusif Hüseynov, Azərbaycan –Türkiyə qarşılıqlı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrində Naxçıvan
8. https://vergiler.az/news/economy/11039.html

# EMOSİONAL İNTELLEKTİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Nəzrin Mirdamət qızı Əsədova***
*DTX-nın Heydər Əliyev adına Akademiyası, müəllimə*
*BDU-nun Psixologiya kafedrasının dissertantı*
*E-mail:asadova.nazrin94@gmail.com*

Sürətlə inkişaf edən dövrümüzdə insanı narahat edən psixoloji problemləri müəyyən etmək, onların həllini tapmaq vacib məsələlərdən biridir. Çünki bu, insanın emosional rifahını təmin etməklə yanaşı, həm də mümkün psixosomatik xəstəliklərin qarşısını alır. Məlum olduğu kimi şəxsiyyətin formalaşmasına bir sıra amillər təsir göstərir ki, bunların arasında emosional intellektin də böyük rolu vardır. 1995-ci ildə D.Qoulmen "Emosional intellekt" kitabını nəşr etdirərək, öz əsərində insan emosiyalarını düzgün əks etdirə bilməyin vacibliyini vurğulamışdır. O, öz kitabında qeyd edirdi ki, emosional intellekt dedikdə həm də emosional məlumatları emal etmək və ondan düzgün istifadə etmək bacarığı nəzərdə tutulur. [3, s. 21].

Məlumdur ki, emosional intellekt anlayışı XX əsrin əvvəllərindən etibarən psixologiyanın ən aktual məsələlərindən birinə çevrilmişdir. İllər keçdikcə tədqiqatçılar emosional intellekt, onun strukturu və komponentlərini öyrənməyə başladılar. Bu tədqiqatların başlıca məqsədi hər bir şəxsiyyətin inkişafında əldə etdiyi uğurları, istəkləri və verdiyi qərarlar insanın öz emosiyalarını nə dərəcədə idarə edə bilməsi ilə bağlı idi.

Emosional intellektin inkişafına təsir edən amillər müxtəlif tədqiqatçılar tərəfindən tədqiq edilmiş və bu barədə müxtəlif fikirlər irəli sürülmüşdür. Belə alimlərə O.İ.Vlasova, C.Meyer, D.Qoulmen, T.P.Berezovskaya, A.V.Libin, V.M.Rusalov, S.İ.Lusin, A.Ellis, H.Cekins, D.D.Quastello, S.C.Quastello, V.D.Şadrikova və b. misal çəkmək olar. Tədqiqatçıların bir qismi emosional intellektin irsi olaraq genetik şəkildə ötürüldüyünü

qeyd etsələr də, bəzi tədqiqatçılar isə emosional intellektin sosial münasibətlər və ətraf mühitin təsiri nəticəsində formalaşdığını qeyd edirdilər. Lakin bu iki dəyişəndən hansının emosional intellektə daha çox təsir etdiyini müəyyənləşdirmək mümkün olmamışdır. Məsələn, əkiz qardaşlarla aparılan təcrübə zamanı qardaşların intellekt səviyyələri arasında 0.70 civarında korrelyasiya əmsalının olması intellektin irsi olaraq ötürüldüyünü sübut etsə də, intellekt göstəricisi ilə təhsil səviyyəsi arasında 0,55 civarında korelyasiya göstəricisinin olması isə intellektin mühitin təsiri nəticəsində formalaşmasını sübut edirdi. Korrelyasiya iki dəyişən arasında ortaq əlaqəni ifadə edir ki, bu dəyişənlərin -1.00 - +1.00 arasında dəyişdiyi qeydə alınmışdır. Mənfi korrelyasiya dəyəri neqativ əlaqənin, müsbət korrelyasiya göstəricisi isə pozitiv əlaqənin göstəricisidir. Bu səbəbdən də, emosional intellektin inkişafına təsir edən amillər üç başlıq altında genetik, sosial və ekoloji olmaqla nəzərdən keçirilir.

**Cədvəl 1.**

**Emosional intellektin inkişafına təsir edən amillər**

| Bioloji amillər | Sosial amillər |
|---|---|
| emosional həssaslıq səviyyəsi | Rasionallıq |
| təfəkkürün inkişaf səviyyəsi və növləri | özünüdərketmənin inkişaf xüsusiyyətləri və mərhələləri |
| valideynlərin emosional intellekt səviyyəsi | valideynlərin təhsil səviyyəsi |
| temperamentin xüsusiyyətləri | ailənin sosial-iqtisadi vəziyyəti |
| informasiyanın işlənməsi xüsusiyyətləri | dini inanc səviyyəsi |
| irsi amillər | ailədə emosional sakitlik və münasibətlərin növləri |

D.D.Quastello və S.J.Quastellonun apardıqları tədqiqatlar nəticəsində uşaqların və onların analarının EI səviyyəsi arasında müsbət korrelyativ əlaqənin olduğu müəyyənləşdi. Eyni zamanda, uşaqlarla onların atalarının EI səviyyəsi arasında belə bir əlaqənin olmadığı sübut edildi [2, s.6]. Başqa tədqiqatlarda isə valideynlərin təhsil səviyyəsi və ailənin iqtisadi durumu nə qədər yüksək olarsa, yeniyetmələrdə emosional intellekt göstəricilərinin bir o qədər yüksək olduğu aşkarlandı. Məlum olduğu kimi özünü idarəetmə mexanizmləri də şəxsiyyətin inkişafının ən erkən mərhələlərində formalaşır. Bunu nəzərə alaraq demək olar ki, uşaqda "mən" obrazının nə dərəcədə formalaşması onun emosional intellektinə də təsir edir [3, s.39].

Emosional intellektin inkişafına təsir göstərən digər amil isə yaş amilidir. Emosional intellekt sahəsində aparılan araşdırmaların nəticələrinə əsasən, EQ səviyyəsi 19 və 26 yaş üzəri yaş qrupunda yaşa görə fərqlənmə qeydə alınmamışdır. 2000-ci ildə məktəbli yeniyetmələr üzərində aparılan bir araşdırmada, 15 yaşındakı şagirdlərin EQ'lərinin 16 və 17 yaşındakı şagirdlərdən daha aşağı olduğu, yaş artdıqca emosional intellektin də artığını sübut edilmişdir. C.Mayer 2001-ci ildə apardığı bir tədqiqatda emosional intellekt baxımından 18-21 yaş qrupundakı şəxslərin 13-16 yaş qrupundakı şagirdlərdən daha yüksək ballar aldıqlarını təyin etmiş və emosional intellektin ən azından erkən gənclik illərinin başlanğıcınadək yaş artıqca yüksəldiyini ifadə etmişdir.

Emosional intellekt ilə yaş arasındakı əlaqəni ölçən ilk tədqiqatçılar intellektin 15-16 yaşadək sabit qaldığını, sonra isə 20 yaşında hətta daha sonrakı illərdə belə inkişaf etdiyini sübut etmişdir. Bu nəticələrə əsasən, emosional intellektin 20 yaş və sonrakı illərdə əvvəlki illərlə müqayisədə daha sürətli inkişaf etməsi fikri irəli sürülmüşdür.

Araşdırmadan əldə edilən digər bir fakta görə, emosional intellektin cinsiyyətə görə dəyişməsi olmuşdur. Qızlar, öz emosiyalarını anlaması- EQ1, başqalarının emosiyalarını anlamanı - EQ2, emosiyaların manipulyasiyasını - EQ3 şəklindəki üç ölçü-

lü və ümumilikdə kişilərə görə daha yüksək nəticələr əldə etmişdirlər. Emosional intellektə dair araşdırmalar ümumilikdə diqqət yetirildikdə, qadınlarda emosional intellektin kişilərdən daha yüksək olması sübut edilmişdir.

Bundan əlavə, dini təhsil almış uşaqların emosional intellekt səviyyəsinin daha yüksək olduğu aşkar edilmişdir. Çünki dini bilginin olması uşaq həyatında gərgin vəziyyətlərdə nikbin əhval-ruhiyyənin saxlanmasına xidmət edir, həmçinin insanı katarsis vəziyyətinə salmağa kömək edir, insana öz emosiyalarını cilovlamağı, başqalarının təcrübələri ilə empatiya qurmağı öyrədir. Emosional intellektə təsir edən sosial amillər arasında dini amil də mühüm yer tutur. Çünki aparılan araşdırmaların nəticələri göstərdi ki, “Emosional intellekt” və “Dindarlıq” şkalası üzrə aparılan korrelyasiyada yüksək göstəriciylə müşahidə olunan korrelyativ əlaqə mövcuddur. N. Andreyeva bu vəziyyətin bir neçə səbəbini açıqlayır:

- Birincisi, dindar insanlarda emosiyaları idarə etməyə və empatiya qurmağa imkan verən xarici nəzarət ocağı formalaşır. Səbəb isə dini təhsilli insanın həyatında baş verən bütün hadisələrin səbəbinin Allahın iradəsinin olduğuna inanmasıdır.
- İkincisi, dini təhsil, ilk növbədə, insanda məhəbbət hissinin inkişafına, mənəvi hisslərin tərbiyəsinə, insanda empatik qabiliyyətini artırmağa kömək edir.
- Üçüncüsü, dini təhsil nəticəsində insanda öz davranışlarını təhlil etmək, özünü idarə etmək bacarığı formalaşır.

V.D.Şadrieovanın fikri ilə razılaşa bilərik: “İman insan hisslərini təkcə emosional cəhətdən zənginləşdirmir, həm də onun daxili həyatını yenidən qurmaq və ona yeni keyfiyyət verməklə onun təcrübələrini zənginləşdirir.” destruktiv davranış nümunələrindən qoruyur və mənimsəməsinin qarşısını alır. Bu, emosional intellektin mühüm komponenti olan emosiyaları idarə etmə bacarığına uyğundur.

## Ədəbiyyat siyahısı:


1. Андреева И.Н. Эмоциональный интеллект как феномен современной психологии. Новополоцк: ПГУ, 2011.
2. ЛюсинД.В. Эмперический анализ категоризации эмоций// Вопросы психологии.–1999. –No2. –С. 50–61.
3. ГоулманД. Эмоциональный интеллект //Д.Гоулман; пер. с анг. А.П.Исаевой. –М.: АСТМОСКВА; Владимир: ВКТ, 2009.
4. Bar-On R. Emotional Quotient Inventory: a measure of emotional intelligence. NY: Multi-Health Systems, Inc. 2008. – P. 36.
5. Mayer J.D. Emotional Intelligence: Popular or Scientific Psychology. N.Y., 2005.

## MÜNDƏRİCAT

## POLİTOLOGİYA VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Qasımova Ləman.*** Azərbaycan Respublikasının geosiyasi statusunun regional təhlükəsizliyə təsiri ..................................3

## FƏLSƏFƏ VƏ TARİX BÖLMƏSİ

***Əliyeva Gülşən.*** Sosial idrakın təhlilində sistem-sinergetik yanaşmanın prinsipləri ...........................................................8
***Микаилова Нармина.*** Культура как система идеалов и ценностей ..................................................................................14
***Məmmədova Sevda.*** Ali məktəb kitabxanalarında informasiya resurslarının idarə edilməsi məsələləri..................20
***Намазова Айбала.*** Этническая психология и личность .....23
***Микаилова Нармина.*** Человек в условиях современной культуры ........................................................................26
***Buniatova Shams.*** Cognitive function of delusion ..................32

## PSİXOLOGİYA BÖLMƏSİ

***Qurbanova Nərminə.*** Mədəniyyətlərarası qarşılıqlı təsirin sosial-psixoloji aspektləri.....................................................35
***Ömər Ece.*** Covid – 19 pandemiyası və psixi sağlamlıq ...........38

***Abdiyeva Sevda.*** Müasir təhsil sistemində müəllim-şagird münasibətlərinin kommunikativ əsasları ................................40
***Babayeva Təranə, Abdullayeva Elmira.*** Cinayətkar residivist şəxsiyyətin psixoloji tədqiqi barədə ..........................44
***Адигезалова Фарах.*** Субъективные особенности психологического времени индивида ........................................49
***Hacıyeva İlahə.*** Tələbə qruplarında gender münasibətlərinin təzahür xüsusiyyətləri...................................54
***Mahmut Esen.*** Pandemiya dövrü uşaqlarda yaranan emosional pozuntular ..........................................................56
***Qurbanova Nərminə.*** Etnik qruplarin sosial-psixoloji adaptasiyasına dair ..............................................................58
***Ramilova Nigar.*** Depressiyanın koqnitiv funksiyalara təsiri ......................................................................................62
***Nəsirova Nigar.*** Təfəkkürü öyrənmənin xüsusiyyətləri ..........66
***Rəhmanzadə Aynur.*** Yeniyetməlik yaşı dövründə deviant davranışın təzahür etmə formaları............................................73

## PEDAQOGİKA VƏ FİLOLOGİYA BÖLMƏSİ

***Məmmədova Nərgiz.*** Azərbaycan və ingilis dillərində mürrəkəb sözlərin yaranması və quruluşu ...............................75
***Hüseynova Cəmilə.*** Tərbiyə prosesində obyektiv və subyektiv amillər..................................................................80
***Rəhimova Sevda.*** Çətin tərbiyə olan yeniyetmələrin tərbiyəsi problemi ..................................................................84

***Paşayeva Amalya.*** Urdu dilində sonqoşmaların tədqiqi tarixi haqqında........................................................................86
***Məlikov Elmar.*** Müasir qərb teatrında lider rejissor anlayışı ................................................................................90
***Şərifova Gülsüm.*** Böyük zəfərdən ilham alan, yenidən çiçəklənən milli-mənəvi dəyərlər.............................................93
***Əhmədov Əhsən.*** Azərbaycanın muğam irsində səs yazılarının əhəmiyyəti.........................................................97

## SOSİAL İŞ VƏ İQTİSADİYYAT BÖLMƏSİ

***Əlizadə Tamilla.*** Uşaqlarda gender stereotiplərinin formalaşması və bunun akademik nailiyyətdə təzahürləri........102
***Məmmədova Elvira.*** Zorakılığa məruz qalmış fərdlərin yenidən cəmiyyətə inteqrasiyası ........................................ 108
***Zeynallı Səkinə.*** Uşaq evlərində valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial işin qanunvericilik bazası .......113
***Tağıyeva Tərlan.*** Məhdud imkanlara malik uşağı olan ailələrdə sosial adaptasiya......................................................115
***Əliyeva Pərvin.*** Qaçqın və məcburi köçkünlərə dövlətin sosial siyasət istiqamətləri......................................................120
***Бугадинова Рамина.*** Семья как ведущее направление социальной работы ...............................................................123
***Məcidova Lalə.*** Gənc ailə anlayışı, onlarda yaranan problemlərin başlıca xüsusiyyətləri .........................................127
***Kərimova Gülcənnət.*** Məişət zorakılığına məruz qalmış uşaqların reinteqrasiyası.........................................................130

***Muradov Rəşad.*** Azərbaycanda sosial sahibkarlıq: problemlər və erspektivlər ........................................................133
***Salmanova Səlmi.*** Evsiz və baxımsız uşaq və yeniyetmələrə göstərilən sosial xidmətin növləri......................137
***Bağırova Güllər.*** Azərbaycanın qərbini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək yol Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf perspektivi kimi ............................139
***Əsədova Nəzrin.*** Emosional intellektin inkişafına təsir göstərən amillər............................................................................147

Redaktor: **V.K.MUSAYEVA**

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(20 oktyabr 2022-ci il)

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

Çapa imzalanıb: 20.10.2022.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi: 9,75.
Tiraj: 100.
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69